Bu bir xalq qəzetidi
ƏDALƏT

## Kəmaləddin Heydərov Ziniçevin ölümü ilə bağlı başsağlığı verdi



**Azərbaycanın Fövqəladə Hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Rusiya Federasiyasının mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə naziri ordu generalı Yevgeni Ziniçevin faciəli şəkildə həlak olması ilə bağlı həmin nazirliyin kollektivinə başsağlığı məktubu göndərib.**

**Adalet.az Fövqəladə Hallar Nazirliyinin saytına istinadən xəbər verir ki, məktubda rusiyalı nazirin hər zaman ölkəsinin təhlükəsizliyinin təmin olunmasına xidmət etdiyini xatırladan Kəmaləddin Heydərov onun insan həyatını xilas edərkən qəhrəmancasına həlak olduğunu qeyd edib. İstedadlı rəhbər, dövlət xadimi və hörmətli həmkar olaraq Yevgeni Ziniçevin həlak olması xəbərinin kədərlə qarşılandığını bildirən nazir Rusiya FHN-in kollektivinə dərin hüznlə başsağlığı verib.**

## EMİN ƏMRULLAYEVƏ MAFİYA HÜCUMU

**Deməli, təhsil naziri ayın 7-də mətbuat konfransı keçirdi. Biz adətən yüksək vəzifəli məmurların Azərbaycan dili ilə bağlı problemlərini yazırıq. Biz deyəndə, söhbət təkcə "Ədalət" qəzetindən getmir və təbii ki, biz də yazırıq. Nazir sualları Azərbaycan dilində çox gözəl cavablandırdı. Və çox səmimi idi. Nazirdən daha çox mətbuat xidmətinin rəhbəri kimi özünü aparırdı, yəni eqo nümayiş etdirmirdi.**

Bir jurnalist tapmaca kimi bir sual verdi, hərçənd ki, ondan əvvəl başqa jurnalistlərin bu mövzuyla bağlı verdiyi suallara cavab verməmişdi.



İndi baxıram, saytlarda və sosial şəbəkələrdə Emin Əmrullayevi ağ yuyub quru sərirlər. Ona qarşı çox böyük bir hücum təşkil olunub. Və görürük ki, Əli Həsənovun trolları yeni məkanda yeni fəaliyyətdədirlər.

Ümumiyyətlə, Azərbaycan təhsil sistemini 30 ildə elə bir duruma salıblar ki, bu problemləri aradan qaldırmaq üçün gərək Allahın bacısı oğlu olasan.

Mən bir dəfə təhsildəki problemlərlə bağlı yazmışdım ki, Misir Mərdanov Allahın bacısı oğlu deyil ki, bu problemləri aradan qaldırsın.

**Emin Əmrullayev də heç Allahın bacısı oğlu deyil. "Təhsil haqqında" Qanuna yenidən baxılmalıdır. Mən təhsil eksperti deyiləm, amma bir müddət müəllim işləmişəm. Əgər Azərbaycan boloniya sistemindən imtina edib yenidən köhnə sistemə keçsə müəyyən bir müddətdə Yusif Məmmədəliyev də, Həsən Abdullayev də, Cəlal Allahverdiyev də, Xudu Məmmədov da, Əhliman Əmiraslanov da, Arif Babayev də, Vaqif Abbasov da və sair və ilaxır yetişdirə bilər. 30 illik boloniya sistemində yuxarıda adları çəkilən belə bir şəxsiyyətləri yetişdirə bilmişikmi?**

## Vilayət Eyvazov Türkiyə səfiri ilə görüşdü



*Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Cahit Bağcı ilə görüşüb.*

*Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Adalet.az-a bildiriblər ki, təyinatı münasibətilə səfiri təbrik edən nazir ona dəyərli fəaliyyətində uğurlar arzulayıb.Nazir Azərbaycan ilə Türkiyə arasında əlaqələrin gündən-günə genişləndiyini, dövlətlərimizin başçılarının əməkdaşlığın bütün sahələrdə ən yüksək səviyyədə inkişafına böyük önəm verdiklərini diqqətə çatdırıb, eyni zamanda son illər hər iki ölkənin Daxili İşlər nazirliklərinin cinayətkarlıqla mübarizə, peşə hazırlığı, informasiya və təcrübə mübadiləsi sahələrində əldə etdikləri önəmli nəticələr barədə məlumat verib.*

*General-polkovnik Vilayət Eyvazov Azərbaycan polisinin, Daxili Qoşunların səmərəli fəaliyyət göstərdiyini, ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə aparıcı hüquq-mühafizə orqanı kimi öz yerini tutduğunu məmnunluqla qeyd edib.*

## Partiya sədrlərini Prezident Administrasiyasına topladılar

Bax:səh-2

## SƏHİYYƏ ÜSTÜNDƏ QIRĞINDI, GÖRƏK KİM GÜCLÜ ÇIXACAQ?

**Əvvəl-əvvəl xəstəxanaları və Təcili Yardımı alıb verdilər TƏBİB-ə. Sonra Təcili Yardımı TƏBİB-dən alıb qaytardılar Səhiyyə Nazirliyinə, indi də Bakı və Abşeronu TƏBİB-dən alıb qaytardılar Səhiyyə Nazirliyinə.**

**Vallah, belə islahat heç Banqladeşdə də olmur.**

## BİLİRSİNİZ NİYƏ YENİ KOMANDAN BİRİNCİ İRƏVANA GEDİB?



Çünki o, Xankəndinə Laçın dəhlizi ilə gələ biləcək. Qorxub ki, birinci Azərbaycana gələr və Xankəndinə Ağdamdan getmək istəyər və erməni silahlıları onu Əsgərandan Xankəndinə buraxmazlar. Hadisələrdən görünür ki, Xankəndində sülhməramlıların deyil, Ermənistanın həmin bölgədə yerləşdirdiyi silahlı qüvvələrinin sözü keçir.

## QARDAŞLARIMIZ BİZİ BİABIR OLMAQDAN XİLAS ETDİ



**Sentyabrın 7-də dünyanın görkəmli məşqçisi De Byazinin rəhbərlik etdiyi Azərbaycan milli komandası Ronaldosuz Portuqaliyaya 0:3 hesabı ilə məğlub oldu.**

Amma Şenol Günəş bizi bu dilxorçuluqdan az-çox xilas elədi və onun rəhbərlik etdiyi Türkiyə milli komandası Niderlanda (Hollandiyaya) 6:1 hesabı ilə məğlub oldu.

**Və Türkiyənin Günəşi batdı.**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 79 (5911) 11 sentyabr 2021-ci il | Qiyməti 30 qəpik

# Azad Kəlbəcərin adını daşıyan gəmi açıq dənizə buraxıldı



Bax:səh-2

## DƏLİDİ GETSİN DƏDƏSİNİ, NƏNƏSİNİ DÖYSÜN DƏ

*Deməli, bir dəli küçədə kim qabağına keçir Rusiya kimi şillə-şapalaq atır. Hamı da deyir ki, fikir verməyin də, dəlidi.*

*Bir nəfər də qayıdır:*

*- Dəlidir, getsin bir dəfə də dədəsini, nənəsini döysün də.*

*İndi Rusiyanın gərək ki, Dövlət Duması Rusiyanın Müdafiə Nazirliyi ilə bağlı yazıb ki, "Dağlıq Qarabağ Respublikası"nda filan-filan işlər görülməlidir.*

*Bizim Xarici İşlər Nazirliyi də bununla bağlı məlum bəyanat verib, Rusiya tərəfi də bildirib ki, texniki səhvdir.*

*Rusiya belə "texniki səhvləri" tez-tez edir. Əgər bu texniki səhvdirsə, onda bir dəfə də belə bir səhv eləsin Qərbi Zəngəzuru Azərbaycan ərazisi kimi təqdim eləsin.*

## O BOYDA OLİMPİYA STADİONUNUN TƏHLÜKƏSİZLİK XİDMƏTİ YOX İMİŞ



**Portuqaliya ilə oyun zamanı iki dəfə azarkeşlər meydana daxil oldular, hansısa bir futbolçu ilə şəkil çəkdirdilər və sonra da rahatca meydanı tərk elədilər. Bəs, o boyda stadionun təhlükəsizlik xidməti harda idi? Bəlkə meydana girən azarkeşlərdən biri qonaq komandanın hansısa bir oyunçusuna bıçaq demirəm, bir yumruq vurardı. Bunun altından necə çıxacaqdıq?**

Onsuz da hər iki hadisəyə görə yəqin ki, komandamız cərimə olunacaq. Söhbət sosiskadan getmir, söhbət "vnimatelnı" olmaqdan gedir. Olimpiya stadionunun rəhbərliyi bizim bu suala cavab verə bilərmi? Təbii ki, yox.

## SU İSTƏYİRSİNİZ, DEYİN VERƏK DƏ...



**Xankəndində su qıtlığıdı, Rusiyanın ermənimərəmlıları da vurhavur bu şəhərə su daşıyır. İndi Xocalıda da bir su anbarı tikmək istəyirlər ki, Xankəndini su ilə təmin etsin.**

Biz Yezid deyilik, düşməni də susuz qoymarıq. Xankəndinin sakinləri reallığı qəbul eləsin, özlərini Azərbaycan vətəndaşı kimi tanısınlar və biz də onları su ilə təmin edək.

Və hətta qeyd etdiklərimizi qəbul eləməsələr də, bizdən su istəsələr verərik.

Bir daha qeyd edirəm, biz Yezid deyilik.

*Mehman Cavadoğlu*

## Fərarilərin üzrü qəbul olunmur

Bax: səh.3

## LEYLA YUNUS NƏ VAXT QƏRƏZSİZ OLUB Kİ?



***Oxuyuram ki, Leyla Yunus yeni bir siyasi məhbus siyahısı tutub. Bizim mətbuat da yazır ki, bu siyahı qərəzlidi. Nə qədər sadəlövhük ey, Leyla Yunus nə vaxt Azərbaycan dövlətinə qarşı qərəzsiz olub ki?***



Əhməd Oğuz Oğuz xaqanlarına qovuşdu

## BİZDƏ "MƏHƏBBƏT ƏFSANƏSİ"Nİ TAMAŞAYA QOYMAQ OLMAZ



**Deməli, Qazaxıstan Dubayın Opera və Balet Teatrında Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletini tamaşaya qoyacaq. İndi yazırlar ki, illərdi bu əsər Bakıda tamaşaya qoyulmur və repertuardan çıxarılıb.**

Elə düz edib çıxarıblar, bizdə bir-birimizə məhəbbət qalıb ki, onun da əfsanəsini qoysunlar tamaşaya?

## İSLAHAT DEYİL EY, KEFDİ BAŞDAN-AYAĞA

*Deməli, böyük-böyük nazirlikləri, komitələri hansısa bir nazirliyin və ya təşkilatın tərkibində birləşdirirlər. Amma bir səhiyyəni üç yerə bölüblər: Səhiyyə Nazirliyi, TƏBİB və Tibbi Sığorta.*

*Ona görə də səhiyyəmiz bu gündədi, ona görə də koronavirus həm bizi, həm də bu üç təşkilatı yeyir.*

## ƏLİ MAHMUDLA 30 İL SONRA ŞUŞADA ÇAY İÇDİK



**Axırıncı dəfə Şuşada Mədəniyyət evinin arxasındakı çayxanada Əli Mahmud, İlhami Cəfərsoylu və mən Ağdamdan gələn dostlarla birlikdə çay içmişdik.**

**Düz 30 ildən sonra biz yenə Əli Mahmudla təbii ki, həmin çayxanada yox (Mədəniyyət evini də dağıdıblar, çayxananı da), "Xarı bülbül" otelində yenə çay içdik. Çox təəssüf ki,ağdamlı dostlarım yox idi, çünki şəhid olublar (Xallı Şahin də, Neftbaza Rizvan da, Vaqif də), eləcə də İlhami Cəfərsoylu da yox idi. İlhami Cəfərsoylu Qarabağ tarixinin ən böyük tədqiqatçılarından biridi. İnşallah, tezliklə onunla da Şuşada, elə həmin çayxanada çay içərik.**

## DE BYAZİNİN SƏFEH ƏVƏZLƏMƏSİ BAHA BAŞA GƏLDİ



**Milli komandamız İrlandiya ilə oyuna istəkli çıxmışdı. Hətta elə bil özlərinə naşatır spirti sürtmüşdülər. Çox gözəl oyun nümayiş etdirdilər. Emin Mahmudovun qolundan da yox idi. Yəqin ki, onun qolu Dünya Çempionatının seçmə oyunlarında bu ayın 10 ən gözəl qolları siyahısına düşəcək.**

Amma oyunun axırına yaxın De Byazinin səfeh əvəzləmələri komandamıza çox böyük zərbə vurdu. Nəticədə oyun heç-heçə qurtardı.

Belə "xlam" baş məşqçiləri hardan tapıb gətirirlər möcüzədir ey. Gündüz çıraqla axtarsan De Byazi kimi mənasız baş məşqçi tapa bilməzsən.

Berti Foqts 5 il bizlə məzələndi, bizi şantaj elədi, özü də hər il bunun trolları yazırdılar ki, guya Foqtsu Braziliya istəyir, Argentina istəyir, İngiltərə istəyir, Zimbabve, Madaqaskar istəyir, yəni guya üstündə qırğındı. Bizdən getdi, hələ də işsizdi. Heç Qvineya da aparmadı.

İndi baxıram ki, De Byazi haqqında da yazırlar ki, filan ölkə istəyir, filan ölkə istəyir, bu da hələ naz edir.

Yadıma ağdamlıların məşhur bir anekdotu düşdü. Ermənilər Dağlıq Qarabağı istəyəndə ağdamlılar lağla zarafat edirdilər ki, ermənilərə deyək ki, filankəsi də (adını yazmıram, rəhmətə gedib) üstündə veririk, Qarabağı götürməyəcəklər.

**İndi De Byazini də istəyənlərə deyək ki, üstündə bülbül də veririk, götürməyəcəklər.**

## "SÖYÜŞ SÖYƏRDİM, AMMA SÖYMÜRƏM"

*Bir ölkənin baş məşqçisinin mətbuat konfransında dediyi sözə baxın: "Söyüş söyərdim, amma söymürəm".*

*Cənab De Byazi, ən çox söyülən sənsən. Xahiş edirik, sən kimə söyəcəkdin, onu denən.*

*Əgər "Səbail" komandasını Portuqaliya ilə oyuna buraxsaydıq, düzdür, məğlub olacaqdıq, amma bu qədər mənasız oyun göstərməyəcəkdik.*

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## ŞƏXSİYYƏTLƏRİMİZİ GÖZDƏN SALANLAR ÖZLƏRİ GÖZDƏN DÜŞÜRLƏR



***Əslində bu gün görkəmli şairimiz, dilimizin Yuzbulağı, İsa bulağı, Kəlbəcəri haraylaya-haraylaya Kəlbəcərsiz dünyasını dəyişən, özü gedə bilməsə də ruhu Dəli dağa, Sarıyerə, Başlıbelə gedən Məmməd Aslan haqqında yazacaqdım. Eybi yox, qalsın gələn nömrəyə. Məmməd əminin ruhu buna görə məndən inciməz.***

***Dəfələrlə bu mövzu ilə bağlı məqalələr yazmışam, çox təəssüf ki, ciddi yazıların oxucusu azdı, amma bir mənasızın bir mənasız yazısını oxuyan çoxdu. Neyləyək, milləti belə öyrətmişik. Hətta təxminən 110 il bundan əvvəl Yusif Vəzir Çəminzəminli də bu barədə yazıb. Yusif Vəzirin həmin məqalələrini tezliklə həm saytımızda, həm də qəzetimizdə oxuya bilərsiniz.***

***Qayıdaq mövzumuza.***

Bax: səh.2



## GÜNÜN LƏTİFƏSİ

Vasif Quliyevin kefi yuxarıdı, sanki səmalarda uçur. Aqil Abbas:

**- Vasif, xeyir ola, genə göylərdə uçursan?**

Vasif müləllim:

**- Qağa neyniyim, "Parıament" siqareti çəkirəm, amma parlamentə düşə bilmirəm. "Prezident" yağı yeyirəm, prezident ola bilmirəm. Bircə**

"Vozdux" arağı real kömək edir, içən kimi havalarda uçuram.

## Azad Kəlbəcərin adını daşıyan gəmi açıq dənizə buraxıldı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı gəmiqayırma zavodunda "Kəlbəcər" neftdaşıyan tankerin istismara verilməsi mərasimində iştirak edib.**

Adalet.az xəbər verir ki, bu neftdaşıyan tankerin tikintisinə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda 2 il əvvəl başlanılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə tanker "Kəlbəcər" adlandırılıb.

Qeyd edək ki, Prezident İlham Əliyev bir müddət əvvəl işğaldan azad edilən Kəlbəcərdə üçrəngli Azərbaycan bayrağını dalğalandırdı. İndi isə üçrəngli Azərbaycan bayrağı altında beynəlxalq sularda üzəcək "Kəlbəcər" neft tankerinin istismara verilməsi mərasimində iştirak edib. Bunun çox böyük rəmzi mənası var.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Dünyada pandemiyanın davam etməsi və iqtisadi-maliyyə böhranının yaratdığı problemlər fonunda Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafı tam təmin olunur. Bu gün Azərbaycan strateji əhəmiyyətə malik məhsulları artıq özü istehsal edir. Bakı gəmiqayırma zavodunda gəmilərin istehsalı, o cümlədən "Kəlbəcər" neftdaşıyan tankerinin inşa olunaraq istismara verilməsi bunun əyani təzahürüdür. Şübhəsiz ki, bu cür mühüm əhəmiyyətə malik istehsalın ölkəmizdə təmin olunması iqtisadi qüdrətimizi və Azərbaycanda icra olunan böyük sosial-iqtisadi infrastruktur layihələrinin ardıcıl şəkildə davam etməsini nümayiş etdirməklə gəmiçiliyin fəaliyyətinin şaxələndirilməsi ilə bağlı görülən işlərin həcmini aydın şəkildə göstərir.

Dövlətimizin başçısı tankerin istifadəyə verilməsini bildirən rəmzi lenti kəsdi.

"Kəlbəcər" neftdaşıyan tankerinin inşası, eyni zamanda, son illərdə yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin tərkib hissəsidir. Gəmiçiliyin Strateji İnkişaf Planına uyğun olaraq son illərdə 18 gəmi istismara verilib. Bu da ölkəmizin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasında, Azərbaycan ərazisindən artan tranzit yükdaşımalarına yaranan tələbatın ödənilməsində və dənizdə neft-qaz layihələrinin uğurla icrasında mühüm rol oynayır.

Uzunluğu 141 metr, eni 16.9 metr olan "Kəlbəcər" tankerinin daimi heyəti 15 nəfərdən ibarətdir. Dedveyti - yükgötürmə qabiliyyəti 7,800 ton olan tankerdə dünyanın aparıcı şirkətlərinin avadanlıqları quraşdırılıb. Tankerin texniki göstəriciləri, xüsusilə suya oturumu digərləri ilə müqayisədə, maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Xəzərdən kənara yük daşımasına imkan yaradır.

Yeni tanker Bakı gəmiqayırma zavodunun 2019-cu ildə təhvil verdiyi və hazırda Qara dəniz-Aralıq dənizi hövzələrində üzən "Laçın" tankeri ilə eyni tiplidir. Bu tip 4 tanker sifariş verilib ki, hazırda yerli mütəxəssislər tərəfindən ikisinin tikintisi davam etdirilir. Ümumilikdə, zavoda 10 yeni gəminin tikintisi ilə bağlı sifariş verilib ki, onların da artıq altısının, o cümlədən 1 yedək, 3 sərnişin, 1 Ro-Pax tipli gəmi-bərənin və 1 tankerin tikintisi başa çatdırılaraq istismara verilib. Hazırda daha 2 neft tankeri ilə yanaşı, Ro-Pax tipli bir gəmi-bərənin inşası davam etdirilir. Gəmilərin tikintisi əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin mənfəəti hesabına maliyyələşir. Bu da yerli gəmi tikintisi sənayesinin inkişafına töhfə verir.

**Hazırda Qara dəniz və Aralıq dənizi hövzələrində Azərbaycan bayrağı altında 8 quru yük gəmisi və 3 tanker olmaqla, 11 gəmi istismar olunur. Heyətləri yalnız yerli mütəxəssislərdən ibarət olan bu gəmilər tanınmış dövlət-mədəniyyət xadimlərimizin, rayon və şəhərlərimizin adlarını daşıyır. Bu ilin sonunadək "Prezident Heydər Əliyev", "Kəlbəcər" və "Şuşa" tankerlərinin də Xəzərdən kənarda, o cümlədən Baltik və Şimal dənizlərinə çıxışı təmin olunacaq.**

## *YAP-ın Bakı şəhəri üzrə rayon təşkilatlarına yeni sədrlər təyin olunub*

**Yeni Azərbaycan Partiyasının (YAP) Bakı şəhəri üzrə rayon təşkilatlarına yeni sədrlər təyin olunub.**

Yeni sədrlər partiyanın İdarə Heyətinin iclasında təyin edilib. Həmin təyinatları təqdim edirik:

Səbail rayon təşkilatının sədrliyinə Nağıyev Muxtar Teymur oğlu,

Nəsimi rayon təşkilatının sədrliyinə Süleymanov Azər Abdul oğlu,

Yasamal rayon təşkilatının sədrliyinə Nəbiyev Bəxtiyar Eyvaz oğlu,

Nərimanov rayon təşkilatının sədrliyinə Vəliyev Samir Əhməd oğlu,

Xətai rayon təşkilatının sədrliyinə Rəhimzadə Vüqar Gəncəli oğlu,

Nizami rayon təşkilatının sədrliyinə Vəlibəyov Ramil Vaqif oğlu,

Binəqədi rayon təşkilatının sədrliyinə İsmayılov Vüsar Qəşəm oğlu,

Sabunçu rayon təşkilatının sədrliyinə Vəliyev Misirxan İzzət oğlu,

Suraxanı rayon təşkilatının sədrliyinə Seyidov Vüqar Səməndər oğlu,

Xəzər rayon təşkilatının sədrliyinə Əhmədov Namiq Məcid oğlu,

Qaradağ rayon təşkilatının sədrliyinə Əliyev Qafar Məmməd oğlu,

Pirallahı rayon təşkilatının sədrliyinə Abasov Emil Tofiq oğlu

# Partiya sədrlərini Prezident Administrasiyasına topladılar

**Sentyabrın 9-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi ölkədə fəaliyyət göstərən 45 siyasi partiyanın rəhbərləri ilə "Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq" mövzusunda görüş keçirib.**

Adalet.az xəbər verir ki, tədbiri giriş sözü ilə açan Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev görüşdə iştirak edən siyasi partiya rəhbərlərini Prezident İlham Əliyevin adından salamlayıb, onlara ölkədə milli həmrəylik, siyasi dialoq mühitinin təşviqinə xidmət edən müxtəlif səpkili layihələrdə fəal iştirak etdiklərinə görə təşəkkürünü bildirib.

Ədalət Vəliyev qeyd edib ki, bu gün Azərbaycan çoxəsrlik tarixinin ən şərəfli dövrünü yaşayır, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib dövlət və qalib xalq olmağımızla Azərbaycan dövlətçiliyi tarixində mahiyyət etibarilə tamamilə yeni inkişaf mərhələsi başlayıb. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın müddət ərzində davam edən təcavüz və işğal siyasətinə son qoyulub.

Ölkədə cərəyan edən siyasi proseslər barədə danışan Ədalət Vəliyev Prezident İlham Əliyevin sistemli və çoxşaxəli inzibati-siyasi islahatlarının nəticəsində sağlam iqtidar-müxalifət dialoqunun, yeni siyasi konfiqurasiyanın qurulduğunu, siyasi partiyalarla işin yenidən təşkil edildiyini diqqətə çatdırıb. O, dövlətimizin başçısının tapşırığı əsasında siyasi partiya rəhbərləri ilə çoxsaylı görüşlər keçirildiyini və hər bir görüşün nəticələrinin təhlil olunaraq irəli sürülən təkliflərin öyrənildiyini, müvafiq addımların atıldığını deyib. Həmçinin bildirilib ki, "Siyasi partiyalar haqqında" yeni qanunun layihəsinə dair siyasi partiyalar tərəfindən təqdim olunmuş təkliflər müzakirə edilir.

İqtidar-müxalifət dialoqunun əhəmiyyətini vurğulayan şöbə müdiri qərargahı olmayan 22 siyasi partiya üçün ofislər ayrılması, vaxtı ötürülmüş qurultaylarının keçirilməsi üçün bir sıra siyasi partiyaların yerlə təmin olunması üçün tədbirlər görülməsi və 25 siyasi partiyanın qurultaylarının keçirilərək nəticələrinin dövlət qeydiyyatına alınması, habelə uzun fasilədən sonra 7 yeni siyasi partiyanın dövlət qeydiyyatına alınması barədə məlumat verib. Həmçinin qeyd olunub ki, iqtidar-müxalifət dialoqu nəticəsində cəmiyyətdə yeni yanaşma müşahidə olunmaqdadır və siyasi partiyaların respublikanın ictimai-siyasi həyatında daha yaxından iştirakının təmin edilməsi məqsədilə siyasi partiya liderləri müxtəlif mətbuat orqanlarında və televiziya kanallarında çıxış etmək üçün dəvət olunurlar.



Ədalət Vəliyev siyasi partiyaların mütləq əksəriyyətinin xarici təhdidlərə qarşı birlik nümayiş etdirdiyini, 8 birgə bəyanat və 2 birgə müraciət imzalandığını xatırladaraq Vətən müharibəsi zamanı bu milli həmrəyliyin bütün dünyaya Azərbaycan xalqının ümummilli məsələlərdə hər zaman birləşməyə hazır olduğunu göstərdiyini xüsusi qeyd edib.

Şöbə müdiri ölkədə koronavirus pandemiyasına qarşı aparılan məqsədyönlü mübarizə tədbirlərindən söz açaraq, siyasi partiya rəhbərlərinin və nümayəndələrinin vaksinasiya olunduqlarını, habelə onların koronavirusdan yeganə xilas yolu kimi əhalini vaksinasiyada fəal iştirak etməyə çağırdıqlarını da bildirib.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkədə milli həmrəylik və sağlam siyasi münasibətlərə köklənmiş siyasi dialoqun qurulması istiqamətində əldə olunmuş uğurların bundan sonra da davam etdiriləcəyini qeyd edən Ədalət Vəliyev diqqətə çatdırıb ki, Azərbaycanda çoxpartiyalılığın inkişafına yönəlmiş addımlar ali siyasi iradənin təzahürüdür və iqtidar hər hansı amilə görə ayrı-seçkilik qoymadan bütün siyasi partiyalar ilə dialoqa və əməkdaşlığa hazır olduğunu bəyan edib.

Ədalət Vəliyev 2021-ci il martın 17-də siyasi partiya rəhbərlərinin Ağdama təşkil olunmuş və böyük rəmzi məna daşıyan, milli həmrəyliyi nümayiş etdirən birgə səfəri haqqında da danışaraq, səfərdə iştirak etməyən bəzi şəxslər tərəfindən səfərlə bağlı edilmiş siyasi spekulyasiyaların təəssüf doğurduğunu söyləyib.

Çıxışının sonunda Ədalət Vəliyev postmüharibə dövründə müxtəlif informasiya təxribatlarına qarşı hazır olmağın vacibliyini tədbir iştirakçılarının nəzərinə çatdırıb, hər kəsi düşmənə qarşı mübarizədə daha da sərt mövqe tutmağa və milli məsələlər ətrafında hər zaman birlik nümayiş etdirməyə çağırıb.

Sonra Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağazadə, Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər, REAL Partiyasının sədri İlqar Məmmədov, Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova, Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli, Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov, Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu və Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxış ediblər.

**Çıxışlarda ölkədə davamlı sabitliyin qorunması və dövlətin inkişafı naminə bütün imkanların səfərbər olunmasında siyasi dialoq mühitinin əhəmiyyəti vurğulanıb, bu istiqamətdə sağlam əməkdaşlığın davam etdirilməsinə hazırlıq ifadə olunub. Qeyd edilib ki, qısa müddət ərzində əldə olunmuş uğurlu əməkdaşlıq nümunələrinin sayı artırılmalı, dayanaqlı dialoq ənənələri daha da dərinləşdirilməli, bütün səylər ölkənin inkişafı və xalqın rifahına yönəldilməlidir.**

# *Türk Şurasının iqtisadiyyat nazirləri Bakıda toplaşdı*

**Dünən Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) iqtisadiyyat nazirlərinin 10-cu iclası və Biznes Forumu keçirilib. Ölkəmizdə səfərdə olan Türk Şurası ölkələrinin iqtisadiyyat və ticarət nazirləri ilk öncə Şəhidlər xiyabanını ziyarət ediblər. Qonaqlar "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub, daha sonra "Türk şəhidliyi" abidəsini ziyarət ediblər.**

### *Bu il ölkədə iqtisadi artım 3 faizdən çox olub*

İclasda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, 2021-ci ilin yanvar-avqust aylarında Azərbaycanda ÜDM 3,6 faiz artıb, Azərbaycan iqtisadiyyatı 3,6 faiz, qeyri-neft sektoru 5,5 faiz artıb. Bu artıma, həmçinin özəl şirkətlər tərəfindən əsas kapitala investisiya qoyuluşlarının çoxalması hesabına nail olunub. Yanvar-iyul aylarında Azərbaycanda özəl şirkətlər əsas kapitala investisiyaları 11,7 faiz artırıblar.

Nazir bildirib ki, 2021-ci ilin yeddi ayı ərzində Azərbaycanın türkdilli ölkələrlə ticarət dövriyyəsi 2,6 milyard manat və ya ümumi dövriyyənin 15 faizini təşkil edib. Azərbaycanın Macarıstanla ticarət dövriyyəsinin 75 faiz artdığını vurğulayan nazir bildirib ki, "Biz innovasiyaların elektron ticarətə tətbiqi üzrə türkdilli dövlətlərlə əməkdaşlığı davam etdiririk. Bir müddət əvvəl Türkiyə tərəfi ilə bununla bağlı razılıq əldə etmişik". M.Cabbarov əlavə edib ki, ölkədə elektron ticarətin artırılması üzrə işlər davam etdiriləcək: "Bu baxımdan biz türkdilli ölkələrlə imzalanması nəzərdə tutulan müvafiq memorandumu hazırlayırıq".

Nazirin sözlərinə görə nəqliyyat sahəsində tranzit yükdaşımaların artırılması planlaşdırılır: "Biz, həmçinin bərpa olunan enerji mənbələri, tullantıların təkrar emalı və yaşıl texnologiyalar sahəsində layihələr üzrə işləyirik". Nazir bildirib ki, Azərbaycan hökuməti koronavirus pandemiyası ilə mübarizəyə 2,5 milyard dollar vəsait ayırıb. Bu vəsait ölkədə bir sıra işgüzar və sosial strukturlara yönəldilib: "Görülən tədbirlər sahibkarlara pandemiyadan az itkilərlə çıxmağa kömək etdi". Çıxışı zamanı işğaldan azad edilmiş ərazilərdə aparılan işləri də qeyd edən nazir bildirdi ki, Azərbaycanın azad edilmiş ərazilərində bütün infrastrukturun fəal şəkildə bərpası aparılır. Qarabağın azad edilməsi yeni perspektivlər və yeni çağırışlar ortaya çıxarıb: "Torpaqlarımızın azad edilməsi nəticəsində biz Zəngəzur dəhlizi və Naxçıvanla, Türkiyə ilə birbaşa kommunikasiya, eləcə də Mərkəzi Asiya bazarlarına çıxış barədə danışa bilərik. Azad edilmiş ərazilərdə bütün infrastrukturun fəal şəkildə bərpası aparılır. Bizim bütün layihələrimiz dünya səviyyəli innovativ həllərə uyğun reallaşdırılacaq. Eyni zamanda artıq Ağdam sənaye parkının yaradılması başlanılıb".Hazırda Azərbaycanda beş sənaye parkı mövcud olduğunu qeyd edən iqtisadiyyat naziri Mikayıl Cabbarov Türk Şurası ölkələrini Ələt azad iqtisadi zonasında işləməyə dəvət edib. Azərbaycanın iqtisadi inkişafı barədə danışan M.Cabbarov qeyd edib ki, bu il ölkədə iqtisadi artım 3 faizdən çox olub: "Bizim iqtisadiyyatımız investisiyalar hesabına artıb. Bundan başqa, Azərbaycanın ixrac əməliyyatları artıb və makrofiskal göstəricilər proqnozları üstələyir".




### *Onlarla şirkət Qarabağın bərpasında iştirak etmək istəyir*

Türk Şurasının baş katibi Bağdad Amreyev isə öz növbəsində bildirib ki, Türk Şurası ölkələrinin onlarla şirkəti Azərbaycanın azad edilmiş ərazilərinin bərpasında iştirak etmək istəyir. O bildirib ki, Azərbaycanın Qarabağ bölgəsində iqtisadi fəaliyyət üçün böyük potensial mövcuddur.

"Türk Şurası iqtisadi əməkdaşlığın əldə olunması üçün səmərəli vasitədir"-deyən Baş katibin sözlərinə görə, Türkdilli dövlətlərin dəstək fondunun yaradılması növbəti iki həftə ərzində başa çatdırılacaq. O bildirib ki, hazırda tərəflər KİV-lərin, kiçik və orta biznesin dəstəklənməsi proqramının yaradılması, eləcə də bir sıra digər istiqamətlər üzrə işlər davam etdirilir: "Azad ticarət üzrə çoxtərəfli sazişin imzalanması nəzərdə tutulur. Bundan başqa, ölkələrimiz arasında elektron ticarətin genişləndirilməsi planlaşdırılır".

### *Bir-birini tamamlayan iki dövlət*

Türkiyənin ticarət naziri Mehmet Muş isə bildirib ki, Türkiyə türkdilli ölkələrlə yük dövriyyəsində bütün nəqliyyat növləri üzrə gömrük tariflərini azaltmağa hazırdır. Onun sözlərinə görə daşınma ilə bağlı xərclər müəyyən maneələr yaradır. Türkiyə kvotaları artırmağa və bununla da nəqliyyat əməkdaşlığını genişləndirməyə hazırdır. Bizim şirkətlərimiz və mərkəzi banklarımız türkdilli ölkələrin layihələrinin maliyyə təminatına kömək göstərəcək.

"Azərbaycan və Türkiyənin iqtisadiyyatına nəzər salsaq, görərik ki, rəqib deyil, bir-birini tamamlayan iki ölkədir"-deyən Nazir bildirib ki, iki ölkə arasında ticarət əlaqələri çox yaxşı səviyyədədir və bunun daha da inkişaf etdirilməsi planlaşdırılır: "Azərbaycanın bütün sahələrində Türkiyə şirkətləri yer almaq istəyir. Bizim də nazir olaraq vəzifəmiz bu istiqamətdə əməkdaşlıqları təmin etməkdir. Bunu etsək, həm Türkiyə, həm də Azərbaycan şirkətləri böyük uğurlara imza atacaq".

Tədbirdə türkdilli ölkələr arasında müxtəlif iqtisadi zonalarda informasiya və təcrübə mübadiləsi üzrə anlaşma memorandumu imzalanıb. Memorandum çərçivəsində icra olunacaq fəaliyyətin əlaqələndirilməsi üçün birgə işçi qrupunun yaradılması nəzərdə tutulur. Sənədin icrası üzrə məsul orqanlar Azərbaycan İqtisadiyyat Nazirliyi, Qazaxıstanın Sənaye və İnkişaf Nazirliyi, Qırğızıstanın İnvestisiyalar Nazirliyi, Türkiyənin Ticarət Nazirliyi və Özbəkistanın İnvestisiyalar və Xarici Ticarət Nazirliyidir.

**Qeyd edək ki, İclas Türk Şurasının baş katibi Bağdad Amreyevin və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun sədrliyi ilə keçirilib. Tədbirdə o cümlədən Türkiyənin ticarət naziri Mehmet Muş, Qazaxıstanın ticarət və inteqrasiya naziri Baxıt Sultanov, Qırğızıstanın iqtisadiyyat və maliyyə naziri Akılbek Japarov, Özbəkistanın investisiyalar və xarici ticarət nazirinin müavini Badrıddin Abidov, Macarıstanın xarici işlər və xarici ticarət naziri Peter Siyarto iştirak ediblər.**

**Nicat**

*Aqil ABBAS*

# ŞƏXSİYYƏTLƏRİMİZİ GÖZDƏN SALANLAR ÖZLƏRİ GÖZDƏN DÜŞÜRLƏR

***Əslində bu gün görkəmli şairimiz, dilimizin Yuzbulağı, İsa bulağı, Kəlbəcəri haraylaya-haraylaya Kəlbəcərsiz dünyasını dəyişən, özü gedə bilməsə də ruhu Dəli dağa, Sarıyerə, Başlıbelə gedən Məmməd Aslan haqqında yazacaqdım. Eybi yox, qalsın gələn nömrəyə. Məmməd əminin ruhu buna görə məndən inciməz.***

***Dəfələrlə bu mövzu ilə bağlı məqalələr yazmışam, çox təəssüf ki, ciddi yazıların oxucusu azdı, amma bir mənasızın bir mənasız yazısını oxuyan çoxdu. Neyləyək, milləti belə öyrətmişik. Hətta təxminən 110 il bundan əvvəl Yusif Vəzir Çəminzəminli də bu barədə yazıb. Yusif Vəzirin həmin məqalələrini tezliklə həm saytımızda, həm də qəzetimizdə oxuya bilərsiniz.***

***Qayıdaq mövzumuza.***

***Deməli, neçə illərdi Azərbaycanda özünü bir balaca ziyalı sayanlar hansısa xarici fondlardan aldığı qrantlara görə bu xalqın tarixi, görkəmli şəxsləri barədə ağızlarını gələni yazırlar. Düzdür, ziyalılarımız hərdən belə yazılara öz etirazlarını bildirirlər, amma yuxarıda dediyim kimi, söyüşü oxuyan çoxdu, nəinki haqsız söyüləni müdafiə edən.***



***Məsələn, bu günlərdə partiya sədri Sərdar Cəlaloğlu yenə Babəkin əleyhinə böyük bir müsahibə verib, xalq şairi Sabir Rüstəmxanlı da buna cavab verib. Amma baxsaq görərik ki, Sərdar Cəlaloğlunu oxuyanlar Xalq şairinin cavabını oxumurlar.***

***Bizim tarixi şəxsiyyətlərimizin başı üzərində bir kabus dolaşdırılmaqdadır. Və bu kabusu SOROS başda olmaqla, Avropanın müəyyən təşkilatları qurublar. Bizim də bəzi ziyalılarımız bilməyərəkdən və ya hansısa qrantların xətrinə bu kabusa dəstək verirlər.***

***Yenə deyirəm, mən hər zaman belələrinə cavab vermişəm və yenə verirəm. Bilirəm, buna görə SOROS-un uşaqları, eləcə də bizim içimizdəki kərtənkələlər məni söyəcəklər, eybi yox, əlimi dəmirə qoymuşam.***

***Neçə illərdi urusu, ermənisi, nemesi, amerikalısı bizim tarixi şəxsiyyətlərimizi gözdən salmağa çalışır, bunu başa düşürük. Amma özümüzünküləri başa düşmürük.***

***Babəki gözdən salmağa çalışırlar, Nizamini, Nəsimini, Füzulini, şahlar şahı Şah İsmayıl Xətaini, Nadir şah Əfşarı, Ağa Məhəmməd şah Qacarı, Hacı Çələbi xanı, İbrahim xanı, Koroğlunu, Molla Pənah Vaqifi, Məmməd bəy Cavanşir Batmanqılıncı, gələk yaxın müasirlərimizə - Məmməd Əmini, Əli bəy Hüseynzadəni, Əhməd bəy Ağaoğlunu, Üzeyir bəyi, Cavid əfəndini, Nəriman Nərimanovu, Səməd Vurğunu, Rəsul Rzanı, Nigar xanımı, Bəxtiyar Vahabzadəni, Mircəfər Bağırovu, Ulu Öndər Heydər Əliyevi, Elçibəyi, lap elə günü bu gün İlham Əliyevi və sair və ilaxır.***

***Bilirsiniz niyə - yəni demək istəyirlər ki, bu xalq böyük xalq deyil, qəhrəman yetişdirə bilməz! Yetişdirdikləri qəhrəmanlar da saxtadır. İndi Sərdar Cəlaloğlu deyir ki, Babəkin arvadı erməni olub, uşaqları da ermənidəndi.***

***Mən bu məsələyə bircə cavab vermək istəyirəm. Demirəm hansı tarixi mənbəyə söykənib və sair və ilaxır.***

***Nizaminin Moskvada yubileyi keçirilirmiş. Həmin vaxt çıxış edən bir erməni deyir ki, Nizaminin arvadı erməni olub.***

***Həmin vaxt Azərbaycandan bir yazıçı erməniyə belə bir cavab verir, çox təəssüf ki, həmin yazıçının adı yadımdan çıxıb, bəlkə bir dəfə də siz əziyyət çəkib axtarasınız o yazıçı kimdir?***

***Qalxır ayağa və deyir:***

***- Biz kimin anasını … ki!***

***İndi ola bilər ki, Babək də kimlərinsə anasını ...***

***Mən də Babək haqqında çox oxumuşam və Babəki heç vaxt Sovet hökumətinin təbliğ etdiyi kimi, İslama qarşı deyil, milli azadlıq hərəkatının lideri kimi qəbul etmişəm.***

***İli yadımdan çıxıb, bəlkə də 20 il olar, "Koroğlu" dastanı ilə bağlı bir kitab nəşr eləmişdilər. Orda Koroğlu, Nigar, Xan Eyvaz çox dəhşətli dərəcədə təhqir olunmuşdu. Mən dərhal bu kitabın əleyhinə böyük bir yazı ilə çıxış elədim. İlahi, həmin kitabın müəllifləri redaksiyaya necə hücum etdilərsə, elə bil Koroğlu bunların anasının pulunu verməmişdi.***

***Nə isə...***

***Türkiyə Parlamenti belə bir qanun qəbul edib: Atatürkü və ölkə prezidentini təhqir etmək olmaz. Təhqir edənlər cəzalanmalıdırlar.***

***Bəlkə bizim də Parlament belə bir qanun qəbul eləsin ki, tarixi şəxsiyyətlərimizi və dövlət başçısını təhqir etmək, onlara böhtan atmaq qadağandır, əks halda, onlar cinayət məsuliyyətinə cəlb olunacaqlar.***

***Yəqin ki, payız sessiyasında bir millət vəkili kimi bu məsələni qaldıracam.***

## *ERMƏNİLƏR DƏRHAL YOLDAN ÇIXDILAR*

**Bu günlərdə Şuşada olarkən 4 dost, Əyyub müəllim başda olmaqla, İsa bulağına getdik. Şuşadan İsa bulağına getmək istəyənlər Laçın dəhlizindən keçirlər.**

**Maraqlısı bu idi ki, biz həmin dəhlizdən keçərkən bir mikroavtobus və bir minik maşını ilə rastlaşdıq. Onlar bizi görərkən dərhal avtomobillərini yolun kənarına çəkərək gözlədilər ki, biz keçib gedək. Kəsəsi, ev sahiblərinə yol verdilər. Bu da mənə Şuşada aldığım ləzzətlər qədər ləzzət elədi.**

# Aqil Abbas: "İclasda nə danışdığımı yazsalar, məni deputatlıqdan çıxararlar"

*Millət vəkili, "Ədalət" qəzetinin təsisçisi Aqil Abbas Bakıvaxtı.az-a müsahibə verib.*

*Adalet.az müsahibəni təqdim edir:*

**- Bu gün təsisçisi olduğunuz "Ədalət" qəzeti ölkənin sayılıb-seçilən mətbu orqanlarındandır. Azərbaycan mediasının hazırki durumundan razısınız?**

- Xeyr.

**- Narazılığınıza səbəb nədir?**

- Qəzetsiz cəmiyyət ola bilməz. Qəzetləri şüurlu şəkildə məhv etdilər. Kim etdi, hansı siyasətin qurbanıyıq, bilmirəm. Deyəcəklər ki, qəzetlərə yardım ayırırıq. Bəli, dövlət yardım edir, çox sağ olsunlar. Amma əvvəllər qəzetlər öz-özünə dolana bilirdilər. Mən sizə deyim qəzetlər niyə məhv oldu. Bu, qəsdən planlaşdırılmış bir şeydi. Qəzetlərin küçə satışını ləğv etdilər. Metroların giriş-çıxışlarında da satış ləğv olundu. İnsanlar qəzeti metroda oxuya-oxuya gedirdi. Əvvəllər "Qasid" adında firmanın nə qədər qəzet köşkləri var idi. Onu da ləğv etdilər. Sonradan guya qəzet köşkü açdılar. Deyim biləsiniz, ora köşk deyil, univermaqdır. Əvvəllər qəzet köşklərində sadəcə qəzet satılardı, əlavə olaraq uzaqbaşı siqaret, qələm, dəftər satılardı. İndiki köşklər univermaqdır və ordakı satıcının qəzetləri satmaq maraq dairəsində deyil. Çünki o, qəzetdən pul qazanmır. Bu da qəzetlərin tirajına zərər vurdu. Azərbaycanda elə qəzet var idi ki, aparıcı mətbu orqanlarından idi, lakin satış edə bilmədiyi üçün bağlandı. Biri elə "Bizim yol". Ora indi sayt kimi fəaliyyət göstərir. Sayt başqa şeydir, qəzet başqa. Saytda bu gün yazı yerləşdirərsən, beş dəqiqə sonra tapşırıq verərlər, çıxararsan. Amma qəzetdə bu, mümkün deyil. O, artıq arxivə gedir. Məsələn, elə "Bizim yol"da oxumuşdum ki, bir nəfər hansısa mövzuda şikayət edib və onu dərc ediblər. Sonradan İcra başçısı həmin adamı qorxudubmu və ya cibinə pul basıb, nədirsə, yığıb redaksiyaya deyib ki, o yazını çıxarın, yoxsa sizi məhkəməyə verərəm. Ona görə biz hansı inkişafdan danışa bilərik.

**- Qəzet adı nə qədər böyük olsa da, dövlət xüsusi yardım ayırsa belə, bu gün qəzet əməkdaşları əməkhaqqılarından şikayət edir və saytlara üz tuturlar.**

- Guya saytlarda maaş çoxdur ki?

**- Nisbətən, bəli.**

- Nə qədər əməkhaqqı alırsan?

**- 600 manat**

- 600 manat çoxdur ki, qızım? Onu da Media İnkişaf Agentliyi yaranandan sonra üç nəfərə verirlər. Bəs bir qəzeti buraxmaq üçün nə qədər işçi lazımdır, bilirsiniz? "Ədalət" qəzetində iyirmi nəfər şəxs işləyir. Dövlət bura 5 min manat vəsait ayırır. Biz bu pulun 40%-ə qədərini dövlətə qaytarırıq; əməkhaqqından tutulmalar, sosial fond, o fond, bu fond... Bu 5 min manatın 2 min 500 manatı belə getdi. Ofisin arendası, qəzetin çapını da üstünə gəlsək, 5 min manatla qəzet buraxmaq olar?! Elə qəzet var ki, ona 15 min manat vəsait ayrılır. Lakin bu pulun müqabilində onların qarşılarına elə tələblər qoyurlar ki, o 15 min də qəzetə bəs eləmir. Heç bir qəzetə pul verməsinlər. Sadəcə qəzetlərin satış azadlığına icazə versinlər.

**- Bəzən deyirlər ki, Jurnalistika ixtisası bitirməyənlər bu sahədə işləməməlidir, onlar medianı məhv edirlər. Sizcə jurnalist olmaq üçün təhsil mütləqdir ya qabiliyyət kifayət edir?**

- Bu, düzgün yanaşma deyil. Vladimir Lenin deyirdi ki, bədii təxəyyülə malik olan hər kəs jurnalist ola bilər. Azərbaycanda Rüstəm və Maqsud İbrahimbəyovlar, Çingiz Əlioğlu, Zakir Fəxri, Vaqif Cəbrayılzadə, Məmməd Araz və s. hamısı qeyri-ixtisas bitirib, amma tanınmış publisist olublar. Mən belə adamlardan çox sayaram. Eləcə də Rusiya, Türkiyə, Qərb mətbuatında qeyri-ixtisas bitirib jurnalist olan nə qədər adam var. İndi Lenini söysək də, bu dedikərində haqlıdır. Lakin elə insanlar var ki, nə bədii təxəyyülü var, nə savadı var, gəlir mətbuata qəzet və ya sayt açır. Azərbaycan da balaca ölkədir. Gün ərzində nə qədər hadisə ola bilər ki, bütün saytlar özəl xəbərlərini hazırlasınlar. O, bundan götürür, bu, ondan. Hazırda media haqqında yeni qanun layihəsi hazırlanır. Orda nələr olacaq bilmirəm. İndi sayt açmağa nə var?! Əvvəllər heç olmasa icazə var idi. İndi Ədliyyə Nazirliyindən xəbər gəlməmiş sayt yaradırlar. Ümumiyyətlə qadağan etmək də olmur. O saat Avropa "cumar" adamın üstünə ki, sən söz azadlığını pozursan. Hələ bir dənə də qanun var; Diffamasiya haqqında Qanun. Bu qanun belədir ki, mən səni təhqir edirəm və əcəb edirəm.

**- Diffamasiya haqqında Qanunun tərəfdarısınız?**

- Qətiyyən! Bu qanun qəbul olunsa, Azərbaycan Konstitutsiyasına dəyişiklik olunmalıdır. Konstitutsiyada yazılır ki, dövlət mənim hüquqlarımı qorumağa borcludur. Yaxşı, məni təhqir ediblər və dövlət də deyir ki, diffamasiya haqqında qanun var, sənin hüququnu qoruya bilmərəm. Belə olsa, xaos yaranar. Biz hələ keçid dövründə yaşayırıq. Azərbaycan otuz ildir ki, müstəqildir. Azərbaycan Almaniya, Fransa, İngiltərə, Amerika deyil. Ölkə yeni-yeni özünə gəlir. Görürsünüz ki, sarı mətbuat və rekert jurnalistikası xeyli azalıb. İndi əsas reketçiliklə QHT-lər məşğuldur.

**- Medianın İnkişafı Agentliyinin yeni qanun layihəsindən söz açdınız. KİV haqqında qanundan nələrin çıxarılmasını istərdiniz? Hazırlanan qanun layihəsinə nələr əlavə olunmalıdır?**

- Bu sual çox çətin oldu *(Gülümsəyir).* Sözün açığı bütün qanunu əzbər bilmirəm. Media haqqındakı hazırki qanun normaldır. Saytlarla, youtube kanalları ilə iş o qanunda yoxdur. Yəqin ki, yeni layihəyə bunlar əlavə olunacaq. Qanuna dəyişiklik olunmasının tərəfdarıyam.

**- Aqil müəllim, Media Ombudsmanının da yaradılması düşünülürdü. Bu məsələ niyə gecikir?**

- Belə bir fikir var idi, bəli. Hazırda bu işi Mətbuat Şurası görür. Yəni vətəndaşlarla və dövlət orqanları ilə medianın münasibətlərini bura tənzimləməyə çalışır. Media Ombudsmanının da yaradılması düşünülürdü. İndi Ombudsmanımız var da, elə orda media ilə bağlı şöbə yarada bilərlər.

**- Real danışsaq, bu gün biri yıxılsa ən birinci həmkarı tərəfindən vurulanlar, elə məhz media nümayəndələridir. Niyə jurnalist həmrəyliyi yoxdur?**

- Əslində jurnalist həmrəyliyi var. Sadəcə olaraq, bayaq dediyimiz jurnalistlərinöz həmrəyliyi var, trolların öz həmrəyliyi. Bu dəqiqə medianı trollar idarə edir. Özü də həm hökümətin, müxalifətin, Rusiyanın, İranın, həm də Qərbin trolları var. Hərəsinin öz həmrəyliyi var. Bir yazı yazarsan, görərsən ki, Azərbaycanın əleyhinə nə qədər şərhlər yazarlar. Ədalətli, peşəkar jurnalistlərin də öz həmrəyliyi var. Onlar bir-birləri ilə rəqabətə girmir, bir-birlərini aşağılamaq istəmirlər. Məsələn, mən yaxşı bir yazı görürəmsə, yazını qəzetimdə həmin mənbəyə istinadla verirəm. Lakin qeyd etdiyim kimi, trollar da öz həmrəyliyini qurur. Məsələn, həmkarım Fazil Mustafa Feysbukda yaxşı bir status yazır və rəy bölməsinə baxırsan ki, trolların hamısı burda onun əleyhinə fikir yürüdürlər.

**- Rusiya trolları demişkən, ötən gün Jirnovski-Vahabzadə məsələsində İsfəndiyar Vahabzadəni haqlı hesab etməyinizi dəstəkləyənlər çox olsa da, çoxu da narazılıq elədi.**

- Bəli, söyürlər, bilirəm. Olsun. Belə şeylər olur. Medianın İnkişafı Agentliyindən gözləntilər böyükdür. Görək tənzimləmələri bacara biləcəklərmi?

Reklam məsələsində də problemlər var. Azərbaycanda şirkətlərin bir-biri ilə rəqabət aparması üçün alternativ yoxdur. Azərbaycanda bir semenet zavodu və ya bir Azərsun varsa, bir qida şirkəti varsa niyə reklam vermək məcburiyyətində qalsın ki! Ən çox reklam verənlər toyxanalar, şadlıq saraylarıdır. O da ki, Allaha qurban olum, toy yoxdur.

**- Trollar mövzusuna qayıtmaq istəyirəm. Deputatların trolları barədə nə düşünürsünüz?**

- Tək deputatların yox, siyasətçilərin də öz trolları var. Biri yazan kimi "gül açdı, bahar oldu", trolları o saat "bəh-bəh" yazır. Hətta belə jurnalistlər də var ki, öz dəstələri var. Həmçinin deputatlarda da... Məsələn, Qüdrət Həsənquliyevi Fərəc Quliyev sevmirsə, Fərəcin trolları Qüdrətin əleyhinə yazır. Mən iyirmi ildir ki, deputatam, amma nə trol... Əvvəla, mənim trol saxlamağa pulum nə gəzir? Yazıdı yazıram, söyən də var, tərifləyən də. Bu saat qırğındır ki, mən niyə İsfəndiyarı müdafiə etmişəm. Ay qardaş, mən ziyalıyam, vətəndaşam və bu, mənim şəxsi düşüncəmdir. Azərbaycanda nə qədər adam varsa, İsfəndiyarı söyür. A bala, niyə söyürsən? Məsələn, lap səhv edib. Yox bir, gəlin əlin-qolun bağlayıb Rusiyaya təhvil verək. Deməli, Jirnovski söyə bilər, amma biz ona cavab verə bilmərik? Tək Jirnovski yox, Solovyov, Zatulin-matulin, zir-zibil nə qədər söyür bizi. Donuz oğlu donuz Jirnovski biz və ermənilər üçün təhqiramiz bir ifadə işlədərək deyir ki, Ermənistan və Azərbaycanın torpağı var ki, bir-birləri ilə müharibə edirlər? o ərazilər Rusiyanındır. İndi İsfəndiyar və ya başqası ona niyə etirazlarını bildirməsinlər? Jirnovski xalqımızı, Ali Baş Komandanı təhqir edib və layiqli cavabını alıb. İndi sözüm Jirnovskinin tərəfindən çıxış edən həmyerlilərimizədir: qoy, ruslar qırğın salsın, söysün, siz niyə söyürsünüz? Durub Bəxtiyar Vahabzadəni söyürlər. Bu xalqın müstəqillik əldə etməsi üçün ən çox çalışanlardan biridir Bəxtiyar Vahabzadə.



**- Olduqca səmimi və açıqsözlü birisiniz. Olubmu ki, emosional cavab verdiyiniz bir açıqlamanı sonradan sildirmisiniz?**

- Dediyim heç bir sözə görə qətiyyən peşman olmamışam. Nə demişəmsə, demişəm. Niyə peşman olmalıyam ki? Mən ən çox o jurnalistlərə əsəbləşirəm ki, mövzu haqqında on dəqiqə danışmışam və görürəm ki, üç kəlimə söz yazıb. Hələ söydürmək üçün də başlığa demədiyim sözü çıxarırlar.

Lakin dediyim heç bir sözü sonradan sildirməmişəm. Demirəm mən həmişə düz danışıram. Mən Allahın bacısı oğlu deyiləm və dediklərim də Quran ayəsi deyil. Mənim subyektiv fikirlərim var. Bəlkə də sonradan peşman olub öz-özlüyümdə "niyə belə dedim" demişəm, amma yığıb redaksiyaya hansısa yazını sildirməmişəm.

**- Bildiyiniz kimi, jurnalistlərə tikilən 3-cü binanın şəhid və qazi ailələrinə verilməsi üçün bəzi media və QHT nümayəndələri Prezidentə müraciət ünvanlayıblar.**

- Niyə verilsin? O binada 250 ev var. O 250 evlə üç min şəhid ailəsinin problemi həll olunacaq? Dövlət şəhid ailələrinə və qazilərə hər il nə qədər ev tikir. Dövlət 250 jurnalist evinin ümidinə qalıb? Heç nə. Bəziləri guya təklif veriblər. O təklif verənlərin də hamısının jurnalist binalarında evləri var. İndi Prezident bu 5-10 nəfərin sözü ilə fikrin dəyişəcək? Bunlar fikirləşir ki, Prezident dediyi sözü geri götürər?

**- İlk təklif elə həmkarınız Etibar Əliyevdən gəldi**

- Çox böyük səhv edib. O, mənim dostumdur. Olduqca savadlı alimdir, yaxşı da deputatdır. Amma bu təklifi irəli sürməklə çox böyük səhv edib. Həkimə də ev verilir, alimə də. Bu gün dövlət jurnalistlərin də vəziyyətinin yaxşılaşdırılması üçün çalışır, ona görə ki, onlar da ailə-məişət məsələlərini həll edə bilsinlər. "Ədalət" qəzetinin xanım əməkdaşlarından biri 25-27 ildir ki, burda işləyir, amma evi yoxdur. Biz dəfələrlə KİVDF-yə bununla bağlı müraciət etdik. Lakin bu xanımın hansısa sözü Vüqar Səfərlinin xoşuna gəlməmişdi deyə "nə qədər biz burdayıq, sən ev ala bilməyəssən" demişdi. Həmçinin jurnalist Etibar Cəbrayıloğlu. Bizim işçi olub. Olduqca savadlı və qeyri-adi qələmi olan jurnalistdir. Ona da ev vermirdilər. Mən dava çıxardım. İclasda nə danışdığımı yazsalar məni deputatlıqdan çıxararlar. Kim onun əleyhinə idi, hamısı ilə mübahisə etdim. Nəhayət ki, ev ala bildi. Yəni ona görə deyirəm ki, jurnalistlərə ev verilməlidir. Müharibədən çıxmışıq. Bir az özümüzə gələk, binanın hələ dördüncüsü də tikiləcək inşallah.

**Nuranə Daxilqızı**

# Metroda xəbərdarlıq

**Bütün metrostansiyalarında tez-tez sərnişinlərə xəbərdarlıq edilir ki, qatarların vaqonlarına minərkən işarələnmiş yerdə əyləşməyin. Əvvələr deyə bilmərik, son 10-15 gündə qatarların nəinki işarələnmiş yerində, heç salonunda durmağa yer tapılmır.**



O ki, qala işarələnmiş yerlərin boş olmasına. Bu isə o deməkdir ki, metroda da vəziyyət o qədər ürəkaçan deyildir. Hələ təsəvvür etsək ki, sentyabrın axırlarında ali, orta ixtisas və ümumtəhsil məktəblərində ənənəvi dərslər başlanır, bax, onda vəziyyət rusca olacaq. Yəni, qatarda heç ayaq üstə durmağa yer tapılmayacaq. Bu isə xəstəliklə mübarizədə qoyulmuş normaların pozulmasına gətirib çıxaracaq. Yəni, ara məsafəsi saxlanılmayacaq və eləcə də nəfəs-nəfəsə olan insanlarda virusun yayılması ehtimalı bir az da artacaq.

Bizim təklifimiz odur ki, "Həzi Aslanov"dan "Dərnəgül" stansiyasına gedən qatarlar arasında interval uzun çəkməməli, ən azı bir dəqiqədən artıq olmamalıdır.

Bu interval nəinki bir dəqiqə, iki dəqiqə, bəzən üç-dörd dəqiqə çəkir. Üstəlik də, "çaspik" vaxtlarında, yəni səhər və axşam saatlarında metroda sərnişinlərin sayı dəfələrlə artıq olur. Bu qədər sərnişinin çoxalması istər-istəməz virusun yayılmasına münbit şərait yaradır.

**Deməli, burdan belə bir nəticə çıxır ki, metropoliten rəhbərliyi göstərdiyimiz vəziyyəti nəzərə almalı və qabaqlayıcı tədbirlər görməlidir. Əks təqdirdə sentyabrın axırlarında tələbələrin və şagirdlərin metroya axını ilə vəziyyət daha da gərginləşə bilər, virusun yayılması üçün əlverişli mühit yaranar. Ona görə də hər bir sahədə olduğu kimi, metropolitendə də bu addımlar vaxtında atılmalıdı.**

**Faiq QİSMƏTOĞLU**

**Mehman Cavadoğlu**



# Fərarilərin üzrü qəbul olunmur

**"Qozbeli qəbir düzəldər". Əfqanıstanda elan olunan müvəqqəti hökumətin tərkibinə nəzər salanda ağlımıza gələn ilk fikir bu oldu. Neçə vaxtdı Talibanın artıq xeyli dəyişdiyi, başları daşdan-daşa dəyəndən sonra 90-cı illərin aqressiv ritorikasından əl çəkdiyi barədə beynəlxalq ictimai rəydə xeyli ziddiyyətli informasiyalar dolaşsa da, nəticə çox acınacaqlı oldu. Xatırladaq ki, bu cür rəyin yaranmasında danışıqlar prosesinin içində olan bəzi siyasətçi və diplomatların nikbin proqnozlarıyla yanaşı təşkilat rəsmilərinin öz davranış və açıqlamaları da mühüm rol oynamışdı.**

Ancaq nəticə gözlənildiyindən də acınacaqlı oldu. Vaxtilə, Talibanın yaradıcısı molla Ömərin yaxın silahdaşı olmuş molla Həsən Axund baş nazir, təşkilatın siyasi qanadının rəhbəri, Dohada keçirilən və aylarla davam eləyən danışıqlarda talibləri təmsil eləmiş molla Əbdül Qəni Bəradər onun müavini, molla Ömərin oğlu molla Məhəmməd Yaqub müdafiə naziri, Əmir xan Müttəki xarici işlər naziri təyin olunub. Daxili işlər naziri postunusa "Haqqani şəbəkəsi" terror təşkilatının başçısı Siracəddin Haqqani tutacaq. S. Haqqaninin adıyla adlandırılan bu terror təşkilatı özünü müstəqil saysa da, əslində "Talibanın nəzdində" fəaliyyət göstərən bir qurum idi, necə deyərlər, "ana terror təşkilatının törəmə müəssisəsi"ydi. Beləliklə, bundan sonra ölkədə terroru polisin özü törədəcək.

Siyahını xeyli uzatmaq və hökumətin bütün üzvlərininin adlarını bir-bir sadalamaq olardı. Amma bununla mənzərə dəyişməyəcək. Görünən bu oldu ki, aylardı inklüziv hökumət haqqında deyilən sözlər, verilən dürlü-dürlü açıqlamalar yağlı vəd olaraq qaldı, irili-xırdalı bütün postları istisnasız olaraq köhnə taliblər və ya onların yeni sosial-siyasi-genetik varisləri tutdular.

Əfqanıstan reallığında inklüziv hökumət heç də nazir portfellərinin siyasi alternativlər arasında bölünməsi anlamına gəlmir. Bir vaxtlar Britaniya Hindistanı ilə Rusiya imperiyası arasında bufer zonası olaraq Hindiquş dağlarının şimal və cənubunda süni şəkildə yaradılmış bu ölkənin çox sərt çoğrafi ərazisini bir-birinə bağlayan nə sosial-iqtisadi, nə də etnik tellər var. Bu cür əraziləri yalnız güclü imperiyaların qılıncıyla bir çətirin altına yığmaq mümkündü. Makedoniyalı İskəndərin, Böyük Moğolların və bir çox başqalarının dönəmində olduğu kimi.

Burda inklüziv hökumət qurmaq ideyası da elə məhz bu çətin əfqan paradoksunu həll eləmək zərurətindən doğurdu. Milli mənsubiyyətindən asılı olmayaraq hamısı mühafizəkar islam mentalitetinin daşıyıcısı olan, qatı dini baxışlarına görə onlardan heç də geri qalmayan hezarilər (onları "xəzərilər" adlandırmaq yanlışdı, çünki farscadan say mənasında "min" anlayışı verən "hezar" sözündəndi, ruscada "h" səsi olmadığına görə ruslar onu "x" kimi tələffüz edir, biz də onlardan götürərək özümüzə məhrəm olan bir adla adlandırırıq) istisna olmaqla süni məzhəbinə mənsub bu xalqların bir-biriylə barışmaz düşmənçiliyi məhz etnik amillə bağlıdı. Maraqlı təfərrüatdı, bir çoxlarının din təəsübkeşliyinin milli ideyadan daha güclü olması barədə israrla müdafiə və təbliğ elədikləri çox yayğın bir tezisin hətta qatı müsəlman şüurunun hökm sürdüyü Əfqanıstan gerçəkliyində də işləmədiyinin bariz nümunəsidi.

Taliblərlə güc müstəvisində bacarmayan "böyük güclər"in ümidi təkcə onların inklüziv hökumət qurmaq vədlərinə sadəlövh inamla bağlı deyildi. Talibanın artıq 90-cı illərdən fərqli olaraq yekcins bir qurum olmaması, təşkilatın rəhbərliyində ölkənin gələcəyi və idarəçiliyilə bağlı nisbətən fərqli və sağlam düşüncəyə malik adamların da yer alması barədə onlarda hipotetik bir rəy də formalaşmışdı. Həmin rəyin necə yarandığı, hardan qaynaqlandığı hələlik müəmma olaraq qalır. Ancaq prosesin gedişindən çıxan nəticə göstərir ki, bu heç də dərin siyasi təhlillərdən sonra formalaşmış bir qənaət və ya hansısa kəşfiyyat məlumatı-zad deyilmiş, sadəcə, artıq müvəqqəti hökumətdə baş nazirin müavini (hərçənd, çoxları onun baş nazir olacağını güman edirdi) postunu tutmuş Ə.Q.Bərадərin danışıqlar prosesindəki aldadıcı manevrlərindən doğan yanlış təəssürat imiş…

Bu gün Bərадər qarışıq taliblərin hökumətində təmsil olunanların az qala yarısı BMT-nin sanksiyaları altındadı. Dünya onları terrorçu kimi tanıyır. Amma bu reallıq ABŞ-a Bərадərlə bir masa arxasında uzunmüddətli danışıqlar aparmağa mane olmadı. Xatırladaq ki, terrorçu kimi mühakimə olunaraq Pakistanda cəza çəkən həmin zatı rəsmi İslamabad məhz ABŞ-ın israrlı təkidlərindən sonra azad eləmişdi. Molla Bərадər ola bilsin ki, danışıqlar zamanı ABŞ diplomatlarına Talibanın xeyli dəyişdiyini söyləmiş, 90-cı illərdəkindən fərqli olaraq daha mötədil bir hökumət quracaqlarıyla bağlı xeyli vədlər vermişdi. Amma radikal islam təfəkkürü "kafirlərə" yalan vəd verməyi nəinki ayıb saymır, hətta bunu fərz hesab eləyir.

Taibanın Əfqanıstanın bugünkü siyasi səhnəsində ən güclü hərbi-siyasi, hətta İSİD-in özündən də beş çömçə artıq terrorçu təşkilat olması mübahisəsiz faktdı. Odur ki, hökumətin yalnız taliblərdən təşkil olunması gerçəklikdən uzaq atılan bir addım sayılmasa da, sadəcə, olduqca həssas bir dönəmdə milli konsensus yaratmaq fürsətinin qaçırılması baxımından qınaq və ittihamlara tuş gələ bilər. Amma bütün hökumət üzvlərinin istisnasız olaraq puştulardan, bir az da konkret desək, onun iki əsas qolu sayılan durrani və gilzai tayfalarının təmsilçilərindən ibarət olması artıq fərqli situasiya yaradır.

Bir neçə simvolik portfelə yiyə durmaq üçün ölkədə şiə hezarilərinin içindən bir-iki talibançının tapılmamasına inanmaq mümkündü. Bəs, tacik, özbək, türkmənlərə nə gəlib? Axı, onların arasında Taliban üzvləri çox deyilsə, yox da deyil. Bu cür kocmetik gəlişmələr düşmənçilik toxumunun xeyli dərin qatlara işlədiyi bir cəmiyyətdə barışıq yaratmaq üçün həlledici əhəmiyyət daşımasa da, hər halda izsiz də ötüşməz və ilk növbədə "qüdrət sahibləri"nin öz xeyrinə olardı. Etnik cəhətdən rəngarəng ölkələrdə milli barışığa doğru atılan ən kiçicik addımın belə daha çox iqtidarın maraqlarına uyğun olması politologiyanın üstünü toz basmış köhnə tezislərindəndi. Ona görə də bir daha əvvəlki yazılarımızda söylədiyimiz fikrin üstünə qayıtmağa məcburuq: dava din davasından daha çox millətçilik davasıdı.

Günümüzün ən böyük Əfqanıstan paradoksundan biri də dünya birliyinin taliblərlə gizlənpaç oyunudu. Hələlik, Taliban hökumətini heç kim tanımayıb (yəqin, ilk olaraq Pakistan tanıyacaq və onun bu addımı atması, günlərin, bəlkə də saatların işidi). Düzdü, bir neçə gün qabaq elan olunmuş bir hökumətin tez-tələsik tanınmaması qeyri-adi hadisə deyil. Məsələ ondadı ki, artıq 30 ildi kal armud olub dünyanın boğazına keçmiş bu qurumu təşkilat kimi də tanıyan yoxdu. Niyə? Çünki üstünə terrorçu yarlığı yapışdırılıb. Ancaq, bu yarlıq onunla gizli-açıq danışıqlar aparılmasına mane olmayıb.

Özü də söhbət təkcə ABŞ-dan və Pakistandan getmir, bu illər ərzində az qala ayağı yer tutan hər ölkə taliblərlə isti münasibətlər qurmaqdan ötrü əsl səlib yürüşünə çıxıb.

Düzdü, tanınmayan ölkələrlə gizli təmaslar diplomatiyanın yazılmamış qədim qaydalarından biridi. Bunu bəzən üçüncü ölkənin vasitəsçiliyi, bəzən kəşfiyyat orqanlarının əliylə gizli şəkildə edirlər. Ya da vurnuxmalara abırlı don biçmək üçün "de fakto tanımaq" kimi hüquqi cəhədən yayğın bir terminin altında gizlənərək edirlər.

Rusiyanın bu ölkədəki diplomatik nümayəndəliyinin fəaliyyəti taliblər iş başına keçəndən sonra da davam eləyir. Hətta Federasiya şurasının sədri xanım Matvienko həmin nümayəndəlikdə çalışan diplomatların taliblərin bu günlərdə keçirəcəyi inaqurasiya mərasimində iştirak edəcəyini də anons edib. Di gəl, bu ölkənin istənilən mətbu orqanı gündə on dəfə Talibanın adını çəksə, mütləq ardınca mötərizə açıb onun RF-da tanınmadığını mütləq qeyd eləməlidi. Əks təqdirdə böyük cərimələrlə üzləşə bilər. Yəni, hökumət "tanıya" bilər, mətbuat yox.

Və yaxud 20 illik müharibədə taliblərə biabırcasına məğlub olmuş ABŞ-ın hazrkı Dövlət Katibi Entoni Blinkenin əfqan telejurnalistlərinə verdiyi müsahibəsində fərari prezident Əşrəf Qənidən danışarkən dediyi aşağıdakı sözlərə fikir verin:

"O getməmişdən (ABŞ-dan - red.) bir gün əvvəl mənə dedi ki, ölənə kimi taliblərlə vuruşacaq". Qəninin ölkədən qaçmasına ABŞ-ın kömək edib-etmədiyi ilə bağlı suala mənfi cavab verən dövlət katibi dalıyca lap "gül vurub", Əfqanıstan prezidentiylə hakimiyyətin talibana ötürülməsi məsələsini müzakirə elədiyini bildirib. Hakimiyyətinə qarant almaq üçün son pənah yeri kimi ən yaxın müttəfiqinə (oxu: süzereninə) üz tutmuş bir ölkənin prezidentinin bu cür açıq mesajdan sonra nə edəcəyini təxmin eləmək o qədər də çətin deyildi.

Dünən Taliban xüsusi bəyanat yayaraq ABŞ-ın Doha danışıqlarını pozduğunu, orda əldə olunan razılığa rəğmən yuxarıda haqqında danışdığımız "terrorçu-nazirlər"ə qoyulan sanksiyaları ləğv eləmədiyini bildirib. Ümumiyyətlə, Doha danışıqlarının gedişi ictimaiyyətdən gizli saxlandığı üçün ordakı razılaşmaların detalları tədricən açılacaq və əfqan xalqının növbəti tarixi faciəsinin əsl səbəblərini təhlil eləmək xeyli asanlaşacaq.

**Bu günlərdə ölkənin fərari prezidenti Əşrəf Qəni də üzə çıxıb. O öz Tvitter hesabında xalqdan üzr istəyib, qaçışının səbəbini qan tökülməsinin qarşısını almaq niyyətiylə izah eləyib. Köhnə bayatıdı, bütün fərari dövlət başçıları və siyasətçilərin hər fürsətdə çeynədiyi sürtük arqumentdi. Əfqanıstanda qan tökülmək erası indi-indi başlayır və bu fəlakətin nə vaxt sona çatacağı, bu insanaqənim rejimin nə vaxt siyasi səhnəni tərk edəcəyi heç kimə bəlli deyil. Əsas müttəfiqinin dönük çıxmasına baxmayaraq, o öz xalqından üz döndərməməliydi fərarilik etməməliydi. Bilməliydi ki, fərarilərin üzrxahlığı qəbul olunmur.**

*Aqil ABBAS*

# BƏLKƏ RUS DİLİNİ QADAĞAN EDƏK?

*Təhsil eksperti Kamran Əsədov məsələ qaldırıb ki, 1-4-cü siniflər üçün rus məktəbləri bağlansın. Əvvəla, 4 il Azərbaycan dilində oxuyan cocuq 4 ildən sonra rus dilini necə mənimsəyə bilər?*

*Bunu atdım kənara. Ümumiyyətlə, söhbət gedir ki, rusdilli məktəblər bağlansın, bizə lazım deyil. Guya bu, vətənpərvərlikdi. Deməli, ingilisdilli, fransızdilli, almandilli məktəblər işləyə bilər, çünki bu məktəblər oliqarxların və imkanlı adamların övladları üçündü. Bu məktəblərdə təhsil haqqı eləsi var ki, 15 min dollardı. Ən ucuzu deyəsən, 4-5 min dollardı. Heç bir adi, sıravi vətəndaşın bu məktəblərdə oxuma imkanı yoxdur. Deməli, onlar gedib oxumalıdırlar, qalan camaat onların övladları üçün bağbanlıq, sürücülük, dayəlik, bir sözlə, nökərçilik etməlidi.*

*Ulu Öndər Heydər Əliyev 1969-cu il hakimiyyətə gələnədək elə belə idi. Vacib universitetlərdə və vacib fakültələrdə yalnız imkanlı adamların övladları oxuyurdu. Ulu Öndər bunu kökündən dəyişdi. Hətta hüquq fakültəsinə, şərqşünaslıq fakültəsinə vəzifəli adamların övladlarının götürülməsini qeyri-rəsmi yasaqladı.*

*Bundan başqa, hər il Rusiyanın müxtəlif ali təhsil müəssisələrində təhsil almaq üçün 2 minə qədər imkansız ailələrin övladlarını oxumağa göndərdi, özü də imtahansız. Sonra gənclər qayıtdılar və ölkənin aparıcı kadrlarına çevrildilər və bu gün də həmin kadrların çoxu ləyaqətlə bu dövlətə qulluq edir.*

*Rus bölmələrində adətən orta təbəqənin və aşağı təbəqənin övladları oxuyur. Çünki təhsil pulsuzdu.*

*Hörmətli Kamran müəllim məsələni başqa cür qoymalı idi. Niyə?*

*Heç kimə sirr deyil ki, rus bölməsindəki təhsil Azərbaycan bölməsindəki təhsilin səviyyəsindən iki və bəlkə də daha çox artıqdı. Və imkansız adamlar da bunu nəzərə alıb övladlarını rus bölmələrində oxudurlar, həm təhsilin səviyyəsinə görə, həm də lazım olarsa Rusiyanın yüksək ali təhsil müəssisələrində övladlarını oxuda bilsinlər.*

*Kamran müəllim, buyur, məsələ qaldır ki, Azərbaycan Təhsil Nazirliyi təhsilimizin səviyyəsini qaldırsın.*

*Görün təhsilimizin səviyyəsi nə gündədir ki, 700 ballıq sistemdə 200 balla və ya daha aşağı balla universitetlərə qəbul olmaq mümkündür. 200 balla universitetə daxil olan sabah necə mütəxəssis olacaq və bu ölkəyə nə xeyir verəcək?*

*Bundan yapışmaq lazımdı, təhsilimizin səviyyəsini qaldırmaq lazımdı.*

*Kamran müəllim, məsələ qaldıra bilərmisiniz ki, ingilis, fransız, ya almandilli məktəblər bağlansın?*

*Sağ olun, Allah işinizi avand eləsin və nə isə...*

*Və heç kim məni qeyri-vətənpərvərlikdə təqsirləndirə bilməz.*

## Siçan-pişik oyunu



**Bir qayda olaraq metronun "20 yanvar" stansiyasının ətrafındakı hər iki dayanacaqda - həm "Şamaxınka"ya gedən yolda, həm də 3-cü mikrorayona uzanan yolda avtobus dayanacaqlarını taksi sürücüləri zəbt edir. Bu zəbtetmə zamanı da həmin yerlərdə tıxaclar yaranır və sərnişinlər avtobusa minməkdə çətinlik çəkirlər. Bəzən görürsən ki, həmin yerlərdə 2-3 cərgədə taksilər dayanıb. Yol o qədər daralıb ki, avtobuslar dayanacağa daxil ola bilmir və bu zaman da avtobus sürücüləri ilə taksiləri idarə edənlər arasında dava-şava yaranır.**

**Bu anda hadisə yerinə yol polisləri gəlirlər. Onlar gücbəla ilə dayanacağı zəbt edən taksi sürücülərini ordan uzaqlaşdırırlar. Yol polisi gedən kimi yenidən taksi sürücüləri dayanacaqları tutur və avtobusların hərəkətinə imkan vermirlər. Hətta şənbə-bazar günləri avtobusla işləməyən anlarda belə həmin taksi sürücüləri bu ünvanda 3-4 cərgədə avtomobilləri saxlayır və digər nəqliyyat vasitələri üçün təhlükə yaradırlar. Sanki siçan-pişik oyunudur. Polis gəlir qaçırlar, polis gedir yenə gəlib həmin yeri kəsdirirlər.**

## Avtobusdan yıxıldı, beyni silkələndi



**Biz dəfələrlə yazmışıq ki, bir çox avtobus sürücüləri nəqliyyat vasitəsini dayanacaqda saxlamır, saxlayanda da tələm-tələsik tərpənmək istəyir. Və sərnişinlərə deyir ki, gecikirəm, tez düşün! Təbii ki, gənclər və sağlam adamlar avtobusdan tez düşməyi bacarırlar, amma xəstə və yaşlı insanlar bunu vaxtında yerinə yetirə bilmirlər. Ona görə də sürücü onları tələsdirəndə ya yıxılır, ya da bir başqasının köməkliyi nəticəsində avtobusdan düşməyi bacarır.**

**Bugünlərdə 135 nömrəli avtobusdan düşən yaşlı qadın yıxılıb və nəticədə onu ağır vəziyyətdə xəstəxanaya çatdırıblar. Məlum olub ki, həmin qadının yıxılması nəticəsində beyninə qan sızıb və onun vəziyyəti çox ağırdır.**

**Görürsünüz, yenə sürücü məsuliyyətsizliyi, yenə sürücü diqqətsizliyi. İndi qadın xəstəxanaya düşdü, hadisənin səbəbkarı olan sürücü isə səhlənkarlığa görə cinayət məsuliyyətinə cəlb edildi.**

**Ona görə də həm sürücülər, həm də piyadalar bir-birini normal anlamalı, güzəşt etməli və təhlükəsiz avtobusdan yerə düşməlidir.**

**Emil FAİQOĞLU**

# Rusiya sülhməramlıları Qarabağda nə vaxtadək qalacaq?

**Hələ ötən ilin dekabrında- 10 noyabr sazişinin ikinci ayı tamam olmamış rus sülhməramlılarının fəaliyyətində və məqsədindəki naqisliklər özünü büruzə vermişdi.**

Adalet.az xəbər verir ki, hələ 27 dekabrda Tuğ kəndində 6 erməni terrorçunun növbəti dəfə terror törətməsi və Azərbaycanın antiterror əməliyyatı keçirməsi ilə bir daha rus sülhməramlılarının mövqeyi gündəmə gəldi. Axı antiterror əməliyyatlarını sülhməramlılar keçirməli, terrorçuları zərərsizləşdirməli idilər. Zaman keçdikcə, Rusiya sülməramlılarının nəinki Qarabağda yarıtmaz fəaliyyəti, hətta Azərbaycan ərazilərində olması narazı Azərbaycan xalqının haqlı narazılığını bir daha təsdiqlədi.









### Maksim Şevçenko "sülhməramlı" şərhi

Elə həmin vaxtları Rusiyanın məkrli məramı ilə bağlı tanınmış rusiyalı politoloq, jurnalist və ictimai xadim Maksim Şevçenko "SOS" siqnalı ola biləcək belə bir açıqlama verdi: "Bu yaxınlarda Rusiya müdafiə naziri Sergey Şoyqu bildirib ki, Qarabağda hər biri 300 sülhməramlı üçün nəzərdə tutulmuş 32-yə yaxın şəhərcik salacaqlar. Bu isə toplamda 10 min nəfər deməkdir. 10 min nəfərlik sülhməramlı kontingent? Bu rəqəm Qarabağda vuruşan erməni ordusunun az qala yarısı deməkdir. Kimə lazımdır bu qədər sülhməramlı?! Deməli, həmin şəhərciklər "dqr"in yeni "ordusu"nun hazırlanması üçün nəzərdə tutulub və bu ordu sonradan Azərbaycana qarşı vuruşacaq".

***10 noyabrdan keçən müddət ərzində politoloqun proqnozunun dəqiqliyinə şübhəmiz olmadı. Hazırda millət vəkili Elman Məmmədovun söylədiyi kimi Qarabağa 1960 hərbçi əvəzinə ora 7-8 min hərbçi gətirilib.25 ədəd isə modul tipli şəhərçik tikilməsi əyani sübutlardan biridir.***

Yeri gəlmişkən, politoloq Rusiyada, o cümlədən Rusiya silahlı qüvvələri daxilində erməni lobbisi və erməni maliyyəsinə bağlı şəxslərin olduğunu qeyd edib, məsələn, Zatulin kimi və bu şəxslərin Putinin iradəsi əleyhinə getdiyinə işarə edib.

### Oleq Kuznetsovun "sülhməramlı" şərhi

10 noyabr Üçtərəfli razılaşması ilə əlaqədar olaraq Rusiya Sülhməramlılarının Azərbaycan ərazisinə gətirilməsi və burda 5 il müddətinə qalması prosesinə indiyə qədər heç bir hərbi ekspert və siyasi şərhçi nikbin bir proqnoz verə bilməyib.

***Hətta bir neçə gün əvvəl rusiyalı politoloq, tarixçi, qafqazşünas Oleq Kuznetsov mediaya belə bir açıqlama vermişdi:" "Azərbaycanın erməni icması ilə bu dövlətin əsas əhalisi arasında gərginliyin olması faktoru Rusiya hərbçilərinin bölgədəki mövcudluğunun bünövrəsidir. Bu faktor yekunlaşsa, rus hərbçilərinin Cənubi Qafqazdakı mövcudluğu da sona çatacaq. Buna görə də, sülhməramlı missiyanın öz mandat və regionda mövcudluğuna bəraət qazandıra bilməsi üçün ermənilər Qarabağ nəinki məskunlaşdırılmalı, həm də ora köçürülən ermənilər Azərbaycana qarşı aqresiv ruhda köklənmiş olmalıdırlar.***

***Ona görə də separatçılıq, aqressiya təzahürləri kimi fəaliyyətlərin hamısı vəziyyətin qeyri-stabil olmasına hesablanıb".***

Təbii ki, Azərbaycan ictimaiyyətini narahat edən taleyüklü bir məsələyə Azərbaycan rəsmiləri bir açıqlama verməli idi, və verdilər.

### Hikmət Hacıyev "sülhməramlı" şərhi

Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu narahatçılığı azadaldacaq bir açıqlam verməli oldu:" Bütün Qarabağ Azərbaycanın suveren ərazisidir, beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyır və 10 noyabr bəyanatına uyğun olaraq sülhməramlı qüvvələr Azərbaycanın Qarabağ bölgəsinin müəyyən bir hissəsində müvəqqəti olaraq yerləşdiriliblər. Qarabağda Rusiya sülhməramlılarının mandatı ilə bağlı əlavə hüquqi mexanizmlər məsələsi barədə müəyyən müzakirələr hələ davam edir ".

***Hikmət Hacıyevin açıqlamasından belə başa düşülür ki, 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanatıdan başqa Rusiya hərbi kontingentinin hazırda Qarabağda varlığını və fəaliyyətini tənzimləyən başqa bir sənəd yoxdur.***

Həmin bəyanatda deyilir ki, "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir.

Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır."

### Aleksandr Skakov "sülhməramlı" şərhi

İctimaiyyətə bəzi siqnallar yenicə çatmalıydı ki, rusiyalı politoloq Aleksandr Skakov açıqlaması həmin siqnalları daha aydın şəkildə ortaya qoydu. Onun fikrincə, (əslində beynəlxalq qanunlara əsasən də) sülhməramlıların yerləşdirilməsi hər zaman parlament tərəfindən təsdiqlənmə ilə rəsmiləşir:"Bu cür nümunələr çoxdur. Serbiya Parlamenti Kosovoda sülhməramlıların yerləşdirilməsini təsdiqlədi? Xeyr. Bosniya və Herseqovinaya, Xorvatiyaya kontingent göndərilməsi ilə bağlı parlamentin qərarı varmı? Yoxdur. Bütün bunlar yaxşı bir vəziyyət yaratmaq üçün edilən cəhdlərdir".

***Onun sözlərinə görə, Azərbaycan Qarabağda Rusiya kontingentinin olması ilə hesablaşmalı olacaq. Çünki Rusiya sülhməramlı kontingenti Qarabağda 5 il deyil, daha çox qalacaq".***

### Nəticə

Fikrimizi Kuznetsovun proqnozu ilə yekunlaşdırırıq.Siyasi icmalçı qeyd edir ki, Azərbaycan və Ermənistanın dövlət sərhədinin tərifi barədə yalnız Azərbaycan daxilindəki bütün maneələr və bölmə xətləri aradan qaldırıldıqdan sonra danışmaq mümkün olacaq. Bunun üçün isə rəsmi Bakının yurisdiksiyası ölkənin bütün ərazisi üzərində qurulmalıdır ki, bu da bütün xarici hərbçiləri (erməni, rus, türk) öz ərazisindən çıxarmağı nəzərdə tutur:

***"Bunsuz davamlı sülhdən deyil, ancaq zəif bir barışıqdan danışmaq olar. Ona görə də bu gün Azərbaycan-Ermənistan dövlət sərhədinin qurulmasından danışanlar hamısı açıq şəkildə arabanı atın önünə qoyur. Sülh imzalanmayıb, müharibə bitməyib və bu səbəbdən sərhədlərin möhkəm olacağını düşünmək lazım deyil".***

Bir sözlə, Azərbaycan dövləti öz hüdudlarını hansısa sülhməramlıya deyil, öz ordusuna və xalqına güvənərək təyin etməlidir. Əks halda məhv olmaq qaçılmazdı.

**Əntiqə Rəşid**

# RUSIYA NATO İLƏ MÜHARİBƏYƏ HAZIRLAŞIR?...

**KP.RU saytının yaydığı məlumatlara görə, Rusiya müdafiə nazirliyi ehtiyat qüvvələrininin sayını artırmaq məqsədilə onları Kalininqrad vilayətinə, Avropanın NATO qüvvələrinin yerləşdiyi istiqmətlərə göndərir. "ehtiyat" qüvvələrini işdə yoxlamaq qərarına gəliblər. Kimdi bi "ehtiyat qüvvələr", onlara nə qədər pul ödəyirlər?**

KP.ru-nun hərbi şəhrçisi Viktor Baranes bu suallara cavab verməyə çalışıb:

Xalq həyəcanla müdafiə nazirliyinin əsas xəbəri - ehtiyyat qüvvələrin sayının artırılmasının, " NATO-la müharibəyə hazırlıq" kimi yayılan şayələri izləyir. Rusiya hərbi idarəsinin məlumatında yazılır ki, "Kalininqrad vilayətinə əlavə ehtiyyat qüvvələri göndərilib" ( xatırladırıq ki, bu ərazilərdə yaxın günlərdə "Qərb-2021" Rusiya və Belarusun hərbi təlimləri başlayacaq. "adalet.az"). O da məlumdur ki, ehtiyat qüvvələr Cənub və Mərkəzi hərbi dairələrdən, həmçinin Şimal donanmasından cəlb olunan ehtiyat (rezerv) qüvvələrdi. Nəzərə alınmalıdır ki, Kalininqrad hərbi dairəsinin də ehtiyat qüvvələri var və onlar da bu təlinmərə cəlb olunub. Müdafiə nazirliyinin məlumatında daha sonra qeyd olunur ki, " Müqavilə ilə təlimlərə cəlb olunan vətəndaşlar, ehtiyat qüvvələri kimi, təlimlərdə hərbi texnikalardan istifadə etmək qaydaları üzrə bilik və bacarıqlarını artıracaqlar". İndi aydınlaşdırmaq lazımdır ki, bu müqavilə bağlayan, ehtiyat qüvvələri kimlərdi?



Bunlar əvvəlcədən müdafiə nazirliyilə könüllü müqavilə bağlayan, sülh vaxtı ayda bir dəfə xüsusi təlim mərkəzlərində məşğələlərdə iştirak edən və müharibə vaxtı səfərbərlik elan olunan kimi özləri, təyin edildikləri hərbi hissələrə gəlməklə qarşılarına qoyulan tapşırıqlara uyğun hərəkət etməli olan vətəndaşlardı. Müdafiə nazirli isə müqaviləyə əsasən onlara ayda 4-5 min publ, 3 günlük təlimlərə cəlb olunduqda isə 7-10 min rubl pul ödəyir. Bundan əlavə yeni müqavilə bağlayan zabitlərə 34 mindən 66 minədək, praporşiklərə, serjantlara və saravilərə isə 18 mindən, 39 min rubladək birdəfəlik vəsait ödənilir.

Nəzərə alınsa ki, könüllü ehtiyat qüvvələrin sayı minlərlədir ( əslində onların sayı məxviləşdirilib və onların sayı barədə dəqiq məlumat yoxdur), anlamaq olar ki, bu vəsait heç də az deyil. İndi müdafiə nazirliyi onları "Qərb - 2021" hərbi təlimlərinə cəlb etməklə xərclədiyi vəsaitin havaya gedib- getmədiyini müəyyənləşdirmək istəyir. Söhbət vergi ödəyicilərin hesabına toplanan pullardan verilir.

Oxucular haqlı sual verə bilərlər ki, "ehtiyat qüvvələrə bir belə pulun xərclənməsinə nə ehtiyac var ki?" Müharibə vaxtı itkilərin olması qaşılmazdır. Bəs sıradan çıxan hərbişiləri kim əvəz etməlidir, 12 ay xidmət edən uşaqlar? Təbii ki, hazırlıqlı ehtiyat qüvvələr.

***P.S. "Ədalət .az" saytı dünən NATO-nun, Rusiya- Belarus "Qərb - 2021"birgə hərbi təlimlərinin NATO ölkələri sərhədləri yaxınlığında keçirilməsindən və bu təlimlərə həddindən çox hərbi qüvvənin cəlb olunmasından narahat olduqlarını yazmışdı. İndi məlum olur ki, sentyabr ayının 10-16-sı aralığında keçiriləcək bu hərbi təlimlərə 200 minə yaxın hərbi qüvvə, 80-dən çox hərbi təyyarə, 290 tank və 15 hərbi gəmi, həmçinin müxtəlif reaktiv sistemlər cəlb ediləcək. Təlimlər Rusiya və Belarusiya ərazilərindəki 9 hərbi təlim bazalarında keçiriləcək.***

**KP.Ru saytının materialları əsasında: Rüstəm Hacıyev**

*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoglu@box.az*

# Resept 400 manata



**Artıq dünyanı cənginə götürən COVİD-19 bizim də məmləkətimizdə öz izini qoymaqdadır. Yəni bu xəstəliyin dalğası hər şəhəri, hər rayonu, hər kəndi, hətta hər evi ağzına götürüb. Bu isə o deməkdir ki, koronavirusla biz uzun müddət ya zarafat eləmişik, ya da onun ağırlıq dərəcəsini anlaya bilməmişik. Və düşünmüşük ki, o da qripin bir növüdü, elə ayaq üstə keçirə bilərik. Düzdü, immuniteti güclü olanlar bu xəstəliyi digərləri kimi ağır keçirmirlər. Yəni, ayaq üstə o xəstəliyi "yola verənlər" də var. Ancaq bu o demək deyil ki, 10 milyonluq əhalinin elə hamısı bu xəstəliyi ayaq üstə keçirəcək.**

**İndi isə vəziyyət bir qədər də qəlizləşib. O qədər qəlizləşib ki, üç-dörd ay bundan əvvələ nisbətən virusa yoluxanların sayı dəfələrlə artıb. Eyni zamanda dünyasını dəyişənlər də çoxalıb. Artıq bir çox insanlar o virusun özündən çox psixoloji gərginliyindən çəkinirlər. Bundan da istifadə edən bəzi həkimlər qaz vurub qazan doldururlar. Çünki sirr deyil ki, bir çoxları bu xəstəliyə qarşı mübarizəni ev şəraitində keçirirlər.**

**Birincisi, ona görə ki, xəstəxanalara camaatın bir o qədər də inamı yoxdur. El arasında gəzən söz-söhbətə inansaq, xəstəxanalarda diqqətsizlik üzündən ölənlər çoxdur. Bu da istər-istəməz insanlarda müəyyən xof yaradır və onlar bu xəstəliyə qarşı mübarizəni elə evdə aparırlar. Yaxın tanışlardan biri deyir ki, özüm də, həyat yoldaşım da koronavirusa yoluxmuşduq. Müxtəlif adamların vasitəsilə bir tanış həkim tapdıq. O da gəlib evdə bizi müayinə etdi və müalicə yazdı. Dedi ki, mən bir resepti 400 manata yazıram. And-aman elədim ki, mənim özüm də universitetin professoruyam və ziyalıyam. Bir o qədər də imkanım yoxdur. Dedi, yaxşı, onda sizə güzəşt edərəm. İkinizə 400 manat verərsiniz, hər şey qurtarıb gedər. Mən də çıxarıb 400 manatı verdim, resept yazdı və gedib dava-dərman alıb müalicə elədik. Düzdü, sağalmağına sağalmışıq, amma düşünürəm ki, 400 manat elə də az pul deyil. Üstəlik də, yoldaşımla özümün dərmanına 1400 manat pul vermişdik. Onda görün pulu olmayan insanlar hansı çətinlikləri yaşayırlar.**

**Bugünlərdə xalq artisti Brilyant Dadaşova da koronavirusa yoluxub. O da həkimlərin əlindən lap boğaza yığılıb. Xalq artisti deyir ki, evimizə bir həkim gəlmişdi. Üç vərəqdən ibarət bir resept yazdı. Reseptə baxıb gördüm ki, hamısı ağır antibiotiklərdi. Onları qəbul eləsəm, qaraciyərim, böyrəklərim sıradan çıxacaq. Əsəbləşib həkimi evdən qovdum. Dedim ki, bu cür reseptlə siz camaatın evini yıxırsınız. İndi bir aydı ki, evdə təbii yolla müalicə olunuram. Zoğaldan istifadə edirəm, vitaminlərdən bəhrələnirəm. Vəziyyətim də lap yaxşıdır. Özü də bu xəstəlikdən qorxub-eləmək lazım deyil. Adi qrip kimi bir şeydi. Vitaminləri və eləcə də, vitaminlərlə zəngin mineralları qəbul edirsən, bununla da sağlamlığın bərpa olunur.**

**Bax, görürsünüz, bəzi vicdanını itirmiş və pula həris olan həkimlər insanların çətin durumundan istifadə edərək onlara qiymət "oxuyur" və lazım oldu-olmadı, uzun, sicilləmə bir resept yazırlar. Həkimin nə vecinə, pulunu alır, reseptini yazır. O dərmanlardan zülüm çəkən insanlar olur. Sözümüzün canı odur ki, özünüzü müxtəlif viruslardan və o cümlədən, koronavirusdan qoruyun ki, belə insafsız həkimlərə urcah olub, xəstəlikdən çox maddi sıxıntının əziyyətini çəkməyəsiniz.**

*Emin Piri*

# Kserks həyatlar



*Zaman keçdikcə insanlarda özəlliklər, təbiilik və.s qeybə çəkilməyə başlayır. Özü olmağı bacaranları günün günorta çağı şam işığında axtarmalı oluruq.*

*Kapitalist dünyasının bəşəriyyətə sırıdığı "baxımlı olmaq" nədənsə insanlara bahalı hədiyyələr, gündə bir geyim dəyişmək, brend ətirlər və estetik əməliyyatlar bazarının aşılanması ilə nəticələndi.*

*Dəbdəb, özünü aldadan günlük şöhrət, bəhsə girmələr əslində fərqlilikləri, özü olmağı deyil eyniləşdirməyi gətirdi.*

*Bir növ kserks həyatlar yaşamağa başladıq. Hər hansı əsər kimi orijinaldan kserks edilmiş eyni insanlar ətrafımızda dolaşır.*

*Onlar nəinki eyni görünür, get-gedə əməlləri hərəkətləri, davranışları da bir-birinə bənzəyir. Estetik əməliyyatlar bazarı nəticəsində insanların sevinci, kədəri, sevgisi belə oxşardır. Kədərə eyni üzülən, şad xəbərə eyni cür sevinən mimikalar...Eyni insanlar...*

*Bu təkcə görüntüdə, mimikada jestlərdə belədirmi? Xeyr. Elə kitab aludəçisi olanlar, mütaliə və.sdə kserks həyatlara dönüb. İnsanlar öz şəklini belə öz sözüylə deyil brend markalar, imzaların aforizmiylə paylaşır.*

*Söhbət əsnasında belə yalnız başqalarından sitatlar, sözlər. Sanki canlı deyil, hansısa yazıçının əsərindəki obrazlardı. Və o obrazların dilindən danışırlar.*

*Axı, özün nə yaşayırsan, nə düşünürsən? Heç öz fikrin, öz hissin, öz yanaşman yoxdur?*

*..Tv-ni açdım, xəbər izləyim dedim. ...Sonra bir-bir kanalları dəyişdirdim. İlahi, bütün aparıcılar eyni adam idi. Bütün kanallarda eyni aparıcı xəbər oxuyurdu. Hətta bu da bəs etmədi, şou verilişə döndərdim, bəlkə yanlış edirəm deyə. Orda da həmin aparıcı idi. Dəli olmuşam deyə düşünməyə başladım. Bəlkə sosial şəbəkədə bir psixoloq tapım məsləhətləşim dedim. Biri, iksi, üçünün profilinə baxdım. Hamsı eyni adam idi.*

*Özüm-özüm şübhə etməyə başlayırdım ki, ayıldım. Mən hamını eyni görmürəm, sadəcə kapitalizm dünyasının estetik əməliyyatları bazarı hamını bir sifətə çevirib. Məqsədli, bir tərəfli təbliğatsa hamını eyniləşdirib. Bizi bir növ idarə olunan dəlilərə çeviriblər.*

Əbülfət MƏDƏTOĞLU



# Ay camaat, Şuşaya gedirəm

## Üçüncü yazı

**Gecəni birtəhər yola verdim. Daha doğrusu, gecə mənim içimdən, canımdan bir Şuşa çəkib çıxartdı üzü sabaha. O Şuşanı mən 30 il bundan öncə tərk edib gəlmişdim sonuncu dəfə. Şuşanı may ayında görmüşdüm. Özü də ilk günündə. Elə kədərli, elə qəmli idi ki, sanki, ayrılacağımızı, onu qoyub gedəcəyimizi, əsirlik yaşayacağını duymuşdu. Hara baxırdımsa, gözümə ancaq ayrılıq, kədər, nisgil, tənhalıq və bir də unudulmaq görünürdü. Bəlkə də bu indi yazılması, deyilməsi asan olan adi sözlərdir. Amma**



**inanın ki, o zaman, yəni 1992-ci ilin mayında o vaxtkı Dağlıq Qarabağda, Şuşada həqiqətən bir vida, bir ayrılıq dalğası sağa-sola at çapırdı.**

Ona görə də bütün gecəni məhz həmin o son Şuşalı günlərimi, son ayrılıq məqamında yaşadığım nələr varsa, hamısını təkrar yaşadım. Və bir də gördüm ki, səhər saat 5-dir...nəvəm Nigarın üzündən öpüb evdən çıxanda dərhal yuxudan oyandı, qaçıb özünün balaca fincanında mətbəxdən su gətürdü. Arxamca atıb "yaxşı yol, baba" dedi. Onun bu hərəkəti onsuz da içimdəki dolmuş buludu bir az da kövrəltdi. Axı nəvəm ilk dəfə idi ki, arxamca su atırdı və onun xeyir-duası ilə mən Şuşaya gedirdim...

12-ci mərtəbədə lifti gözləyərkən istədim qışqırıb hər kəsi oyadam, hər kəsin yuxusuna bir haram qatam. Güclə özümü tutdum. Qışqırmasam da liftin içərisində özüm-özümün eşidəcəyimdən də bərk bir səslə dedim ki, ay camaat, mən Şuşaya gedirəm...

Hamıdan tez gəlib çatmışdım Respublika otelinin qarşısına. Elə ilk gələnlərdən biri kimi də təkrar testdən keçdim. İçəridə bütün bu proseslərə nəzarət edən məsul şəxslərdən biri dedi ki, müəllim, avtobuslar filarmoniyanın həyətində gözləyir, zəhmət olmasa, oraya gedin...

Bir azdan hər kəs yol çantasını çiyninə aşırıb avtobusların dayandığı məkana üz tutdu. Mənimlə yanaşı addımlayan qələm dostlarımın çöhrəsinə nəzər saldım. Doğrusu, bu çöhrələrdəki ifadələri ilk anda oxuya bilmədim. Ola bilsin ki, bunun bir səbəbi də mənim bütün gecəni yaşadığım anlar idi və təbii ki, nəvəmin ardımca atdığı bir fincan su... Həmin qarışıq duyğuların içərisində bir köməyimə çatan şair qardaşım Barat Vüsal oldu:

***- Hə, ay qağa. Axır ki, Qarabağa, Şuşaya getmək sənə də, mənə də nəsib oldu. İnşallah, Tuğa da gedərik birlikdə - dedim.***

***- İnşallah, qardaş, - dedim. Söhbətimizə Asim Yadigar da qoşuldu:***

***- Hə, Əbülfət, hər dəfə sənə deyirdim ki, bir az da döz. Sənlə birlikdə gedəcəm Qarabağa. Gördün, Allah arzumuzu necə çin elədi. Özün təsəvvür elə ki, iki gün öncə Bakıda müalicəm bitirib Naxçıvana qayıtmaq üçün təyyarəyə bilet də almışdım. Elə hava limanına üz tutanda zəng gəldi ki, Şuşaya - Vaqif poeziya günlərinə dəvətlisən... Bileti necə geri qaytardım, necə yenidən doğmalarıma bu xəbəri çatdırmaq üçün evə döndüm, onu hələ də xatırlamıram. Çox şükür, bu qismətə, bu günə. İnanıram ki, Naxçıvandan Zəngəzur yolu ilə gələcəm Şuşaya, Tuğa. Sən də maşınını sürüb istədiyin vaxtı gələcəksən Naxçıvana...***

Bəli, artıq səfərin təşkilatçıları əllərindəki vərəqlərdə yazılmış adlara baxıb hər kəsin təhkim olunduğu maşınlara yönəldirdilər. Mən 6 nömrəli maşınla gedəcəkdim. Bu maşında mənimlə birlikdə Qafar Cəfərli, Yusif Nəğməkar, Elxan Zal Qaraxanoğlu, Zahid Abbasov, Vasif Quliyev, Yusif Rzayev, Şəhanə Müşfiq, Seyfəddin Hüseynli, Qafar Qərib, Vüsal Nuri, İntiqam Yaşar və Beyləqan təmsilçisi Fazil Əsəd də sərnişin idi. Karvan polis maşınının müşayiəti ilə yola düşdü. Çevrilib arxaya, ardımızca gələn maşınlara baxdım. Sonda təcili yardım maşını gəlirdi. Məhz həmin an ağlıma ilk gələn o oldu ki, maşınlar çox yavaş gedir, sanki heç hərəkət eləmir. Mənim keçirdiyim hissləri duyan və artıq dəfələrlə Şuşada olmuş Zahid Abbasov gülümsəyərək dedi:

***- Ə, qardaş, sa elə gəlir ki, maşınlar getmir, iməkləyir. İlk dəfə gedəndə mən də elə hiss eləmişdim. Bir azdan keçib gedəcək bu hiss. Çətini Bakıdan çıxıncadı.***

Həqiqətən, belə də oldu. Bakıdan, yəni, Bayıl döngəsindən keçəndən sonra mənə elə gəldi ki, maşınlar hərəkət sürətini artırır. Bunun bir səbəbi də yəqin ki, yol-yoldaşım, həmkarım Seyfəddinin verdiyi suallar idi. O gah Zahid müəllimdən, gah məndən, gah Vasif Quliyevdən Qarabağla bağlı müəyyən suallar verir, özü də hansısa bir məsələyə münasibət bildirirdi. Bu da artıq bizim əyləşdiyimiz maşın, sözün yaxşı mənasında, müzakirə zalına çevrilmişdi. Təbii ki, söhbət də, müzakirə də yolun körpüsü sayılır. Həmin söhbətin qanadlarında biz yavaş-yavaş Sahil qəsəbəsinə yaxınlaşırdıq. Amma...

Amma maşınımız elə şəhərdən çıxanda onun nəsə bir narahatlıq olduğunu hər birimiz hiss etməyə başlamışdıq. Daha çox da Yusif Nəğməkar tez-tez sürücümüz Mehmana üz tutub soruşurdu ki, ay Mehman, maşındakı nə səsdi? Mehman da təmkinli şəkildə narahat olmayın müəllim, həll edəcəyəm. Və mən ona diqqət yetirəndə görürdüm ki, o telefonla kiminləsə maşın barəsində danışır. Bir azdan Mehman maşını yolun kənarına çəkib saxladı. Və üzünü salona tutub elan etdi:

***- Zəhmət olmasa, arxadakı maşına keçin.***



Mən indi anladım ki o, Şuşaya gedən karvanın rəhbərliyi ilə əlaqə saxlayıb, vəziyyəti onlara deyib və karvana ehtiyat üçün qoşulan maşın bizi mənzil başına aparır. Düzü, Mehmanla artıq dil tapdığımıza ondan ayrılmaq o qədər də xoş olmadı. Bunu Mehman da hiss etdi və dedi ki, müəllim, heç narahat olmayın, maşının xırda problemi var, həll edib, sizdən bir az sonra mən də özümü Şuşaya çatdıracam, qayıdanda da sizi özüm Bakıya gətirəcəm. Biz yeni maşında öz yerlərimizi tutduq və karvan hərəkətə başladı...

Yadıma düşən bir məqamı burada xüsusi qeyd etməliyəm. Belə ki, maşınlara əyləşdiyimiz məqamda Zahid Abbasov da, Vasif Quliyev də bildirdilər ki, şəhəri ilk dəfə görəndə, dağlara ilk dəfə baxanda adam çox qəribə hisslər keçirir. Sənə elə gəlir ki, uzaq, əl çatıb ün yetməyən, vəhşilərin talan edib tərk etdiyi bir diyara düşürsən. O diyarda hər şey sənə doğmadı, hər şey sənə tanışdı. Amma səni qoyub gəldiklərin, sənin öpüb ayrıldıqların deyil. Ona görə ürəyində narahatlığı olan hər kəs gərək dərmanını ovcunun içində saxlasın...

Bu sözlər yadıma Beyləqanın Haramı düzündə baxıb həsrətlə ah çəkdiyim Ərgünəşi, Kirsi salıb, gözümün önünə gətirdim. Həmin məqamlarda hava o qədər aydın, göz üzü o qədər açıq olurdu ki, obrazlı desəm, o dağların zirvəsindən qanadlanan qartalı da az qala görmək mümkün olurdu. Mən də əlim qaşımın üstündə baxa-baxa üzümü dağlara tutub pıçıldayırdım:

***Çoxmu boynubükük duraq,***
***Baxaq ağlayan dağlara?***
***Əlimizlə sığal vuraq -***
***Sinə dağlayan dağlara...***

***Udaq dəli hönkürtünü***
***Çıxaq yağı söndürdüyü -***
***Ocaqdakı son kötüyü***
***Girov saxlayan dağlara.***

***Gəzək, tapaq izimizi***
***Vuraq yerə dizimizi***
***Qurban deyək özümüzü***
***Qara bağlayan dağlara.***

***Alovlanaq, oda dönək,***
***Kola, kosa, ota dönək.***
***Ölək, amma ora dönək -***
***Bizi haylayan dağlara.***

Bəli, bəzən özüm-özümdən soruşuram ki, bu dağlara olan sevgim, bu dağlara olan güvənim niyə məni elə o dağların qoynunda sıxıb saxlamadı? Niyə almadı o ormanlar, o çəmənlər, o bulaqlar məni qoynuna? Niyə yaşatdılar mənə 30 ilin həsrətini? Sonra da özüm-özümə cavab verirəm. Dağın, daşın, ormanın, bulağın nə günahı? Bir alın yazısı var, bir də insanın o alın yazısından qopub ayrılmaq, bir az dəliqanlı, dəlisov olmaq cəhdi. Təəssüf ki, mən nə dəliqanlı ola bildim, nə də dəlisov. Bəlkə də olsaydım, ruhuna and içdiyimiz şəhidlərin sırasına qoşula bilərdim... Nə isə...

İndi yolumuz Şuşayadı. Maşın karvanı bizim təxmin etdiyimiz yolla deyil, Kürdəmirdən İmişliyə dönməklə gedir Şuşaya. Yolumuz Şuşayadı, maşınımızın içərisindəki söhbətin qəhrəmanı da, mövzusu da Şuşadı. Bir topa adam içindəki Şuşanı 30 il həsrətini çəkdiyi Şuşaya aparır.

...Və mən Şuşasız günlərimdə içimin ağrısını şeirə çevirəndə yazmışdım ki:

***Yüz dərdim dərmansız keçər,***
***Bir dərdə dərman - özüməm...***
***Yüz dərdim yadımdan çıxıb,***
***Bir dərdin fikrin çözürəm.***

***Ocağım, közüm qaralıb,***
***Qan damıb - gözüm qaralıb...***
***Utancdan üzüm qaralıb -***
***Büzüşüb dərdə dözürəm...***

***Əriyir ömrüm, yaşım da,***
***Əriyir dağım, daşım da!..***
***Papağım düşmən başında -***
***Bakıda papaq gəzirəm...***

***Quruyan heyrət damarım,***
***Daşlaşan qeyrət damarım...***
***Oyansın, dadım - tamlanım -***
***Dişimlə sıxıb, əzirəm...***

Bu şeirin adı indiki kimi yadımdadı. Yazmışdım ki, "utandığım dərdin şeiri". İndi isə... Şuşaya gedirəm.

## Dördüncü yazı

...Bu da İmişli şəhəri. Burda uyğun bir yerdə maşınlarımız dayanır. Qısa fasilə elan olunur. Hər kəs buradakı şadlıq evinə, böyük zalına tələsir. Kimsə çay sifariş verir, kimisi ayaqüstü bir stəkan su içir. Bax, bu məqamların birində gözüm zalın ön hissəsindəki masada əyləşmiş şəxslərə sataşır. Onlar Azərbaycan ədəbiyyatının, sözün həqiqi mənasında "ağır artileriya"sıdır. Bunlar xalq yazıçıları Anar, Elçin, Fərhad Bədəlbəyli, Vilayət Quliyev, Həsən Həsənov, Polad Bülbüloğlu və digərləridir. Təbii ki, bir az kənarda baş əyməklə onları salamlayıram. Həyatımda ilk dəfə qəribə bir həyəcan yaşadım həmin an. Belə ki, bir az kənardan salamladığım həmin böyük ziyalılarımızdan biri, yəni, xalq yazıçısı Elçin Əfəndiyev gözləmədiyim anda mənim salamımı uca səslə cavabladı. Və onunla bir masada əyləşənlərə məni təqdim edib dedi:

***- Bax, budu Əbülfət Mədətoğlu. İlk dəfə görüşürük. Özü də belə bir gündə!..***

Bəli, bu təqdimat mənim həyatımda Elçin müəllimlə bağlı ən gözəl ikinci an idi. İlk dəfə Elçin müəllim yaradıcılığıma AYB-dəki məruzəsində geniş yer ayırmış və məni çox böyük şərəfə layiq görmüşdü. Bu, həyatımın, bir söz adamı olaraq, ən böyük mükafatı idi. İndi isə həmin mükafat bir az da dəyərini artırdı. Çünki Elçin müəllimlə qarşılaşdım, özü də Şuşaya getdiyim gün!..



Bir azdan karvanımız artıq yolda idi. Biz işğaldan azad edilmiş Füzuliyə doğru gedirdik. Əhmədbəylini keçəndən sonra ürəyimin döyüntüsü bir az da artmışdı. Mən Füzulinin, Əhmədbəyli, Kürdmahmudlu, Alxanlı kəndlərini 1994-cü ilin uğurlu əməliyyatından sonra gedib gəzmişdim. Orda həyat öz axarına düşmüşdü. İndi isə Alxanlını keçib Füzuli şəhərinə gedirdim. Yolun sağ və solundakı dağıntılar, yol-yoldaşlarım heyrətə gətirmişdi. Hər kəs bir ağızdan bu vəhşiliyə münasibət bildirirdi. Yalnız divar qalıqları, qurumuş, doğranmış ağaclar, bir sözlə, xarabalıqlar bir kino lenti kim keçirdi gözümüzün qarşısından. **Hətta Seyfəddin Hüseyn dözə bilməyib uca səslə dedi:**

***- Əbülfət müəllim, bu vəhşiliyin adı yoxdu vallah. Mən müharibədən əvvəl bu tərəflərdə olmuşdum. Ermənilər cənnətimizi xaraba qoyublar. Bax, görürsünüz o təpəlikləri, məhv edilmiş düşmən tankını, döyüş maşınını. Axı onların bizim torpaqlarda nə ölümü vardı?! Bu vandallar Qarabağın onların olduğunu iddia edirdilər. Əgər Qarabağ onların idisə, niyə yandırırdılar?***

**Söhbətə Yusif Nəğməkar da qoşulur:**

***- Əvvəllər mən də Füzulidə olmuşdum. Bu yerlərin necə xaraba bir duruma gətirildiyini gözlərim ilə görəndə nə düşünəcəyimi, nə deyəcəyimi yadımdan çıxartdım. İnsan da bu qədər vəhşi olar?! Qəbir daşlarına, dilsiz-ağızsız ağaclara belə də zülüm edərlər. Hamısını doğrayıblar, daşları sındırıblar. Lənət olsun bunlara!..***

Bəli, keçib gedirik... Necə deyərlər, karvan mənzil başına tələsir. Mən isə yol-yoldaşlarıma bir-bir ötüb keçdiyimiz Füzuli rayonunun kəndləri barəsində məlumat verirəm... Bax, bu da Köndələnçay gölü. Əslində bura su anbarıdı. Sovet dönəmində ulu öndər bu gölün açılışını edib. Bura yığılan su ilə ətrafdakı əkin sahələrini suvarırdılar. Dağ çaylarının suyu bu gölə axıb gəldiyindən biz Köndələndə balıq tutmağa tələsirdik həmişə. O balığın dadı-tamı hələ də yadımdadır...

Hə, bax, bu da Füzuli "şəhəri". Şəhər sözünü yazmaq son dərəcə ağır, dilə gətirmək dəhşətli dərəcədə zülümdür. Çünki Füzuli indiki anında heç bir obaya da bənzəmir. Daş daş üstündə qalmayıb. Yalnız kol-kos gözə dəyir. Vəhşiləşmiş kolların bürüdüyü dağılmış evlərin yerləri adamın ürəyinə ox kimi sancılır. Ha baxıram, heç də təxmin edə bilmirəm. Yalnız yaddaşın gücünə bir az da fəhmlə şəhərin mənzərəsini gözümün önünə gətirirəm. Və maşın karvanımız Füzuli şəhərinə girmədən yeni çəkilmiş yolla Tuğ yoluna çıxır. Mən bu yolla 33 il gedib gəlmişdim. Bəli, təqribən 33 il. Və hər dəfə də Füzulidən Tuğa və yaxud əksinə yol gedəndə. Bax, indi divarın bir tərəfi qalmış evin yalnış dəmir köşkünün qarşısında dayanıb avtobus gözləyərdik. Bura bizim dayanacaq idi. Tuğa, Hoğaya, Salakətinə, Govşadlıya, Tağa, Azığa, Domuya və digər kəndlərə gedənlər burda gözləyirdilər avtobusu. İndilikdə isə nə gözləyən var, nə də avtobus... Yox, deyəsən bir az tələsdim. Bizim getdiyimiz maşın karvanı keçir burdan artıq. Öncə də neçə-neçə karvan keçib. Xüsusilə, ilk dəfə burdan Ali Baş Komandan keçib gedibdi. Biz də onun açdığı yolla, çəkdirdiyi Zəfər yolu ilə gedirik...

Sağa-sola baxıram. Düşmən üzüm bağlarını da məhv edib. Bircə Məngələnata məbədi qalır yerində. Onu keçirik, solda Hoğa, sağda Gorşadlı... Bir az da gedəndən sonra artıq Xocavənd rayonu ərazisindəyik. Qarşıdan qollarını mənə açan Tuğ kəndi görünür. Mənim kəndim!!! 1991-ci ilin 30-dan 31-nə keçən oktyabr gecəsi... Həyatımın Tuğdan didərgin düşən tarixi.



Daha doğrusu, Tuğdan uzaqda yazılan tarixi. İnanın ki, imkanım olsa, düşüb iməkləyə-iməkləyə gedərdim kəndimə tərəf. Öpərdim sağı-solu, otu, daşı, nə varsa... Bu da Dəyirmanbənd dediyimiz ərazi. Burda, Quruçayın üstündə əyləndiyimiz, istirahət etdiyimiz bir guşə vardı. Çoxumuz ona Qiyasın kafesi deyirdik. Bütün fəsillərdə qonaqlı-qaralı olurdu bu kafe. Xüsusilə yayda hər kəs cəhd edirdi ki, çayın ortasında düzülmüş masalarda yer tutsun.

Çünki şalvarını dizinə qədər çırmayıb otururdum dağ çayının sakit axan sularının içində. Bu istirahətin, bu yemək-içməyin özgə bir ləzzəti olurdu. Aran rayonlarından gələn qonaqlar özlərini sübh çağı çatdırırdılar bura. Arandakı istini beləcə çıxarırdılar canlarından...

Mən Dəyirmanbəndlə bağlı xatirələrimi bölüşürəm yol-yoldaşlarımla. Titrəyən səsimi, kipriyimin nəmini gizlədə-gizlədə... Burada üç-dörd kilometr yuxarıda bir yol dairəsi var. O yol sola dönəndə bir kilometrlik məsafədə yerləşən Tuğ kəndinə gəlib dirənir. Sağa dönəndə isə Azığ, Tağ, Böyük Tağlar kəndlərindən keçib Şuşaya gedir. Biz sağa dönürük. Burada da yenə Seyfəddin Hüseynli dözməyib dedir:

***- Əbülfət müəllim, deyirsiniz ki, bu kəndlərdə daha çox ermənilər yaşayıb. Görün, bu bədbəxtlər nə qədər keçmişdə qalıblar ki, kəndlərdə bir dənə normal ev yoxdur. Bu gün Azərbaycanın ən ucqar bölgəsində belə kəndlərə gedəndə adamın ürəyi açılır. Burada isə daha çox qara damlar, müvəqqəti yaşayış yerlərinə bənzəyən komalardı hamısı. Deməli, onlar Qarabağın onlara aid olmadığını çox dəqiq bilirmişlər. Ona görə də yaşadıqları evləri də qara dam kimi tikiblər. Müvəqqəti yaşamaq üçün...***

Kəndləri keçib getdikcə ən çox diqqətimi çəkən yol işçilərinin, Azərişığın, Azərsuyun nümayəndələrinin böyük şövqlə çalışmaları oldu. Demək olar ki, yol boyu ən müasir texnikalar dayanmadan çalışırdı. Ağır tonlajlı çınqıldaşıyanlar, yolbasanlar, yol mühəndisləri, bir sözlə, burda yeni bir iş - yarış meydanı var idi sanki... Adamlar başlarını qaldırıb ətrafa baxmadan öz işlərini görürdülər. Çünki onlar Zəfər yolunu yekunlaşdırmaq üzrə idilər. Meşələri yarır, yarğanları torpaqla doldurur, çınqıllayır, yeni yolu ən müasir üsulla sanki bünövrədən başlanan bir evi tikirdilər.

Burada onu da qeyd edim ki, çəkilən yeni yolda Xankəndindən keçib Şuşaya gələn dolamalarda daha çox dolamalar var idi. Həm də bu dolamalar sərtliyi, eniş-yoxuşu ilə seçilirdi. Bu yolda sürücülərin diqqətli olması son dərəcə zəruridir. Əks halda yolun rahatlığı çaşqınlıq yaradıb qəzaya səbəb ola bilər...

Bax, bu da Daşaltından Şuşaya qalxan, eləcə də Laçın dəhlizinə gedən yolun kəsişməsi. Burada sülhməramlılar dayanıb. Yolun tən ortasından, yəni yol uzunu, hardasa, 150-200 metrlik bir məsafədə məftil tordan çəpər çəkilib. Şuşaya gedəndə yolun solunda, yeni çəpərin sol tərəfindən erməni maşınları hərəkət etdiyini gördüm. İmkanım olsaydı, düşüb onları daşa basardım. Necə ki, onlar müharibənin "Daş dövrü"ndə bizləri daşa basırdılar. Bunu ona görə edərdim ki, heç nəyin unudulmadığını, heç nəyin yaddan çıxmadığını onlara xatırladım... Amma sonra düşündüm ki, düşmənin səviyyəsinə enmək heç də yaxşı hal deyil. Ən yaxşısı budur ki, onun ayağını torpaqdan kəsək. Onda daşa ehtiyac qalmayacaq. İnşallah, belə də olacaqdır. Mən buna 44 günlük müharibədən sonra bütün varlığımla inanıram!!!

Bəli, bu da bütün saytlarda, bütün ekranlarda hər birimizin izləyib gördüyümüz o möhtəşəm Şuşanın o möhtəşəm ŞUŞA LÖVHƏSİ!

Bu da o deməkdir ki, biz Şuşaya daxil olduq! Biz Şuşadayıq! Mən göz yaşları içərisində "Şükür bu günümə!" - dedim öz-özümə və:

### Şükür bu günümə

***Bu yolun ölçüsü otuz il qədər***
***Otuz il mən ölçdüm onu içimdə!***
***Göynətdi intizar, ağlatdı kədər -***
***Axır ki, göyərdi sonu içimdə!..***

***Sinəmin üstündə yatmış dolaylar***
***Məni dolandırıb yolun başına...***
***Qıvrılıb gözümə batmış dolaylar -***
***Bələnib gözümün isti yaşına..***

***Xəyalım perikib, xatirəm solub***
***Cadar-cadar olub dilim, dodağım...***
***Başıma qarışıq fikirlər dolub -***
***Çıxmayıb yadımdan bir an o dağım!***

***Tanrı yazan gündə komandan əmri***
***Qaldırdı ayağa Azərbaycanı!***
***Bitdi millətimin dözümü, səbri -***
***Çevirdi bayrağa Azərbaycanı!***

***Fərəhim yurdumun pak səmasında -***
***Şükür bu günümə şükür bu aya!***
***Bu gün mən şairlər komandasında -***
***Şeirin Bayramına gəldim Şuşaya!***

**...Bəli, Şükür bu günümə ki, Şuşadayam!..**

**- Şükür bu günümə ki, Şuşa bizimdir..**

**- Şükür bu günümə ki, biz hamımız Şuşadayıq!..**

**- Şükür bu günümə ki, Şuşada növbəti bayram şənliyi keçirilir!..**

**- Şükür bu günümə ki, Vaqif poeziya günləri Şuşaya qayıdıb!..**

**- Şükür bu günümə ki, mən də Şuşadakı həmin bayramın iştirakçılarından biriyəm!..**

**(Ardı var)**

**Əbülfət MƏDƏTOĞLU**

# Füzulinin doğum tarixi öz dilindən

## ("Azərbaycan ədəbiyyatı tarixi"nin yeni səhifələri" silsiləsindən - ixtisarla)




Akif Azalp
Filologiya üzrə fəlsəfə doktoru


*Nəhayət, füzulişünaslıqdakı bir əsrlik mübahisəyə birdəfəlik son qoyuldu! "Ədalət" qəzeti şair-ədəbiyyatşünas Akif Azalpın "Füzulinin doğum tarixi öz dilindən" adlı məqaləsini təqdim edir.*

### *Avropa şərqşünaslığında*

**lirikası Şərqin ən möhtəşəm poetik hadisələrindən biri, "Leyli və Məcnun"u isə tarix boyu "türk dilində yazılmış məsnəvilərin ən gözəli (E. Gibb)" və "qədim ədəbiyyatın ən yüksək şah əsəri (S. Huri)" kimi qiymətləndirilən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin doğum tarixi bir əsrə yaxındır ki, qızğın elmi mübahisələrin əsas mövzusu olaraq qalmaqdadır. Bu haqda sonuncu ciddi araşdırmanın müəllifi, filologiya üzrə fəlsəfə doktoru Zəkulla Bayramlı "Füzulinin doğum tarixi doğru deyildir" adlı məqaləsində sözügedən mübahisələri ümumiləşdirərək yazır:**

"İlk peşəkar ədəbiyyat tarixçimiz F. Köçərli M. Füzulinin "Sultan Süleyman əsrində - hicrətin 900-cü tarixində təvəllüd etdiyini" qeyd etsə də, əsaslandığı heç bir qaynaq göstərmir. Sovet dövrü bütün ədəbiyyat tarixi və dərsliklərində göstərilən 1494-cü ilin isə haradan, nəyə və hansı tarixi vəsiqəyə əsasən götürülməsi maraqlı və, eyni zamanda, olduqca mübahisəlidir (Onu da deməliyik ki, tanınmış türk füzulişünası A. Karahanın yazdığına görə, Türkiyədə şairimizin hətta h. 910/m. 1504-cü ildə doğulduğunu irəli sürənlər də olmuşdur). Akademik H. Araslının fikrincə isə Füzulinin doğum tarixini 1495, 1498, 1502, 1504 və 1506-cı il kimi göstərənlər də vardır. Şairin 1495 (hicri 900) və 1504 (hicri 910) tarixində anadan olduğunu irəli sürən müəlliflərin heç bir sənədə əsaslanmadığını qeyd edən H. Araslı bir az sonra özü də 1498-ci ili təxmini olaraq "müəyyən etdiyini" bildirir. Bu, artıq bəzi alimlər tərəfindən müxtəlif zamanlarda qeyd edilmiş, şairimizin süni olaraq "cavanlaşdırılması" nəzərə çatdırılmışdır. Biz bu fikrimizi sübut etmək üçün indiyədək bu barədə söylənilmiş bütün dağınıq mülahizələri sistemləşdirib ortaq bir məxrəcə gəlməyə çalışacağıq (Bayramlı Z. Füzuli... və..., Bakı, "Elm və təhsil", 2018, s. 20-21)".

Tanınmış füzulişünas öz məqsədi yolunda böyük şairin müxtəlif əsərlərindən onun qocalığı ilə bağlı etiraflarını misal gətirərək, eləcə də, "Bəngü Badə" ilə "Leyli və Məcnun" poemalarının yazıldığı tarixləri diqqət mərkəzinə çəkərək, Füzulinin doğum ilinə dair F. Köçərli (1494) və H. Araslıdan (1498) başqa, Ə. Səidzadə (1480-1485), R. Azadə (1485-1490), A. Karahan (1480) kimi Azərbaycan və türk ədəbiyyatşünaslarının təxmin və qənaətlərinə də münasibət bildirdikdən sonra öz mövqeyini aşağıdakı şəkildə ortaya qoyur:

***"Bizə qədər bu barədə deyilmiş fakt və fikirləri saf-çürük edərək bu nəticəyə gəlirik ki, Füzuli təxminən 1480-85-ci illərdə Kərbəlada doğulmuş, boya-başa çatmış, ilk təlim və təhsilini də orada almışdır (s.33)".***

Qeyd etmək lazımdır ki, Z. Bayramlının bu məqaləsi, hər şeydən öncə, ədəbiyyat tarixçiliyimizin ən mübahisəli və ən mühüm məsələlərindən birini yenidən gündəmə gətirməsi və onun birdəfəlik həlli üçün yenə də ən etibarlı qaynaq kimi diqqəti Füzuli əsərlərinin özünə yönləndirməsi ilə əhəmiyyətlidir.

### *Göründüyü kimi,*

***dahi şairimizin doğum ilinin müxtəlif tədqiqat və təxminlərdə çərək əsrdən artıq bir fərq (1480-1506) ilə göstərilməsi, bir tərəfdən, dərin təəssüf hissi doğurursa, digər tərəfdən, əsas mətləblə bağlı yeni elmi yanaşma və axtarışlara sövq edir. Bu baxımdan Füzulinin tarix sənətinə münasibəti, eləcə də, öz həyat və yaradıcılığının bir sıra mühüm sənələrini öz əsərlərində "maddeyi-tarix"lər ilə əks etdirməsi xüsusi maraq oyadır.***

Biz bunun məşhur misalını "Leyli və Məcnun" poemasının başa çatma tarixini bildirən və füzulişünaslığın artıq üzə çıxardığı tarix maddəsindən (1537) yaxşı bilirik. Üstəlik, Z. Bayramlının da "Füzuli... və..." kitabında qeyd etdiyi kimi, Füzulinin oğlu Fəzlinin də "şair kimi tanınmış, daha çox müəmma və "maddeyi-tarix"lər yazmış" (s.8) olması faktı onun atasının və ustadının "tarix sənəti"nə dərin rəğbətindən xəbər verir. Ancaq Nəsimi və Nəvai kimi böyük sələflərinin ardınca Füzulinin də bənzərsizliyi onda idi ki, o, başqa poetik sənətlər sırasında "maddeyi-tarix"i də, hər şeydən öncə, əlverişli məharət meydanı saydığına görə, "tarix" , "sal", "sənə" sözləri ilə müşayiət olunan sadə və açıq tarix maddələrindən daha çox ən müxtəlif eyhamlarla işarələnmiş çoxqatlı və örtülü tarix maddələrinə üstünlük verirdi.

### *Təkrarlardan qaçmaq*

**və bədii məharəti dərinləşdirmək üçün "bir ox ilə iki hədəfi vurmaq" üsuluna daha çox meyl göstərirdi. Uzağa getməyək, elə "Tarixinə düşdülər müvafiq, Bir olmaq ilə ol iki aşiq" misralarından da məqsəd yalnız "Leyli və Məcnun"un yazılma tarixini əks etdirmək deyildi, eyni zamanda, həyatda qovuşa bilməyən iki nakam sevgilini rəmzi-məcazi müstəvidə bir-birinə qovuşdurmaq və "ol iki aşiq"i sanki "maddeyi-tarix"də birləşdirmək idi.**

Beləliklə, Füzulinin bir çox əsərlərini yenidən və diqqətlə nəzərdən keçirdikdə dahi şairimizin öz həyat və yaradıcılığının bəzi mühüm sənələrini, o cümlədən, mübarək doğum ilini örtülü tarix maddələrində dəfələrlə əks etdirdiyinin canlı şahidi oluruq. Bu cəhətdən ilk olaraq bənzərsiz lirikin ən yayğın və təsirli qəzəllərindən biri olan "Yazmışlar" rədifli örnəyin ilk və son beytlərinə diqqət yetirək:

*Əzəl katibləri üşşaq bəxtin qarə yazmışlar,*
*Bu məzmun ilə xətt ol səfheyi-rüxsarə yazmışlar.*

*...Yazanda Vamiqü Fərhadü Məcnun vəsfin əhli-dərd,*
*Füzuli adını gördüm, səri-tumarə yazmışlar.*

**(Füzuli M. Əsərləri, altı cilddə, Ic., Bakı, "Şərq-Qərb", 2005, s.139)**

Göründüyü kimi, müəllif mətlədə "Hər kəsin bəxti-taleyi doğulanda onun alnına yazılır" inancından ustalıqla istifadə edərək, "Katiblər başdan aşiqlərin bəxtini qara (qara rənglə və qar üzərinə) yazmışlar.

Bu məzmundakı yazını o ağ səhifəyə yazmışlar" deməklə, məqtədə isə "Dərd əhli Vamiq, Fərhad və Məcnun tərifini yazanda gördüm ki, Füzuli adını siyahının başında yazmışlar" söyləməklə hər iki beytdə doğuluşla bağlı örtülü tarix maddəsinin mövcudluğuna incə işarələr vurur. Bir tərəfdən, hər iki beyti sözügedən qəzəlin başqa beytləri ilə bağlayan yeganə söz olduğu üçün, digər tərəfdən, rədifli qəzəllərdə adətən "maddeyi-tarix"lər rədiflərdə verildiyinə görə (Nəsimi və Nəvai qəzəllərində olduğu kimi), "yazmışlar" rədifi üzərində dayanıb, əbcəd hesabı ilə ondakı hərflərin say qiymətinə nəzər salırıq: "ya(10)"+ "əlif(1)"+ "za(900)"+ "mim(40)"+ "ya(10)"+ "şin(300)"+ "lam(30)"+ "əlif(1)"+ "re(200)"=1492.

Hərçənd bu cür hallarda hər hansı təsadüfə yer qalmır, amma hansısa ədəbiyyat tarixçisi yaxud mətnşünasın bir çox türkkökənli sözlərin ərəb əlifbası ilə yazılışındakı qeyri-sabitliyi (məs., məşhur "Sığmazam" rədifi bəzi əlyazmalarda yanlış olaraq "sad" ilə deyil, "sin" ilə yazıldığı kimi, "Yazmışlar"rədifinin üçüncü hərfi də səhvən "za" ilə deyil, eyni səsi verən başqa hərflə yazılmış ola bilər və s.) misal gətirərək, yuxarıdakı nəticəni şübhə altına alması gözləniləndir. Belə olduğu təqdirdə, mübahisəyə son nöqtəni yalnız və yalnız "kəsişən əbcədlər" qoya bilər. Xoşbəxtlikdən, Füzulinin Azərbaycan və fars dillərindəki müxtəlif əsərlərində həm hicri, həm miladi təqvimlə dahi şairin doğum ilini əks etdirən və öz əbcəd hesabları ilə yuxarıdakı nəticəni, yəni 1492 rəqəmini təsdiq edən işarəli və örtülü tarix maddələri kifayət qədərdir. Ancaq biz bu məqalənin həcmini nəzərə alıb, onlardan yalnız ən əlamətdarının üzərində dayanmalı olacağıq.

### *Əlamətdar tərəfi ondadır ki,*

başqa əsərlərindəki "maddeyi-tarix"lərlə kifayətlənmədən, böyük şair öz doğum ilini hicri-qəməri təqvimlə və dahiyanə məharətlə özünün məhz şah əsərində də əbədiləşdirməyi lazım bilmişdir. "Leyli və Məcnun" poemasının "Saqinamə"dən sonra gələn "Bu, saqiyi-bəzmə badə üçün xitabdır" hissəsində oxuyuruq:

***Saqi, kərəm eylə, cam gəzdir!***
***Durma, qədəhi müdam gəzdir!***
***Dövranə çox etibar qılma,***
***Gəzdir qədəhi, qərar qılma!***

***...Gər bilməz isən ki, mən nə zatəm,***
***Nə zülməti-çeşməyi-həyatəm...***
***...Mən şairi-musiyi-kəlaməm,***
***Sahirlərə mo'cizi-təmaməm...***

**(Füzuli M. Əsərləri, altı cilddə, II cild, Bakı, "Şərq-Qərb", 2005, s.34)**

***Çox təəssüf ki, gətirdiyimiz parçanın "maddeyi-tarix"i əks etdirən yeddinci misrası istinad etdiyimiz nəşr də daxil olmaqla M.Füzuli əsərlərinin əksər nəşrlərində yolverilməz yanlışla ("Mən şairi-Musiyi kəlaməm" şəkilində) verilmişdir. Halbuki, ərəb mənşəli "musi" ("vəsiyyət edən") sözü ilə ibrani mənşəli Musa adının ərəb əlifbasında eyni şəkildə yazılışından böyük məharətlə istifadə edən dahi sənətkar, yeri gəlmişkən,eyni zamanda Quranın "Şüəra" (32-51-ci ayələr və s.) surəsindəki hadisələrə eyham vurmuş olsa da, həmin misranın əsl poetik məzmununun Musa peyğəmbərə aidiyyəti yoxdur.***

Belə ki, "Saqinamə"də şair mövzu üzrə üç dildə üç böyük sələfini (Əbu Nüvas, Nizami və Nəvaini) xatırlatdıqdan və özünü "kəlami-mövzun"un ("vəznli kəlam"ın) varisi adlandırdıqdan sonra növbəti hissədə yenidən saqiyə müraciət edərək, kimliyini, şəxsiyyətini, hansı "həyat çeşməsinin qaranlığı", yəni naməlum davamçısı olduğunu, daha doğrusu, "vəsiyyət kəlamının şairi", "sehrkarlara sonuncu möcüzə göstərən" şəxs olduğunu bildirir və kifayət qədər aydın işarələrlə diqqəti öz doğum ilinin əbcəddəki ifadəsi olan "maddeyi-tarix"ə yönəldir. Əslində "Mən şairi-musiyi-kəlam" birləşməsi "Mən şairi-kəlami-musi" (Mən vəsiyyət kəlamının şairiyəm", yəni mən sələflərdən qalan irsin varisiyəm) ifadəsinin vəzn və qafiyə tələbləri ilə poetik inversiyaya uğramış şəkilidir. Ən başlıcası, Füzuli burada da bədii məzmuna zərrə qədər xələl gətirmədən, tarix sənətini zənginləşdirən daha bir yeniliyə imza atır. Bənzərsiz sənətkar öz şah əsərinin sonundakı "Bir olmaq ilə ol iki aşiq" misrasında əlavəli tarix maddəsinin parlaq nümunəsini yaratmışdısa, poemanın əvvəlində (yuxarıdakı parçanın yeddinci misrasında) qafiyələnən sözlərin (kəlaməm-təmaməm) köklərinə əsaslanaraq, bu dəfə şəxs şəkilçisini hesabdan kənarda saxlamaqla çıxdaşlı tarix maddəsinin gözəl örnəyinə nail olmuşdur və həmin örtülü "maddeyi-tarix"ə özünün doğum ilini həkk etmişdir: "Mən şairi-musiyi-kəlam"... Gəlin, onun əbcəd hesabı ilə yaxından tanış olaq: "mim(40)"+ "nun(50)"+ "şin(300)"+ "əlif(1)"+ "əyn(70)"+ "re(200)"+ "mim(40)"+ "vav(6)"+ "sad(90)"+ "ya(10)"+ "kaf(20)"+ "lam(30)"+ "əlif(1)"+ "mim(40)"=898

Buyurun, bu da "Leyli və Məcnun" poemasında hicri-qəməri təqvimlə Füzulinin öz dilindən səslənən doğum ili! Üstəlik, təqvimləri çevirmələr üzrə sinxron cədvəllərə görə, hicri 898-ci ilin miladi 1492-ci ilin 23 oktyabrından başlanması dahi şairimizin həmin miladi ilin axırıncı ay və günlərindən birində anadan olduğunu müəyyənləşdirir. Amma müəyyənlik və dəqiqlik məsələsi bununla da bitmir.

### *Füzulinin müxtəlif əsərlərində*

çeşidli şəkildə işarələnmiş örtülü tarix maddələri ya miladi təqvimlə 1492-ci ili, ya da hicri-qəməri təqvimlə 898-ci ili göstərdiyi və bir-birini istisnasız olaraq təsdiq etdiyi halda, onlardan biri hicri tarixlə 897-ci ili əks etdirir. Nədir bu?! Böyük şairin təsadüfən yol verdiyi qeyri-dəqiqlikmi?! Əsla! Əksinə, həm öz əsərlərində, həm də çağdaş füzulişünaslıqda dönə-dönə vurğulandığı kimi, öz dövrünün bütün sahələrindən, o cümlədən, dəqiq elmlərindən yaxşı xəbərdar olan və ömründə İmam Hüseyn türbəsində xidmətdə keçirən Füzuli bununla da gələcək nəsillərin diqqətinə öz doğum günü ilə bağlı dəqiq bir məlumatı, yəni hicri-qəməri təqvimlə 897-ci ilin son günündən (yəni Həcc ziyarətinin icra olunduğu mübarək Zülhiccə ayının 29-dan) 898-ci ilin ilk gününə (yəni Kərbəla hadisələrinin baş verdiyi əlamətdar Məhərrəm ayının 1-nə) keçən gecədə dünyaya gəldiyini çatdırmaq istəmişdir.

Bir sözlə, yuxarıda nəzərdən keçirdiyimiz və keçirmədiyimiz "maddeyi-tarix"lər (onlar haqqında "Hərflərdə gizlənmiş illər, yaxud "Azərbaycan ədəbiyyatı tarixi"nin yeni səhifələri" adlı tədqiqatımızda ətraflı söz açılacaq), ən mühümü, dahi şairin öz dilindən səslənən məlumatlar və bir-biri ilə kəsişən, biri digərini təsdiq edən çoxsaylı əbcəd nəticələri Məhəmməd Füzulinin miladi təqvimlə 1492-ci ilin 23 oktyabrında anadan olmasına heç bir şübhə yeri qoymur.

**Başqa tərəfdən, bu və ya bu kimi faktlar ilk dəfə Seyid İmaddədin Nəsimi yaradıcılığı əsasında üzə çıxardığımız "Kəsişən əbcədlər" üsulunun, yazısı ərəb əlifbasına əsaslanan bütün ədəbiyyatların, ilk növbədə Azərbaycan ədəbiyyatının ən mübahisəli və naməlum sənələrini müəyyənləşdirməkdə ən etibarlı açar olduğunu bir daha təsdiq edir.**

---


Əntiqə Rəşid




# Tolikin gileyi, mənim dərdim, mənim gileyim, Tolikin dərdi

**Bayaq sosial şəbəkələrdə "gəzişirdim". Xəbərlərə baxırdım. Baxdım ki, saytlarda yazılıb ki, aparıcı-prodüser Tolik (Tarix Əliyev ) Şuşaya gedə bilməməsinə etiraz edib. Həm də sosial media hesabında paylaşım edib:"Biz niyə Şuşaya gedə bilmirik? Kimin tanışı var, hamısı ordadı. Müharibə vaxtı heç bir dəstəyi olmayanlar indi Şuşada poz verir. Bu ayrı-seçkiliklər bizi bezdirdi. Söyülən biz, amma gedib Şuşada gəzən onlar", - Tolik yazıb.**

İçimdən kürd demiş, "beqafıl" bir fikir keçdi: "Ay evi tikilmişin oğlu, sənin haqqın "söyülməyinin" təlafisi üçündü, amma mənim haqqım bir lapetdi. Bəs, onda mən neyniyim.

Düz, 9 ay 28 gün, tamı tamına 302 gündür ki, Qarabağda müharibə bitib. Qələbə də olub. Bu qələbədə haqqı olanlar da olub. Həm də çox. Qarabağa getməli olanlarımız da məhz haqqı olanlarımız olmalıydı. Daha dəqiq: qazilərimiz, şəhid oğulların yaxınları, doğmaları, 44 gün bombardmanın altında qalanlar, ömrünü- yaradıcılığını, karyerasını Qarabağa həsr edən, qurban verən yazarlar, vətəndaşlar, müharibə vaxtı boğazından, əynindən kəsib əsgərə sovqat aparanlar, onlara müxtəlif yollarla dəstək verənlər və haqqı olanların böyük hissəsi də köçkünlərdi.

Sadaladığım hər kəsin haqqıdır ki, getsin o yerləri görsün, ziyarət eləsin.

Amma o yerlərə tur hazırlayan, siyahını tutarkən məni görməyən eynəkli "əmilər" az sayda haqqı olanlarla bərabər elə haqqı olmayanları Cıdır düzünə, Ağdama, Cəbrayıla, Tuğa apardılar ki, bilmədim hirsimdən- hikkəmdən ağlayım yoxsa, gülüm.. Susdum ..

Çünki dünyanın quruluşu belədir... haqqı olan haqqın yanında, haqqı olmayan haqsız isə çin olmuş arzularının içində olar...

Hər şeyin yaxşısını bilən, Şuşaya da məhz özlərinə sərf edən "yaxşıları" aparan "eynəkli yekə əmilərə" bir iradımı bildirmək istəyirəm: Düz 30 ildir bütün həyatımı: gəncliyimi, yaradıcılığımı, karyeramı Qarabağa, həsr yox qurban elədiyimi görməzdən gəldiniz!.

Bu azmış kimi II qrup Qarabağ əlilinin həyat yoldaşı olaraq ora hər ikimizin getmək haqqımıza tüpürdünüz, 44 günlük müharibədə ailəmi-uşağımı ataraq odun-alovun içərisində qaldığımı nəzərə almadınız! Az-maz tanınan, sözünü demiş jurnalist olduğum vecinizə olmadı! 28 ilin köçkünü kimi də o yerlərə getmək haqqımı tapdaladınız!



Ümumiyyətlə, nə qədər haqqım vardı, hamısına bir təpik vurub kənara atdınız. Atın! Hökm sizin əlinizdədir!

Lap sabah məni cəzalandıra da bilərsiniz! Yenə də deyirəm, hökm əlinizdədir! Amma...

**Bir "əmma" var! Tapdaladığınız, təpik vurub kənara atdığınız, tüpürdüyünüz, nəzərə almadığınız, üstündən xətt çəkdiyiniz bütün haqqlarımı bu gündən Allaha əmanət edirəm!Bu gündən sonra Uca Allahım mənim haqqlarıma görə, sizi sorğulayacaq, xəbəriniz olsun!**

**Əminəm!**

---

**"Çox ağır və çətin günlər içərisində yaşayırıq. Mən heç vaxt ruhdan düşmürəm. Amma bir tərəfdən "Covid 19" pandemiyasının yaşlı-cavan bilmədən insanlarımızın ölümlərinə səbəb olması, digər tərəfdən Qarabağda ermənilərin gün-gündən azğınlaşıb təxribatlara al atması və ordakı sülhməramlıların buna göz yumması məndə narahatçılığa səbəb olur".**

**Bu sözləri "Adalet.az"-a Azərbaycan Xalq Partoyasının sədri Pənah Hüseyn ermənilərin Şuşanı müntəzəm atəşə tutmasına münasibət bildirərkən deyib. O bildirib ki, 10 noyabr anlaşmasındakı bir çox müddəaların həllini tapmaması haqlı olaraq cəmiyyətimizi narahat edir:**

**"Çünki həmin anlaşmaya görə, rusiyalı sülhməramlılar bölgəyə girən kimi erməni silahlıları ordan çıxarılmalı idi. Amma**

# *Pənah Hüseyn: "Deyəsən, ruslar bura nə üçün gəldiklərini unudublar..."*



**biz bunun əksini gördük. Rus sülhməramlıları nəinki erməni silahlılarını Qarabağdan çıxardılar, əksinə ötən müddət ərzindən minlərlə erməni quldurunu Xankəndinə gətirib. Hətta bu azmış kimi həyasızcasına Rusiyanın Müdafiə Nazirliyi öz bülletenində yazır ki, "Azərbaycan hərbçiləri Dağlıq Qarabağın əsgərlərini atəşə tutub". Bu nədir, deyəsən ruslar bura nə üçün gədiklərini undublar?"**

**P.Hüseyn Azərbaycan Xarici İşlər Nazirliyinin fəaliyyətindən də narazılığını da dilə gətirib:**

**"İstər erməni, istərsə də Rusiya rəsmiləri həm ATƏT-in Minsk Qrupunun dirçəlməsindən, həm də Qarabağın statusundan danışırlar. Amma Azərbaycan Xarici İşlər Nazirliyi hələ də ermənilərin bəyanatına tutarlı cavab vermir. Erməni terrorçiları Azərbaycan əsgərini girov götürüb aparıb həbsxanaya atır, rusiyalı sülhmramlılar buna göz yumur. Amma Azərbacyan XİN-i səssiz qalıb. Bu gün oxuyuram ki. Rusiya sülhməramlıların komandanı Rüstəm Muradov həmin əsgərimizlə görüşüb, bəs niyə azad etməyib? Xeyir ola, Azərbaycan tərəfə azıb keçən necə ermənini Muradov alıb aparırdı, bizimkini niyə qaytarmır? Sullar çoxdur. Azərbaycan cəmiyyəti məlumatları rus və erməni saytlarından öyrənməyə məcburdiur, niyə bu xalqa bir açıqlama verilmir? Mən başa düşürəm, elə məsələlər var ki hələ açıqlanmamalıdır".**

**Partiya sədri sonda təkliflə çıxış etdi:**

**"Təklif edirəm ki, Azərbaycan Milli Məclisində ölkənin bütün siyasi qüvvəlinin iştirakı ilə iclas keçirilməliidir. Parlamentdə təmsil olundu-olunmadı bütün siyasi partiyalar orda iştirak etməli və 10 noyabr anlaşmasının bəndlərinin necə yerinə yetilməsi müzakirə edilməlidir. heç olmasa az da olsa həqiqət nədir bildirilməlidir ki, biz də insanlara düşgün məlumat verək".**

**İLTİFAT**

---


Rizvan Nəsiboğlu




# *Səksəninci döngə*

## Şair dostum, ustadım Telman Hüseyn Anadilin 80 yaşına təbrik əvəzi

**...Dünyada iki döngə olduğunu bilirdim - biri sağa o biri sola. Amma daha bu qədər döngə olduğunu illər ötdükcə görməyə və anlamağa başladım.**

Onunla tanışlığımızı xatırlayıram: mənim ömrümün gənclik (hərbi xidmətdən yenicə qayıtdığım), onun həyatının cavanlıq döngəsi idi.

Sonralar müxtəlif döngələrdə yollarımız qovuşdu. Bir gözəl və müdrik şair olaraq ona yaxınlaşır, təzə şeirlərimi qorxa-qorxa diqqətinə çatdırırdım. Bu arada döngələr çoxalır və sayı unudulurdu. Onun sərt düzəlişləri ilə rastlaşır və "özümü düzəltməyə" çalışırdım.

Sonrakı döngələrdə (az zaman fərqi ilə) şair kimi, insan kimi də sevdim onu. Və özümə ustad kimi qəbul elədim.

Onun üçün yolların eni, uzunu ömrün ölçü vahidi deyil. İllər aşırımındakı mənalı döngələrlə ölçülür ömrün mənası. Qəfil sevinclə (və bədii kədərlə) tarixləşir ömrün dolayları. Göz yaddaşımızda, səs yaddaşımızda, sabahlarımızın çaparı yuxularımızda qalır. Davamlı hönkürtülərin üstündən qanadlı qəhqəhələrin döngələrində rahatlanırsan:

***"Mənə bəd xəbəri qəfil verməyin***
***Kədərin ağlayan dili olaram***
***Mənə şad xəbəri qəfil verməyin,***
***Qəfil bir sevincdən dəli olaram."***

Onu nə zaman görsən həzin addımlarının "yol xəritəsinə" çevrilən alın qırışlarını bürüyən ömür döngələrini rahatca müşahidə eliyə bilərsən.

O "xəritədən" acılı-şirinli xatirələrin döngələri özü sənə "gəl-gəl" deyir. Səni uzaqlara millənən, sonsuzluğa yüyürən yollar həsrət dumanına bələyər, sehirli ağuşunda gizləyər.

... Ömrünün şah döngəsindən qədim İrəvanın Vedi rayonunda keçib-1941-ci ildə. Bu dünyaya gəlişi ilə doğmalarını sevindirib.

Həyatının ən məşəqqətli, ən ürək dağlayan döngəsi (1941-1945) II Cahan müharibəsindən dönməyən atası Canbaxış kişinin ömür kitabının sonluğu döngəsidir. Bu əbədi ağrıları Əlahəzrət Sözün sehirli qanadlarında yaşatmalı idi. Yaşatdı da:

***"Döyüşlərdə başa çatan ömrünün,***
***Davamıyam, sonrasıyam atamın***
***Zəfər səsi, səadəti, murazı***
***Qələbəsi, "ura"sıyam atamın."***

Bərdənin Otuzikilər kəndinə gələnnən sonra başlandı şair ömrünün məhsuldar və rəngarəng döngələri. "Təzə tanışlarım", "Məni bağışla", "Üşüyən nəğmə", "Payın çox olsun dünya", şeirlər və poemalar, "Çığırğandan gələn səslər" və "Ağ dəftər" xatirələr kitabları onun yazıçı və müəllim-pedaqoq, həmçinin bir sevgili insan kimi varlığının mütləqləşdirdi.

... Şənbə, bazar günlərində şair Telman Hüseyn Anadili kəntdən gətirən yola çıxırıq ki, onu görək, onunla dərdləşib təzələnək. Onun dalğalı, bəyaz saçlarını, dərdin bozartmaq istədiyi gözlərini görək. Qışda canımızı isidən, yayda sərinlədən səsini eşidək.

Şairi yamanca "söhbətə tutduq". Az qala zarafata salıb desin ki:

***"Mən yol adamıyam***
***məni bağışla (yın)!"***

...Həmişə ondan ayrılanda arxasınca xeyli məlul-məlul baxıram. İçimdəki qüssələr boğazıma tıxanır. Və birdən bu baxmaqlardan qorxuram... tez də dönüb Allaha baxıram...

**Bu yaxınlarda (bu ilin fevralında) gözəl şairimiz Telman Hüseyn Anadili bir qədər aralıdan-ömrünün 80-ci döngəsində gördüm. Səsim çatan qədər dedim: "Əziz dostum, ustadım 100-cü döngədə görüşənədək!"**

# Günümüzün strategiyası Qalib Azərbaycandır!

**Son vaxtlar dünya mediasının diqqət yetirdiyi aparıcı mövzulardan biri təbii ki, Ermənistanda baş verən hadisələrdir. Birmənalı şəkildə demək olar ki, həmin hadisələrin mahiyyəti daha çox daşnakların, hakimiyyət iddialı olanların və özlərini hələ də qalib hesab edənlərin fikirlərində əks olunur. Erməni cəmiyyətinin bu hissəsi 44 günlük müharibənin sonunu, yəni bizim qələbəmizi qəbul etmək istəmir. Onlar ümid edirlər ki, hansısa bir fövqəl gücün köməyi ilə revanş edə biləcəklər və guya onlara məxsus olan Şuşanı və digər əraziləri azərbaycanlılardan geri alacaqlar.**

Təbii ki, bu həm absurd, həm də gülünc bir fikirdir. Ən azından ona görə ki, işğaldan azad edilmiş ərazilərdəki real mənzərə özü düşmənlərin, yəni ermənilərin bu torpaqlara bir qaraguruh kimi, bir vandal kimi daxil olduğunu, burada daşı daş üstünə qoymadığını bütün insanlar nümayiş etdirib. Və beynəlxalq medianın, eləcə də Azərbaycan Prezidenti cənab İlham Əliyevin və prezident köməkçisi Hikmət Hacıyevin dünya mediasına verdikləri müsahibələr həmin reallıqları canlı şəkildə hər kəsə çatdırıbdı. Bu işdə əslən azərbaycanlı olan, fransada yaşayan fotoqraf Rza Diqqəti döyüş bölgələrindən, talan olunmuş yurdlarımızdan lentə köçürüb mətbuatda yayımladığı şəkillərlə də əsl gerçəyi hər kəsə çatdırıbdır. Bütün bunlar onu göstərir ki, biz kimlərdənsə torpaq almamışıq, işğal etməmişik. Əksinə, biz öz ata-baba yurdlarımızı xilas etmişik, onu öz həqiqi sahiblərinə qaytarmışıq. Ona görə də bizim müharibəmiz haqq, ədalət, azadlıq müharibəsi olubdur. Bu müharibənin də qəhrəmanı Dəmir Yumruq və Azərbaycan əsgəridir!



Ermənistanda siyasi proseslərin səmtini yönəldənlər isə üzdə 10 noyabr bəyanatına əməl etdiklərini dilə gətirsələr də, onlar da pərdə arxasında müxtəlif müzakirələr aparıb, bununla Qarabağa döyüş üçün yollar arayırlar. Hətta Ermənistan ordusunu yenidən təşkil etmək üçün Rusiyadan kifayət qədər yararlanırlar. Bu işdə Fransanı, eləcə də ermənilərə dəstək verən dövlətlərin də, siyasi fiqurların da, iş adamlarının da xidməti danılmazdır. Doğrudur, Ermənistanın baş naziri Paşinyan özünün müəyyən çıxışlarında imzalanmış bəyanatı Ermənistan tərəfindən əməl edildiyini, xüsusilə, Azərbaycanın dövlət sərhəddinin tanınması, Zəngəzur dəhlizinin və kommunikasiyaların bərpası kimi məsələlərdə də müəyyən addımların atıldığını dilə gətirir. Bu sözlərin nə qədər real olduğunu yaxın zamanlar göstərəcək. Amma ortada olan bir gerçəklik var, o da erməni təxribatlarının ara verməməsidir.

Bugünlərdə Azərbaycan Parlamentinin sədri Sahibə Qafarova Vyanada Qadın Parlament Sədrlərinin 13-cü sammitində çıxış edərkən Ermənistanın Parlament sədrinin Azərbaycanı şantaj edən fikirlərinə kəskin şəkildə cavab verərək bir daha bəyan etmişdir ki, "Ötən il Azərbaycan 44 günlük Vətən müharibəsində öz imkanları və gücü hesabına ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoydu və öz tarixi torpaqlarını - Qarabağı azad edərək ərazi bütövlüyünü bərpa etdi. 2020-ci ilin noyabrın 10-da bölgədə davamlı sülhün təmin edilməsinə yönəlmiş üçtərəfli bəyanat imzalanıb. Təəssüf ki, Ermənistan tərəfindən həmin ərazilərin minalanması və sərhədlərimizdə davamlı təxribatlar törədilməsi sülh yaratmaq prosesinə mane olur".

Parlament sədrinin Vyanada səsləndirdiyi bu fikirlər onu həmin sammit çərçivəsində digər ölkələrin parlament sədrləri ilə keçirdiyi görüşlərdə vurğuladığı məqamlar Azərbaycan həqiqətinin, Qarabağ gerçəkliyinin dünyada tanıdılması yolunda atılan addımlardan biridir. Yeri gəlmişkən onu da vurğulamaq lazımdır ki, hələ Qoşulmama Hərəkatının son sammitində də videokonfrans zamanı Hərəkatın sədri cənab İlham Əliyev üzv dövlətlərin təmsilçilərinə müraciətlə vurğulamışdır ki, "Bu gün Azərbaycan dövləti özünün ən şanlı tarixini yaşayır. Çünki Azərbaycan tarixi heç vaxt bu qədər güclü olmamışdı. Bu gün bu, həm siyasi gücdü, iqtisadi gücdü, xalq iqtidar birliyidi, hərbi gücdü və bizim regionda oynadığımız müsbət roldu". Elə bu iqtibasdan da göründüyü kimi bu gün dünya Azərbaycan reallığı ilə barışmaq niyyətindədi. Onların istəklərindən asılı olmayaraq Azərbaycan dövləti iqtisadi, siyasi, hərbi sahədə hər kəsi heyrətləndirəcək addımlar atır. Təəssüf ki, bu addımlar Azərbaycan sevməyənləri qıcıqlandırır. Onlar üz-üzə və yaxud arxada öz ikili standartlarından çıxış edərək hər vasitə ilə Ermənistanı dəstəkləyir, onu yenidən silahlandırmağa cəhd göstərir. Özdə bu silahlandırma daha çox "humanitar yardım" kimi təqdim olunur.



Bütün bunlara baxmayaraq, qalib ölkə olan, həm də davamlı inkişaf yolunu tutmuş Azərbaycan bütün səviyyələrdə öz prinsiplərinə sadiq qalaraq Böyük Qayıdışa ayırdığı diqqətlə paralel olaraq, həm də ordumuzun daha qüdrətlənməsi, güclənməsi, ən son silah və sursatla təmin olunması, eləcə də hərbçilərimizin sosial şəraitinin yaxşılaşdırılması üçün zəruri olan bütün addımları atır. Son aylarda keçirilən hərbi təlimlər, eləcə də qardaş Türkiyə və Pakistanla birlikdə reallaşan genişmiqyaslı aviasiya, tank qoşunları və digər hərbi birləşmələrin iştirak etdiyi təlimlər də həmin görülən işin tərkib hissəsidi. İstər Azərbaycan, istər Türkiyə ərazisində keçirilən bu təlimlərin məqsədi Azərbaycan və türk silahlı qüvvələrinin döyüş hazırlıq səviyyəsini ən yüksək səviyyədə saxlamaqdır.

**Bu bir həqiqətdir ki, bizim artan gücümüz düşməni həmişə narahat edib və bundan sonra da edəcəkdir. Amma biz bundan heç bir narahatlıq hissi keçirmirik. Ona görə ki, Azərbaycan kimsədənsə torpaq almaq niyyətində deyil. Azərbaycanın məqsədi qonşuluq, dostluq şəraitində bütün dövlətlərlə qarşılıqlı əlaqələr qurub, müstəqilliyini, ərazi bütövlüyünü qorumaqla daha böyük iqtisadi uğurlara nail olmaqdı. Günümüzün strategiyası da İqtisadi, Siyasi və Hərbi gücün hər şeyə qadir olan Böyük Azərbaycandır!**

**Əbülfət MƏDƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

Novruz Gəncəli - 100

# Novruz Gəncəli dramaturgiyası, reallıq və həqiqət

**Bir neçə vaxtdır ki, Novruz Gəncəli yaradıcılığı haqqında "Xalq şairi olmayan xalqın şairi" adlı monoqrafiyası üzərində işləyirdim. Kitab tam olaraq hazırdır. Hətta şairin 100 illik yubileyi ərəfəsində çap olunmasını nəzərdə tuturdum. Təəssüf ki, maliyyə problemləri ilə bağlı kitabın nəşrini həyata keçirmək mümkün olmadı. Yəqin ki, çox yaxın vaxtlarda bu arzum da reallaşacaq və Novruz Gəncəli yaradıcılığını özündə ehtiva edən elmi monoqrafiyanı geniş oxucu kütləsi ilə bölüşə biləcəm. Ancaq şairin xatirəsinə mənəvi borcumu onun 100 illiyi münasibətilə heç olmasa dövrü mətbuatda olsa belə yerinə yetirmək qərarına gəldim. Məhz buna görə də Novruz Gəncəli dramaturgiyası, reallıq və həqiqətləri oxucularla bölüşmək istəyirəm.**

Novruz Gəncəli bir dramaturq olaraq Azərbaycan teatrına maraqlı və orjinal səpgili, dövrünün aktual problemlərini özündə əks etdirən pyeslər təqdim edə bilib. Onun qələmə aldığı "Düşmənlər içində" (1950-ci illərin sonlarında Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində quruluşçu rejissor, xalq artisti Lütfi Məmmədbəyov və 1951-ci ildə Gəncə Dövlət Dram Teatrının səhnəsində quruluşçu rejissorlar, Respublikanın Əməkdar incəsənət xadimi Həsən Ağayev və Yusif Yulduz), "Şəlalə" (1956-ci ildə Gəncə Dövlət Dram Teatrının səhnəsində quruluşçu rejissor, Respublikanın Əməkdar incəsənət xadimi Həsən Ağayev), "Yanmış planetin sərvətləri" (1963-cü ildə Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində quruluşçu rejissor, Əməkdar artist Kərim Həsənov), "Ev bizim, sirr bizim" (1965-ci ildə Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində quruluşçu rejissor Niyaz Şərifov), "Niyə dirilmisən?" (1968-ci ildə Ağdam Dövlət Dram Teatrının səhnəsində quruluşçu rejissor, Əməkdar artist Heydər Şəmsizadə və 1992-ci ildə Füzuli Dövlət Dram Teatrının səhnəsində quruluşçu rejissor, Xalq artisti Valeh Kərimov), "Məhəbbət körpüsü" (1970-ci ildə Gəncə Dövlət Dram Teatrının səhnəsində quruluşçu rejissor, Xalq artisti Vaqif Şərifov), "Səadət yağış deyil" (1986-cı ildə Gəncə Dövlət Dram Teatrının səhnəsində quruluşçu rejissor Hilal Həsənov) kimi pyesləri orjinal səhnə traktofkaları ilə bu gün də maraqla izlənilən tamaşalardandır. Onun 1969-cu ildə Sumqayıt Dövlət Dram Teatrının səhnəsində rejissor Arif Ağayevin quruluşunda A. Makayenokun "Tribunal" və elə həmin ildə rejissor, görkəmli teatr xadimi Nəsir Sadıqzadənin quruluşunda C. Patrikin "Qəribə Missis Sevinc" pyesləri də məhz Novruz Gəncəlinin tərcüməsində hazırlanan maraqlı səhnə əsərləri olaraq uğurla teatrsevərlərə təqdim olunub.

1965-ci ildə Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində Niyaz Şərifovun hazırladığı "Ev bizim, sirr bizim" əsərinin sujeti çox sadədir. Burada fövqəladə bir şey yoxdur. Sujeti cəmi bir neçə cümlə ilə belə ifadə etmək mümkündür. Tamaşada Əsmət adlı məhdud düşüncəli bir qadını görürük. O, öz istəkli balasını, musiqi məktəbini bitirdikdən sonra rayona göndərmək istəməyib, qonşuluqda yaşayan İdrakla yalandan nigaha məcbur edir. Bununla da Əsmətin sirr kimi saxlamaq istədiyi bu əhvalatın üstü açılır, bir evin sirri hamıya məlum olur. İlk baxışda əsərin sujeti doğrudan da çox sadə görünür. Əslində isə burada ibrətamiz fikirlər, güldürən və düşündürən cəhətlər çoxdur. Əsərdə övlada qarşı olan münasibət tənqid olunmaqla gənclərin həqiqi məhəbbətinin qüdrəti, köhnə düşüncə tərzinə qarşı mübarizə ruhu öz ifadəsini tapır. Bəstəkar Şəfiqə Axundova və Novruz Gəncəli musiqili komediyaya ilk dəfə müraciət etmələrinə baxmayaraq, əsərdə şərh etmək istədikləri problemləri cəsarətli sənət boyaları vasitəsilə şablon üsul və priyomlardan qaçıra bilmişlər. Müəlliflər ideya baxımından zatən tamaşaçıya görün, tamaşa edin ki, Əsmət kimi adamlar necə gülünçdürlər, belələrini tərbiyə etmək üçün çarə tapın, elə edin ki, onlar öz çürük düşüncə tərzləri ilə cəmiyyətimizə ziyan vura bilməsinlər deyirlər.

### Əsərdə hadisələr

***iki xətt üzrə inkişaf edir. Bunlardan biri Əsmətin meşşanlığı üzündən düşdüyü gülünç vəziyyətidir ki, müəllif Novruz Gəncəlinin bəstəkar Şəfiqə Axundova ilə birgə yaratdığı satirik səhnələr tamaşa boyu canlı və təbiidir. İstər dialoqlar, istərsə də ariya və duetlər eləcə də reçitativlər düşüncə tərzinin gülüş hədəfinə çevrilməsi üçün yaxşı bir vasitədir. İkinci xətt isə Çiçəklə İdrak arasında tədricən yaranan məhəbbətlə bağlıdır. Məhz bu xətti inkişaf etdirməklə müəlliflər lirik boyalar tapa bilməklə gənclərimizə xas olan yenilik duyğularını əks etdirməyə nail olublar.***

Əsərdə hadisələr ciddi səpgidə cərəyan edir. Burada yersiz gülüş doğuran səhnələr, şit dialoqlar demək olar ki, yoxdur. Səhnə boyu müəlliflər tamaşaçıları "əyləndirmək" yox, onlara təzə bir fikir demək istəyirlər. Şəfiqə Axundova obrazların musiqi xarakteristikasını yaxşı taparaq, vəziyyətlərə uyğun ariya, duet və ansambllar yarada bilib. Xalq musiqisi əsasında bəstələnən "Sən hara, rayon hara?", "Ev bizim, sirr bizim" reçitativi eləcə də Əsmətin ikinci pərdədə oxuduğu "Neynim-neynim" mahnısı dinləyicilərdə xoş təsir yaradır. Müəllif Novruz Gəncəli isə mətni yazarkən Azərbaycan Dövlət Akademik Musiqili Teatrının xüsusiyyətlərini nəzərə alaraq komik dialoqlar yaratmağı bacarıb. Müəllif, tamaşa üçün yazdığı ariya və duetlərdə şeriyyəti gözləyə bilib. Əsərdəki boyalı gülüş məzmunludur. Ancaq qeyd etmək istəyirəm ki, müəllif bütün obrazları eyni səviyyədə işləməklə Əsmət, Çiçək, İdrak, Mələk, Tofiq, Aytən üçün münasib bədii boyalar taparaq Aslan, Qonşu qız və Şamama üçün əlverişli səhnə vəziyyətləri yaratmaqda çətinlik çəkib. Xüsusilə Şamama obrazının səhnəyə gəlişi dramaturji cəhətdən əsaslandırılmayıb. Qeyd etmək istərdim ki, "Ev bizim, sirr bizim" hər iki müəllifin bu sahədə ilk addımı, ilk yaradıcılıq axtarışlarının məhsuludur. Doğrudur Novruz Gəncəlinin dramaturgiya sahəsində müəyyən təcrübəsi olsa belə komediya janrında onun ilk həm də deyərdim ki, müvəffəqiyyətli əsəri hesab edilə bilər. Xüsusi olaraq qeyd etmək istərdim ki, komediya boyu musiqilər tamamilə xalq ruhundadır. Bəstəkar Şəfiqə Axundova əsər boyu el təranələrindən də bacarıqla istifadə edə bilib. Nəticədə əsər boyu musiqi dili ilə adi danışıq dili və intonasiya arasında üzvi bir yaxınlıq duyuruq. Surətlər oxuyur, eyni zamanda bu, söhbət səciyyəsinədək yüksələ bilir. 1968-ci ildə Ağdam Dövlət Dram Teatrının səhnəsində əməkdar artist Heydər Şəmsizadənin quruluşunda "Niyə dirilmisən?" adlı satirik komediyası da maraqla qarşılanıb. Belə ki, əsərdəki hadisələr süd-yağ kombinatında baş verir. Kombinatın direktoru



Əli Sarıyeviç, dələduz, vəzifə düşgünü, məişət pozğunu kimi mənfi xarakterə malik olan bir tipdir. Müəllif burada haqsızlığa, rüşvətxorluğa və yaltaqlığa qarşı mübarizə edən qəhrəmanının adını isə Ədalət qoyub. Satirik komediyada Ədalət öz prinsipiallığı, sözü üzə deməsi ilə yanaşı həm də ciddi xarakteri ilə fərqlənir. O, əsər boyu Əli Sarıyeviç kimi tiplərə qarşı qəti və amansız mübarizə aparır. Komediyada Ədalət kərtənkələ kimi düşdüyü mühitin rəngini alan bu parazit, rüşvətxor Əli Sarıyeviçin çirkin, əxlaqsız əməllərinə qarşı mübarizə aparır, onun iç üzünü açıb göstərə bilir.

### 1970-ci ildə

Gəncə Dövlət Dram Teatrının səhnəsində xalq artisti Vaqif Şərifovun hazırladığı "Məhəbbət körpüsü" lirik komediyası da müəllifin uğurlu pyeslərindən biridir. Məlum bir həqiqətdir ki, əsl realist komediya ötəri, ikinci dərəcəli münaqişələr üstündə yox, ictimai kolliziyalar əsasında meydana gəlir. Yəni komik hadisə əslində ciddi, dəqiq problemləri özündə ehtiva edir. Təəssüf ki, bu adi həqiqəti anlamayan müəlliflər komediya kimi daxilən fəlsəfi məzmunlu ədəbi növü çox zaman süni məzhəkə alətinə çevirirlər. Nəticədə dərin məzmunlu komik kolliziya əvəzinə bir çox hallarda biz bayağı məişət hadisələri ilə qarşılaşır, şit zarafatlar, mənasız söz oynatmaları ilə üzləşirik. Sözsüz ki, bu cür bayağı, bəsit yazılar isə həyat düşüncələrində tamaşaçının fikirlərini, qənaətlərini dəqiqləşdirmir, əksinə, çətinləşdirir. Məhz bu baxımdan 70-ci illərdə yaranan komediyaların bir çoxunu yalnız şərti mənada komediya adlandırmaq olar.

Qeyd etmək lazımdır ki, "Məhəbbət körpüsü"nün ümumi nailiyyətini təmin edən başlıca amil komik kolliziyanın dərin və problematik səciyyəsidir. Əsərdə yaranan gülüş məzmunlu, düşündürücü və bədii cəhətdən hər tərəfli əsaslandırılan boyalarla zəngindir. Azərbaycanda yaşayan və azərbaycanlı olaraq qalan Könül adlı bir qız Arazın bu tayında doğulan və boya-başa çatan Azər adlı bir gənci sevir. Onların sevgisinin qarşısında ictimai bir səd durur. Sərhədçi olan əsgər Azər və Güney azərbaycanlı qız Könülün sevgisi uğursuz və faciəli də ola bilərdi. Ancaq müəllif cərəyan edən hadisələri komik planda təqdim edir. Hadisələrdə Könül sevgilisinin Vətəninə gəlir və sərhəd qaydalarını pozur, həmçinin Azər Arazı adlayır beləliklə, yenə müəyyən qanun pozulur.

### Mənalı və düşündürücü

***komik kolliziyanın dərin ictimai mənası Vətən anlayışı ilə üzvi surətdə bağlı olan bir vəhdət kimi şərh edilir. Əslində Könül və Azər sərhəd qaydalarını poza bilməzlər, bu da başqa bir məntiqdir. İki məntiqin arasındakı tarixi ziddiyyət çox ağıllı bir gülüş doğurur. Müəllif ideyasına görə məhəbbətin qarşısında çəkilən hər hansı bir səd əbədi, yaşarı səd ola bilməz, gec-tez o, aradan qalxmalıdır. Komediyanın əsas obrazları olan Könül və Azər yeni fikirli gənclərdir. Onların düşüncəsində yeni duyğular, əsl yurdsevərlik yaşayır. Novruz Gəncəli həm də əsər boyu komik gülüşü məhəbbət ilə yanaşı yapma sədlər arasındakı daxili uyğunsuzluqdan doğan amillər olaraq böyük ustalıqla təqdim edə bilir. Həm də müəllif tərəfindən əsərin ideyasının baxış bucağı fəci planda deyil komik planda işlənilməklə böyük bir ümiddən xəbər verir. Müəllif düşüncələri ilə inanır ki, bu sədlər nə vaxtsa aradan qalxacaq, məhəbbət körpüsü Arazın o tayını bu tayı ilə birləşdirəcək.***

Sərhəddə, iki sahilin qovşağında su elektrik stansiyası tikilir. Bu stansiya dostluq bağlarının güclənməsinə yardım edir. Əsərdə göstərilən sərhəd komandiri Kozlov, fəhlə Miri və başqaları anlaşılan qanunpərəstlikdən, soyuq, quru rəsmiyyətçilikdən uzaq insanlardır. Buna görə də sərhəddin pozulması əhvalatı onlarda elə bir dəhşətli qəzəbə səbəb olmur. Onlar məhəbbətin məntiqinə heyran qalan təbii adamlardır. Bu kimi hadisələri göstərən səhnələr pyes boyu maraqla qarşılanır. Başqa tərəfdən bu kimi hallar çox incə bir alleqoriya vasitəsilə meylləri gücləndirir. Güneyli fəhlə olan Şirəli bu taylı əsgər Azərə heyrətamiz dərəcədə bənzəyir. Onlar sanki bir almanın iki üzü kimi ekizdirlər. Hər ikisi də eyni qıza vurulurlar. Bəzi hallarda Şirəli Azərin suçunu çəkməli olur. Burada Şirəli - Azər xətti və bu səpgidən doğan gülüş əsərin ümumi ideya yönünə yaxşı xidmət etməklə onu təsdiq edir. Surətlərin oxşar simalar kimi təqdimi müəllif ideyasına görə hər iki tərəfin bir-birindən ayrılmayan vahid tamlığının tərənnümü, xalqın daxilən bütövlüyüdür.

### Əsərdə diqqəti çəkən

ikinci cəhət komik gülüşü bədii səviyyəyə qaldıran orjinal detalların məzmunlu olmasıdır. Burada Könülün sevgisini göstərərkən müəllif Hafiz və Xəyyamın obrazına üz tutur. Sanki Hafiz və Xəyyam məhəbbəti müşaiyət edirlər. Burada adi məhəbbət ilə qeyri adi sevgi, Hafiz-Xəyyam məhəbbəti arasındakı təzad acı istehza olaraq deyil çox həlim, mehriban bir gülüş doğurur. Burada gülüş özlüyündə qəhrəmanları tamaşaçılara yaxınlaşdırır, məhəbbətə bir şirinlik, saflıq, təmizlik, məlahət gətirir. Ümumən şer və poeziya əsərdə hadisələri lirik planda müşaiyət edən bir bədii vasitəyə çevrir. Sərhəd komandiri olan Kozlov şair təbiətli insandır. Könül və Pərvin Hafizin "Divanı"nı açır, Heydər baba, Hafiz və Xəyyam aşiqdir və s. Burada müəllif təqdimatında şair olmayanların şerə sözün yaxşı mənasında aludəçiliyi də məzmunlu komik kolliziya yarada bilir.

Əsərdə diqqəti çəkən üçüncü xüsusiyyət isə Heydər baba obrazının müəllif tərəfindən verilən komik səpgidə şərhidir. Heydər baba müdrik bir kişi, ömrünün mənasını nəvəsi Könülün səadətində görür. O, məhəbbəti Xəyyamsayağı, Hafizsayağı ən böyük hikmət sayır. O, nəvəsinə görə "cinayətə" yol verir, sərhəddi keçir. Məhəbbətin böyüklüyünü sübut etmək üçün hətta tutulur da. Bu da tamaşaçılarda məzmunlu bir gülüş doğurur. Qoca bir kişinin "cinayətkar fəaliyyəti" ona görə hadisələr zamanı bizə doğma görünür ki, pyesin vəziyyətlər halında ülvi bir həqiqətin təsdiqi dayanır. Bununla da Heydər baba ilə bağlı hadisələrdə doğulan gülüşü lirik gülüş adlandırmaq olar.

***Müəllifin mənfi surətlərin əksində karikaturaçılıqdan qaçması, bayağı inkardan uzaqlaşması halında komediyada diqqəti çəkən amillərdən olaraq dördüncü cəhət kimi dəyərləndirilir. Güney Azərbaycanı ordusunun zabiti olan Rəmzi surəti qanunpərəst baxışları ilə diqqəti cəlb edir. Rəmzi surəti bir çox komediyalarda və dram əsərlərindəki karikatur mənfi qəhrəmanlardan fərqlənir. O, hər zaman ehtiyatlıdır, ağıllıdır. Təqdim olunan obraz cərəyan edən hadisələr fonunda Könül ilə Azərin məhəbbətini bayağı qanunsevərlik, əsgəri - inzibati qanunlar ilə ölçmür. Bütün qəhrəmanlar ilə yanaşı əsərdə bir qəhrəman da var ki, o da zəmanədir. Zəmanə əsərdə məhəbbətin tərəfini saxlayan qüdrət kimi təcəssüm etdirilir. Zəmanə ictimai sədlərin məhəbbət körpüsünə çevrilməsini tələb edən bir amil kimi səciyyələndirilir. Bütün bu cəhətlər əsərin uğurlu çıxmasını və komediya janrının inkişafında müəyyən müsbət hala çevrilməsini təmin edir.***

Novruz Gəncəlinin "Məhəbbət körpüsü" pyesinə nəzər salarkən bir daha aydın olur ki, komediya janrının inkişafı ilk növbədə ciddi problemlər və ictimai komik münaqişələrin təsviri ilə bağlıdır. Bu cəhətdən pyes təqdirəlayiq bir ədəbi məhsul kimi dəyərləndirilməlidir.

1986-ci ildə Gəncə Dövlət Dram Teatrının səhnəsində quruluşçu rejissor Hilal Həsənovun hazırladığı "Səadət yağış deyil" pyesi Böyük Vətən müharibəsi mövzusuna həsr olunub. "Səadət yağış deyil" pyesində qəhrəman Vətən oğullarının cəbhədəki igidlikləri, partizan dəstələrinin düşmən arxasındakı əfsanəvi qəhrəmanlıq nümunələrindən danışılır. Əsərin qəhrəmanı həmyerlimiz Mirdaməd Seyidovdur. Məlumdur ki, o, Böyük Vətən müharibəsi illərində Yuqoslaviyada "İvan Russki" adı ilə şöhrət qazanıb və faşist işğalçılarına qarşı döyüşlərdə fədakarlıq göstərib.

### Müəllif

pyes boyu cərəyan edən hadisələr fonunda İvan Russkini elektrik yarımstansiyasını partladaraq gəmi təmiri zavodunun həmçinin digər müəssisələrin "qan damarını" kəsən, Sloven vilayəti hərbi valisinin rabitəçisi ilə birgə onun sənədlərini ələ keçirən, Opçina qəsəbəsində cəllad, hiyləgər Bromberqi eləcə də onun əsgərini məhv edən, əsrlərdən təşkil edilən fəhlə batalyonunda Hitlerçilərin əleyhinə təbliğat işi aparan Monfolkondan Triyestə gedən gəmini partlada nəhayət Sloven vilayətinin hərbi valisi Raynerin başçılığı ilə keçirilən hərbi müşavirə zalını məhv edən qəhrəman olaraq təqim edir. Müəllif həmçinin özlərindən asılı olmayaraq əsir düşən millətlərin nümayəndələrinin ağır, dözülməz vəziyyətlərini, həmrəylik nümayiş etdirməklə müharibə meydanında mərdliklə ölməyi belə özləri üçün şərəf bilmələrini əsər boyu bir xətt üzrə canlandırır. Hətta sarsılmaz dostluğu italyan Mario Miliçin - ("İvan Russkinin") əvəzinə Məmmədin, Rıbakovun ölümə getməyə hazır olmaları səhnələri təsirli epizodlarda daha aydın şəkildə təqdim olunur. "Səadət yağış deyil" pyesində diqqəti çəkən əsas amillərdən biri də müəllif tərəfindən oçerkizmə, sənədliliyə uymamaqla zamanının insanlarının xarakterindəki ən nəcib cəhətləri bədii inandırıcılıqla göstərməyə müvəffəq olmasıdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, həyat materialının zənginliyi, müəllifin insanların hünər və rəşadətini geniş miqyasda əks etdirmək meyli "Səadət yağış deyil" pyesini maraqlı və baxımlı edə bilib. Qeyd etmək lazımdır ki, psixoloji vəziyyətlərdən doğan hadisələr fonunda pyesdə dramatizim mahiyyətinin dəqiq açılması müəllif tərəfindən düzgün boyalarla təsvir edilib.

**Novruz Gəncəli dramaturgiyası, reallıq və həqiqətləri özündə ehtiva etməklə hər zaman aktuallığını qorumaqla maraqla oxunur. Səhnə əsərləri bu gün də müasirdir. Onun yaradıcılığı uzun illər tədqiq olanraq dramaturgiyamızın Azərbaycan səhnəsinə daha müasir düşüncəli rejissor traktofkası olaraq tərənnüm tapması qədər uğurludur.**

**Anar Burcəliyev**
**Teatrşünas-tənqidçi**

# "Sandıq"dan görünənlər




Nəzakət Bağırova
Bakı Slavyan Universiteti Beynəlxalq Münasibətlər və Regionşünaslıq, Jurnalistika fakültəsinin II kurs tələbəsi


**Müəllifi Qalib Şəfahət olan "Sandıq" romanının bədii təsvirlərlə başlaması oxucuda Qarabağın füsunkar təbiəti haqqında geniş təsəvvür yaradır.**

Əsər türk-erməni münaqişəsi üzərində qurulan sujet xətti ilə irəliləyir. Əzəldən ermənilərin türklərə qarşı nifrətinin səbəbləri elə erməni qadınlarının dili ilə açıqlanır. Ermənilərin dost görkəmli düşmənlikləri türklərin "şeytan azdıran yol", ermənilərin "türk uçan yol" dedikləri "Çöl yolu" hadisəsində məharətlə təsvir edilir. Bu yol haqqında hərə bir söz deyir. Yazıçı bu məqamda "kişinin tufağını dağıtmaq istəyirsənsə qadının əli ilə dağıda bilərsən" ifadəsini işlədərək həyat gerçəklərinə sığal çəkir. "Bir adamı ələ almaq istəyirsənsə əvvəl həmin adamın etibarını qazanmalısan" ifadəsilə yenidən həyat gerçəklərinə dönürük. Əsərdə bunun kimi psixolojik məqamlar az deyil.

Bir gün xəbər gəlir ki, Taleh yanında bir erməni qızı ilə "Çöl yolu" deyilən yoldan dərəyə "uçub". O vaxtdan bu yolun adı ermənilər arasında "türk uçan yol" kimi qalıb. Onların ölümünə hərə bir söz desə də, nəticə həmişə eyni olur: Burdan uçan ya dəmdən uçur, ya da ki qəmdən. Bir dəfədə ermənilər belə deyəndə "dəli Kərim" deyilən dəliqanlı bir kişi sözü onların "ağzından vurur" və "birdə bu sözü kimdən eşitsəm, yaxşı olmayacaq" deyir. Sonralar ermənilər bu sözü türklərin yanında işlətməyə çəkinsələr də öz aralarında deyirdilər.

### Əsərin gedişində

Anuşun ziddiyətli obrazı oxucunu düşündürür. O həqiqətən oğlunun qansızlıqlarına göz yuma bilmirdi? Yoxsa urvatsız ölcəyindən qorxurdu? Bəlkə də, İsmayılın xəyalının qabağında utanmaqdan çəkinirdi... Axı, o İsmayıl dərin məhəbbətlə sevirdi. Ona olan nifrəti belə sevgisindən yaranmışdı. Axı, nifrətdə bir duyğudur. Onun belə dəyəri var. Oğlunun İsmayıla bənzəməsini istəyirdi. Nolsun ki, Zorik İsmayılın oğlu idi, axı o, Aşotun əlindən su içmişdi. Türklərə nifrət hissi ona aşılanmışdı. Bir vaxtlar milis paltarına həsədlə baxdığı İsmayıla Aşotun "sən o türkün küçüyüsən" dediyi andan bəri nifrət edirdi. Axı, o heç bilmirdi ki, İsmayılın oğludur. Bəs niyə İsmayıl onların yanında deyildi? Niyə oğluna qayğı göstərmirdi? Niyə onları Aşot kimisinin yanında "gözükölgəli" edirdi? Zorik bu sualları özünə verərək böyümüşdü. Bəlkə də, onu bu qədər qəddarlaşdıran şey sevgisizlik hissi idi.

### Nifrət olan qəlbdən yaxşı əməl çıxmaz

*Romanın sətirlərinə qərq olduqca Zorikin qəddarlığının Anuşun əməllərinin əsəri olduğunu anlayırıq. Axı, Zori Balayanda bir vaxtlar uşaq idi, türk-erməni anlamırdı və onun qəlbini qaralayırdılar. Anasının əxlaqsız əməllərini görə-görə, Aşotun nifrətini dadaraq böyümüşdü. Aşotun türklərə qarşı olan nifrəti Zorikin qəlbinə ilmə-ilmə işlənmişdi. İlan belə zəhəri kərtənkələdən alarmış. Bunlara baxmayaraq bütün günahlar Anuş və İsmayılın idi. Axı, Zorik uşaq olanda anlamırdı ki, niyə İsmayıl türk arvadı və oğluna qayğıyla yanaşır. Anlamırdı ki, oğlu olduğu halda ondan niyə sevgi görmür. Məktəbə gedirdi və ona "türk bizim düşmənimizdir" düşüncəsi təbliğ olunurdu. Artıq heç nəyi anlamayan Zorik geridə qalmışdı.*




*İndi onun qəlbi nifrətlə yanırdı. Körpə bir balanı anasının qucağından alıb oda atsa da, məsum bir uşağı mismarlarla divara çaxsa da sönmürdü bu nifrət. Nə fəryadlar, nə də ki qarğışlar dayandırırdı onu. İndi Anuşun tapdığı o cəhənnəm kitabı, onun yuxusunu əlindən alan sətirlər dolayı yolla olsa da, öz əlindən yazılmışdı. Dostun pis olarsa, onu qınaya bilərsən.*

Qohumun pis olarsa onu nifrət edə bilərsən. Hətta anan və atan pis olarsa onları da qınaya bilərsən. Amma, əgər övladın pisdirsə özünü qınamalısan. Çünki, təbliğ ailədən başlayır. Uşağın necə güldüyündən nəyə güldüyünə qədər hərşey ailənin əsəridir. Bədəlyanın Xorenlə yola çıxması əsərin ən həyəcanlı məqamıdır. Yazıçının qüsursuz bədii təsvirləri ilə bu hissə oxucunun gözündə film epizodu kimi canlanır. Səhifələri vərəqlədikcə hər an oxucu həyəcanla nə olacağını gözləyir. Xoren müharibədə həlak olanları İrəvana çatdırırdı. Bu vəzifəsinə görə sanki insanlar ona daha çox nifrət edirdi. Amma insanların nifrətinin tək səbəbi bu deyildi. Xoren çox boş, çox alçaq bir adam idi. O qədər bədnam idi ki, Bədəlyan həlak olmuş dostu üçün pis olanda belə "bu zəmanədə dosta görə kimdi pis olan? Hərə öz başını girələyir. Bəlkə də haqçısı o, döyüşdə olanda qaçıb gedib. Kimdi axı əsgər yolunu gözləyən. Bu da üz vurub deməyə çəkinir" deyə düşünür. Xorenə başqalarının ölümü heç də üzücü gəlmirdi.

### Müharibədə

həyatını itirməsə də, insani duyğularını itirmişdi. Bəlkə də, illərlə müharibədə olduğundan artıq bunu vecinə almırdı. Bədəlyanla yol getdiyi zaman onun dedikləri və etirafları Xorenin bütün mənəvi iyrəncliyini ortaya çıxarır. İllər öncə etdiyi iyrəncliyi Bədəlyanın kim olduğunu bilmədən etiraf edir. Yazıçı "qisas qiyamətə qalmaz" deyərək Xoreni Bədəlyanın əliylə mat edir.

Əsərin sonunda Anuşun İsmayılın ruhuyla üzləşməsi onların bəlkə də ilk və son səmimi görüşü idi. Bu son görüşdən yeni etiraflar doğur. İsmayıl Anuş haqqında ilk dəfə əsl düşüncələrini deyir. Anuş ilk dəfə İsmayıla nifrətinin səbəblərini açıqlayır. İsmayıl erməni qadının vəfasızlığını onun üzünə vurur. "Yaxşı ki, sən gəlin kimi qapımızın kandarından keçməmisən" deyərək onun qadınlıq qürurunu yerlə bir edir. Yazıçı "kişi gərək qadının qüruru ilə hesablaşmağı bacarsın" deyir. İsmayıl isə sanki bunu bilə-bilə Anuşu alçaltmaq istəyirdi. Anuşun İsmayıla nifrət dolu sözlərinin altında isə ona olan sevgisinin, həsədinin qığılcımlarını müşahidə edirik. İsmayılın da müsbət bir obraz olduğunu deyə bilmərik. Türk-erməni münaqişəsi başladığı dövrdə bir çox türk-erməni cütlükləri kimi onlar da ayrılmışdılar. Bəs niyə İsmayıl buna baxmayaraq Anuşun evinə getməyə davam edirdi? Aşot bir yana, Anuş bunu necə qüruruna sığışdıra bilirdi? Bütün bunların cavabını yazıçı, Zori Balayanın nifrətində sorğulamışdı.

**İsmayılın xəyalı bir daha dönməmək üzrə gedir. Anuş onu izləyərək cənnətlə cəhənnəm arasına gəlib çatır. İsmayılı gözdən itirsə də, özünü İsmayılın nəvəsi kimi təqdim edən bir qız onu cənnətə aparmaq istəyir. Bura elə bir yer idi ki, səslər danışmır, sanki düşüncələr danışır. Anuş bu qızın Zorikin günahsız yerə oda atdığı qız olduğunu anlayır. "Anasına nə cavab verəcəm axı, kaş ki, onun yerinə oğlum yansaydı" deyə düşünərək ayağa qalxır və "insan gərək öz yerini bilsin. Cənnətdə xəcalət çəkə-çəkə yanmaqdansa cəhənnəmdə yanmaq yaxşıdır" deyərək vahiməli səslərin alovun işığıyla rəqs etdiyi səmtə gedir.**

## TƏBRİK



**Azərbaycanın ən gözəl qızlarından biri, xanımlar xanımı Aylanın dünyaya gəlişi təkcə ata-anasının, nənəbabasının, dayı-xalasının, əmisinin deyil, həm də bu ailəni tanıyan, bu ailəyə böyük sayğı bəsləyən hər kəsin ürəyincə oldu. Çünki adı kimi özü də gözəl olan bu xanım gəlişi ilə bir evin, bir ailənin işığını bir az da artırdı. Xüsusilə dayısı Sübhanın ürəyinin hərarəti, qəlbinin pıçıltısı, yuxularının şirinliyi nağıllaşdı və o Aylanı həyatının mənası kimi gördü. Elə bu gün də onu hamıdan əvvəl dayısı, sonra isə bütün doğmaları ürəkdən təbrik edir, doğum günün mübarək olsun, Ayla xanım! - deyir.**

**Biz də bu təbrikə qoşulur və bu çiçəyə cansağlığı, sevinc, təbəssüm, həmçinin həyatın bütün gözəlliklərini arzu edirik. Allah atalı-analı böyütsün.**

## Şenol Güneş istefaya göndərildi



*Türkiyə milli komandasının baş məşqçisi Şenol Güneş istefaya göndərilib. Qol.az xəbər verir ki, tərəflər qarşılıqlı razılıq əsasında əməkdaşlığa son qoyub.*

*Qeyd edək ki, 69 yaşlı mütəxəssis 2019-cu ilin fevralından millini çalışdırırdı. O, 2000 - 2004-cü ildə də yığmaya rəhbərlik etmişdi. Avro-2020-də uğursuz çıxış edən Şenol Güneşin komandası bir neçə gün əvvəl DÇ-2022-nin seçmə mərhələsində Niderlanda 1:6 hesabı ilə uduzub ki, bu da onun istefaya göndərilməsinin əsas səbəblərindən oldu.*

## Neymardan onu tənqid edənlərə etiraz - "Daha nə etməliyəm?"



*Braziliya millisinin hücumçusu Neymar onu tənqid edənlərə etirazını bildirib.*

*Qol.az xəbər verir ki, 29 yaşlı futbolçu DÇ-2022-nin seçmə mərhələsində Peruya qalib gəldikləri oyundan (2:0) sonra açıqlamasında deyib:*

*"Komandanın uğuru mənim üçün hər şeydən üstündür. Braziliya yığmasının DÇ-2022-nin seçmə mərhələsində bombardiri olduğum üçün şadam. Həmçinin, ən çox məhsuldar ötürmə verən oyunçu da mən oldum. Yaxında Peleni qabaqlamaq və Braziliya tarixinin bombardiri olmaq kimi şərəfə nail ola bilərəm. Lakin insanların, şərhçilərin, jurnalistlərin necə hörmət etmələri üçün daha nə edəcəyimi bilmirəm. Müsahibə etməyi sevmirəm, lakin lazım olanda buna hazıram".*

*Qeyd edək ki, Neymar Peru ilə görüşdə komandasının 2-ci qolunu vurub.*

## "Barselona"da yeni müqavilə



*"Barselona" futbolçusu Serji Roberto ilə müqaviləni yeniləyib.*

*Qol.az xəbər verir ki, 29 yaşlı yarımmüdafiəçinin yeni sözləşməsi 2024-cü ilin yayına qədərdir. İspaniyalı futbolçunun məaşla bağlı kluba güzəştə getdiyi bildirilib.*

*Qeyd edək ki, "Barselona"nın yetirməsi olan Serji Roberto əsas komandada 2009-cu ildə debüt edib.*

## Messi Pelenin rekordunu qırdı

**DÇ-2022-nin Cənubi Amerika zonası üzrə seçmə mərhələsinin 10-cu turunda Boliviyanı qəbul edən Argentina 3:0 hesablı qələbə qazanıb.**

**Qol.az xəbər verir ki, kapitan Lionel Messi oyunda het-trik edib. Bununla da 34 yaşlı hücumçu bir neçə rekorda imza atıb.**



**Messinin milli komandada vurduğu qolların sayı 79-a çatıb. O, əfsanəvi braziliyalı Peleni (77 qol) üstələyib və Cənubi Amerikanın yığma komandaları oyunçularının qollarının sayı üzrə rekorda imza atıb.**

**PSJ-nin futbolçusu həmçinin, peşəkar karyerasındakı qollarının sayını 750-yə çatdırıb. Leo buna 932 oyunda nail olub. Bu, eyni zamanda Messinin yığmada 7-ci het-trikidir. Messi dünya çempionatının seçmə mərhələsində iki het-trik edən yeganə argentinalıdır.**

## Ronaldo: "Geri dönə biləcəyimi heç düşünmürdüm"



**"Bura dincəlmək üçün gəlməmişəm. Əvvəllər bu klubda mənim üçün hər şey yaxşı idi, müntəzəm olaraq kuboklar qazanırdıq. Uzun illər bu formada oynadım. Amma indi yenə qalib gəlmək üçün burdayam. Oynamağa hazıram və düşünürəm ki, yaxın 3-4 ildə əsas oyunçu olacağam".**

**Qol.az xəbər verir ki, bu sözləri "Mançester Yunayted"ə qayıdan Kriştiano Ronaldo deyib.**

**O, geri dönə biləcəyini heç düşünmədiyini vurğulayıb: "Amma bunun baş verdiyinə sevindim. Həyəcanlanlıyam, oynamağa başlamaq istəyirəm. Sulşerə təzyiq edəcəyəm ki, məni əsas heyətə daxil etsin. Oynamağa hazıram!".**

## "Bavariya"nin yeni transferinin 16 yaşı var



**"Bavariya" yeni futbolçu alıb.**

**Qol.az xəbər verir ki, Münhen təmsilçisi xorvatiyalı yarımmüdafiəçi Lovro Zvonareklə müqavilə bağladağını açıqlayıb. Hazırda "Slaven"də oynayan 16 yaşlı futbolçunun müqaviləsi gələn ilin yayında qüvvəyə minəcək.**

## "Məğlubedilməz Harri" və "Məğlubedilməz Ermənistan ordusu" fiaskoları: Məmmədyarovdan növbəti qələbə!

**Bu ilin iyul ayında Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən "Croatia Grand Chess Tour"un blits turniri Azərbaycan üçün uğurlu oldu desək yanılmarıq.**

İki günlük turnirin birinci günündə Şəhriyar Məmmədyarov 9 turda mübarizə apardı.

Beləliklə, Şəhriyar Məmmədyarov ilk görüşdə fransalı Maksim Vaşye-Laqrava məğlub olub. Daha sonra rusiyalı Yan Nepomnyaşiyə və niderlandlı Jorden Van Forestə qalib gəlib. Rusiyanın daha bir şahmatçısı Aleksandr Qrişuk və polşalı Yan-Kşıştof Dudaya məğlub olan şahmatçımız 6-cı turda eks-dünya çempionu, Rusiyanı təmsil edən Harri Kasparov üzərində cəmi yeddi gedişə qələbə qazandı

.Adalet.az xəbər verir ki, şahmat üzrə "Champions Showdown: Chess 9LX" turnirində start verilib.

10 şahmatçının yarışdığı turnirdə Azərbaycanı Şəhriyar Məmmədyarov təmsil edir.

***Artıq ilk üç turun görüşü keçirilib. Şəhriyar Məmmədyarov I turda Hikaru Nakamuraya (ABŞ) qalib gəlib. O, II turda Maksim Vaşye-Laqrava (Fransa) uduzub. "Şah" III turda keçmiş dünya çempionu Harri Kasparov (Rusiya) üzərində qələbə qazanıb.***

Bu nəticədən sonra Məmmədyarov 2 xalla üçüncü sırada qərarlaşıb. İlk sırada 2,5 xalı olan Fabiano Karuanadır (ABŞ).

Qeyd edək ki, bu gün Şəhriyar Məmmədyarov Vesli So (ABŞ), Leynyer Dominqes Peres (ABŞ) və Sem Şenkləndlə (ABŞ) matç keçirəcək.

### "Məğlubedilməz Ermənistan ordusu" və "məğlubedilməz" Harri






***Yeri gəlmişkən, qalib Şəhriyar Məmmədyarovun məğlub etdiyi dünya şöhrətli bakılı qrossmeysterin haqqında qısa bir xatırlatma verəcəyik.***

Erməni südü əmmiş nankor azərbaycanlı Harri Kimoviç Vaynşteyn (Kasparov) 1963-cü il aprelin 13-də Bakıda mühəndis ailəsində anadan olub. Atası mənşəcə yəhudi Kim Vaynşteyn neft energetika mühəndisi, anası Dağlıq Qarabağdan olan milliyətcə erməni Klara Kasparova isə avtomatika və telemexanika üzrə mütəxəssis idi.

Harrinin 7 yaşı olanda atası Kim Vaynşteyn xərçəng xəstəliyindən vəfat edib. Harrini anası Klara Kasparova böyüdüb. 1975-ci ildə SSRİ-də gizli antisemitizmin (yəhudilərə qarşı düşmənçilik) mövcud olması səbəbindən Klara Kasparova yaşına görə, həddən artıq zəka nümayiş etdirən oğlu Harrinin umidverici şahmat karyerasını əngəlləməmək üçün aşkar yəhudi soyadı olan Vaynşteyni özünün qızlıq soyadı Kasparovla əvəzləyib.

Harri Kasparov uşaq yaşlarında şahmata böyük maraq göstərir və müasir dillə desək, əsl vunderkind kimi yetişir. Onun fenomenal şahmat istedadı Bakı Pioner Sarayındakı şahmat dərnəyində özünü biruzə verir.O, 15 yaşında SSRİ-nin ən gənc idman ustası və şahmat çempionatının ən gənc iştirakçısı olur. 16 yaşında isə SSRİ çempionu adını qazanır və ittifaq tarixində bu adı alan ən gənc şahmatçıya çevrilir. 1980-ci il 17 yaşlı Harri Kasparov SSRİ yığmasının heyətində Avropa çempionu olub. Eyni zamanda 1980-ci ildə Bakı şəhərindəki 151 saylı orta məktəbi qızıl medalla bitirib.

Kasparov 1985-ci il noyabrın 9-da dünya çempionu Anatoli Karpovu gərgin görüşdə 13:11 hesabı ilə məğlub edərək 22 yaşında şahmat üzrə dünya çempionu olub.

### Nankor və məğlub Harri...

Azərbaycan SSR-in əməkdar məşqçisi, dəfələrlə müxtəlif FİDE komitələrinə üzv seçilən Çapay Sultanov yazır: "Qarabağ münaqişəsinin kritik günlərində ən güclü informasiya zərbəsini Azərbaycana məhz Andrey Saxarov və Harri Kasparov vurdu. Harri Kasparovun məşhur "Bakıda yalnız erməni olduğuna görə səni öldürürlər" ifadəsi dünyanın bir çox tanınmış KİV-lərinin manşetinə çevrildi.

Mediadan:Müxbirin məşhur şahmatçıya sualı:

**- Dünya çempionluğundan sonra siz qazancınızı Bakıdakı erməni əhali arasında bölüşdürəcəyinizi açıqladınız...**

- 1990-cı ildə şahmat tacımı satdım və onu hazırkı FİDE prezidenti Kirsan İlümjinov aldı. Pulları həmin ilin yanvarında dəqiq bölgü əsasında Bakıdan olan qaçqınlara payladım. 6500-dək qaçqın ailə arasında biz də var idik.

**- Ermənistandan da azərbaycanlılar qaçqın düşmüşdü. Pulları onlar arasında bölüşdürə bilməzdiniz?**

- Mən bir nəfərəm və Bakıdan qaçanlara mənsub idim".

**Əntiqə Rəşid**

Kürdəmir rayon sakini mərhum İsmayılov Şakir Oruc oğlunun adına verilmiş A 013679 - Şamaxı rayon Aqrar İslahat Komissiyasının 24.07.2004-cü il tarixli 01 saylı qərarı ilə 399 kv.m fərdi yaşayış evi tikmək üçün torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

**"Lənkəran -Aqroservis" ASC-nin Səhmdarlarının NƏZƏRİNƏ**

**04 oktyabr 2021-ci il tarixində saat 18:00-da "Lənkəran-Aqroservis" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.**

**Gündəlik məsələlər:**
**1. Cəmiyyətin idarə heyyətinin sədrinin seçilməsi**
**2. Cəmiyyətin maliyyə vəziyyəti**
**3. Cəmiyyətin fəaliyyətsizliyi və iflasa uğraması**
**Ünvan: Lənkəran şəhəri Füzuli -75**

Aqil Abbas **Akif Rəfiyevə** həyat yoldaşı
**Əsmayə xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aslan Mehdiyev ailə üzvləri ilə birlikdə **Akif Rəfiyevə** həyat yoldaşı
**Əsmayə xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nəbi Muxtarov və Əbülfət Mədətoğlu **Akif Rəfiyevə** həyat yoldaşı
**Əsmayə xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**
Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x həsab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 122
Çapa imzalanmışdır: 10.09.2021